www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10 iyun 2015-ci il Çərşənbə № 125 (6153) Qiymәti 40 qəpik

**Xəbər**

## Bələdiyyə sədrinin qətli ilə bağlı yeni təfərrüatlar

yazısı səh.12-də

**Gündəm**

### Bakı ilə Vaşinqton arasında Şahtaxtinski qalmaqalı



ABŞ Azərbaycan hökumətini ATƏT-in Bakı ofisinin bağlanması qərarını geri götürməyə çağırdı və qərarı "qanunsuz" adlandırdı

yazısı səh.8-də

### Bakı-2015-də çempion olan 100 min manat alacaq

yazısı səh.4-də

### 77 təşkilatın siyasi məhbusları "cinayətkar" adlandırması etiraz doğurdu

yazısı səh.6-da

### Azərbaycanlı siyasətçilər Türkiyədəki seçkiləri dəyərləndirdilər

yazısı səh.9-da

### Ekspertlər imtahanların "2" nəticələrindən danışdılar

yazısı səh.13-də

### Mağazalardakı ucuzlaşma kampaniyalarının arxasındakı sirr

yazısı səh.15-də

### Bakıda sərnişinləri ölümə aparan avtobuslar...

yazısı səh.11-də

### BVF-nin manat proqnozu-devalvasiya təhlükəsi sovuşub?

yazısı səh.14-də

### İqtidarın da, müxalifətin də "ortaq bəlası"-layk...

yazısı səh.15-də

### Azərbaycan Kürdləri Birliyinin rəhbərindən narahatlıq dolu müraciət

yazısı səh.9-da

### Amerika səfiri Müsavata gəldi

yazısı səh.2-də

## Açılış üçün hər şey hazır, amma...

# MƏMMƏDOVLARIN DƏBDƏBƏLİ YELKƏN-HOTELİ AÇILMADI - ŞOK İDDİALAR VAR

Anar Məmmədovun amerikalı milyarderlə şərikli tikdirdiyi "Trump Towers"in açılışı niyə ləngidi? Avropa Oyunları hotelin həm tanınması, həm də qazanc əldə etməsi üçün yaxşı şans yaradırdı, fəqət...




yazısı səh.4-də

# Əliyev, Putin və Ərdoğanın saatlarında Bakı vaxtı... - təhlil

Rusiya və Türkiyə liderləri eyni gündə Azərbaycana gəlir; Qarabağ, Xəzər, qaz layihələri diqqət mərkəzində olacaq; Bakı təkcə Avropa Oyunlarına ev sahibliyi etməyəcək, həm də...

yazısı səh.5-də



Dəyanət Rzayev

### Tanınmış psixoloq Abutalıbovla görüşündən danışdı

yazısı səh.12-də



*Atilla Kaya:*

### "HDP-nin içində olduğu koalisiya olarsa..."

yazısı səh.3-də



*Elbəyi Həsənli:*

### "Zamanı gələndə əlimdəki faktları ortaya qoyacam"

yazısı səh.10-da



## İlham Əliyev və ailəsi Bakıdakı Atletlər Kəndində

**Azərbaycan Respublikasının prezidenti İlham Əliyev, Azərbaycanın birinci xanımı, "Bakı-2015" Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri iyunun 9-da Atletlər Kəndində olublar.**

Virtualaz.org AzərTAc-a istinadən bildirir ki, burada dövlət başçısı Azərbaycanı birinci Avropa Oyunlarında təmsil edəcək idmançılarla görüşüb.

## "Hökumət qurmağı sınamaq lazımdır"

**"Seçkinin nəticəsini çaxnaşma yaratmadan, sağlam şəkildə qiymətləndirməliyik". Axar.az xəbər verir ki, bu açıqlama ilə Türkiyənin sabiq prezidenti Abdulla Gül çıxış edib. O, iyunun 7-də ölkədə keçirilən parlament seçkisinə münasibət bildirib:**

"Çoxpartiyalı bir sistemdə yaşayırıq. Bu cür nəticələr hər zaman ola bilər. Keçmişdə də çox olub. Hər kəs çox çalışdı, çox yoruldu. Birlikdə bir hökumət qurmağı sınamaq lazımdır. Seçki asan bir şey deyil. Məmləkətin idarə edilməsi məsələsinə bir ananın uşağına yaxınlaşdığı kimi yaxınlaşmaq lazımdır. Yəni ölkənin anası kimi... Yetkin bir şəkildə".

Qeyd edək ki, iyunun 7-də keçirilən parlament seçkisində AKP 258, CHP 132, MHP 80, HDP 80 millət vəkili yeri qazanıb. Türkiyədə bir partiyanın təkbaşına hökumət formalaşdırması üçün parlamentdə ən azı 276 millət vəkili yeri qazanması lazımdır. Hazırkı nəticələr isə koalisiya hökumətinin qurulmasını tələb edir.

## "BP-Azerbaijan" "Qərbi Azəri"də hasilatı dayandırır

**"BP-Azerbaijan" yayda "Çıraq" yatağında profilaktik işlər planlaşdırır. Bunu şirkətin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qordon Birrell jurnalistlərə bildirib.**

"Hazırda "Qərbi Azəri"dəki profilaktik işlər sona yaxınlaşır. 1-2 aydan sonra "Çıraq" yatağında profilaktik işlər planlaşdırırıq"- deyə o qeyd edib.

Qordon Birrell deyib ki, "Qərbi Azəri"dəki profilaktik işlər AÇG-də sutkalıq hasilat həcminə təsir edir: "Amma bu, illik proqnoza təsir etmir, çünki platformanın dayandırılması və profilaktik işlər planlı xarakter daşıyır".

VR 21 may 2015-ci ildə "Qərbi Azəri" yatağında profilaktik, təftiş və layihə işləri ilə bağlı 22 günlüyə işləri dayandırıb.

Əvvəllər məlumat verildiyi kimi, bu ilin I rübündə "Çıraq" yatağında sutkada 54 min barel, "Qərbi Azəri" yatağında 129 min barel neft çıxarılıb.

2014-cü ildə AÇG blokundan 31,5 mln ton neft hasil edilib. Bu il proqnoz 30,3 mln. tondur (SOCAR-ın məlumatı) ("Turan").

## Suriya ermənilərinin Qarabağa köçürüləcəyi haqda yeni anons

**Ermənistanın hakim Respublika Partiyasından olan deputat Taçat Vardapetyan Suriya ermənilərinin Ermənistana və Dağlıq Qarabağa köçürüləcəyinin anonsunu verib.**

Modern.az Ermənistan mətbuatına istinadən xəbər verir ki, Suriya-Ermənistan parlamentlərarası dostluq qrupunun iyunun 1-dən 5-dək Suriyaya səfərini şərh edən Vardapetyan suriyalı ermənilərin ölkəyə axınının olacağını deyib: "Onların Ermənistanın vilayətlərində və Dağlıq Qarabağda yaşamaları üçün şərait var. Bizim üçün ənənəvi diaspor mərkəzlərindən sayılan Suriyadan mühacirətin olması təəssüfləndirici olsa da, soydaşlarımızın tarixi vətənlərində yerləşdirilməsi üçün hər şeyi etməyə hazırıq".

2011-ci ilin yazında Suriyada vətəndaş müharibəsi başladıqdan sonra 100 minlik erməni icmasının 12 min üzvü Ermənistana gətirilib.

Onların bir qismi qanunsuz olaraq Azərbaycanın işğal altındakı Laçın, Kəlbəcər və Zəngilan rayonlarına köçürülüblər.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# İstanbulda gizli Qarabağ toplantısı

**İyunun 8-10 tarixlərində İstanbulda Cənubi Qafqaz münaqişələri mövzusuna həsr olunmuş toplantı keçirilir.**

Musavat.com bildirir ki, toplantı qapalıdır, iştirakçılardan toplantı barədə məlumat yaymamaq haqda söz alınıb.

Lakin sayt bu barədə bilgi əldə edə bilib. Məlumata görə, qapalı toplantının əsas mövzusu Cənubi Qafqazın həll olunmayan münaqişələri - Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiyadakı vəziyyətdir.

Avropa Birliyi, Norveç XİN və Norveç Helsinki Komitəsinin təşkilatçılığı ilə keçirilən konfransda hər üç Cənubi Qafqaz respublikasından ekspertlər, QHT rəhbərləri iştirak edir. Toplantı barədə mətbuatda və sosial şəbəkələrdə hər hansı açıqlama yoxdur, ancaq ehtimallara görə, toplantıda münaqişələrin hazırkı vəziyyəti, həll



imkanları, "xalq diplomatiyasının" durumu kimi məsələlər müzakirə olunacaq, ekspert rəy və tövsiyələri dinləniləcək.

Görünüri Avropa Birliyi müstəqil şəkildə Cənubi Qafqaz münaqişələrinə diqqət ayırmağa, prosesləri araşdırmağa başlayıb. Avropanın Cənubi Qafqaza müstəqil oyunçu kimi daxil olması ilə bağlı hələ ötən ildən yerli ekspertlərin rəyləri vardı. Belə çıxır ki, regiondakı hazırkı vəziyyət Avropanı hərəkətə gətirir.



## Növbəti imtahanların vaxtı açıqlandı

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası iyunun 11-də respublikanın bir sıra rayon və şəhərlərində, o cümlədən Naxçıvan, Qobustan, Ağcabədi, Ağdam Zərdab, Bərdə, Tərtər, Göyçay, Ucar, Kürdəmir, Ağdaş, Yevlax, Ağsu, İsmayıllı, Şamaxı, Quba, Şabran, Qusar, Xaçmaz, Xızı, Siyəzəndə həmçinin Naxçıvan Muxtar Respublikasının Kəngərli, Babək, Ordubad, Sədərək, Culfa, Şərur və Şahbuz rayonlarında yerləşən orta ümumtəhsil müəssisələrinin buraxılış siniflərində təhsil alan ( IX və XI siniflərdə) şagirdlər üçün mərkəzləşdirilmiş qaydada buraxılış imtahanları keçirəcək.**

"Qafqazinfo" qurumun saytına istinadən xəbər verir ki, bu imtahanda iştirak edəcək şagirdlər "İmtahana buraxılış vərəqəsi"ni internet vasitəsilə iyunun 1-dən etibarən çap edib götürə bilirlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara "Yaddaş kitabçası"ndan çıxarış da təqdim olunur. Burada şagirdlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır. IX sinif şagirdləri üçün imtahan saat 10:00 -da, XI sinif şagirdləri üçün isə saat 15:00 -da başlanır.

### Başsağlığı

**Milli Strateji və Düşüncə Mərkəzinin sədri İsa Qəmbər, Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divan üzvləri Fəxrəddin Abbasa xalası Şərəf xanımın vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**

***

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divan üzvləri Mübariz bəyə əmisi Babacan kişinin vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**

## İlqar Məmmədov türmədən Türkiyəyə məktub yazdı

### "Mən Azərbaycanda yeganə adam idim ki, Türkiyə-Ermənistan sərhədlərinin açılmasına çağırırdım"



**REAL Hərəkatının sədri İlqar Məmmədov Türkiyədə keçirilən 7 iyun parlament seçkilərinin nəticəsinə uyğun olaraq parlamentdə təmsil olunacaq AKP sədri Ahmet Davudoğluna, CHP sədri Kamal Kılıçdaroğluna, MHP sədri Devlet Bahçeliye və HDP həmsədri Selahettin Demirtaş və Figen Yüksekdağa təbrik məktubu ünvanlayıb.**

Azadliq.info bildirir ki, təbrikdə deyilir: Hörmətli partiya başqanları, Sizi 7 iyun 2015-ci il seçkilərində demokratiyanın Türkiyədə daha bir zəfəri münasibətilə ürəkdən təbrik edirəm. Uzun illərdir Türkiyə Cümhuriyyəti dünya əhəmiyyətli demokratik təcrübə yaşayır və onu bütün bəşəriyyətin marağında zənginləşdirir. Çox ümid edirəm ki, Türkiyənin gözəl nümunəsi Azərbaycanda da demokratik tərəqqiyə lazım olan yeni nəfəs verəcək".

**REAL sədri fürsətdən istifadə edərək xatırladıb ki, 2009-cu ildə REAL Hərəkatı Azərbaycanda Türkiyə-Ermənistan sərhədlərinin açılmasını dəstəkləyən yeganə siyasi təşkilat idi:** "O zaman sərhəd açılsaydı, bu gün Ermənistanın mövqeyində çox ciddi dəyişikliklər artıq baş vermiş olardı və Qarabağ münaqişəsinin dinc yolla həllinə yeni, əvvəllər görünməmiş imkanlar açardı. Ümid edirəm, Türkiyədə qurulacaq yeni hökumət yeni dəyərləndirmə əsasında doğru qərarlar verərək Azərbaycanın ərazi bütövlüyünün bərpası və Güney Qafqazda sülhə doğru əməkdaşlığa yeni yollar açacaq".

## "Hər kəs dediyi sözün üzərində özü dursun"

### Vaqif Əsədovdan Elnur Məmmədli açıqlaması

**Pekin Olimpiadasının qızıl medalçısı, Yol Patrul Xidmətində baş inspektor vəzifəsində çalışan Elnur Məmmədli saytlardan birinə verdiyi müsahibəsində 6 marketə sahib olduğunu bildirib.**

Məsələ ilə bağlı Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Vaqif Əsədov ölkə.az-a açıqlamasında bu barədə münasibət bildirmək istəmədiyini bildirib:

"Şəxsi məsələyə münasibət bildirmək istəməzdim. Hər kəs dediyi sözün üzərində özü dursun. Bunun təbliğat işinə bir aidiyyəti olmadığına görə məsələyə münasibət bildirmək istəmirəm. Mənim tutduğum vəzifə "Yol hərəkəti haqqında" Qanunun təbliğatını aparmaqdır. Bu məsələ mənim funksional vəzifəmə aid olmadığından sualı cavablandıra bilmərəm".

## Rüstəm İbrahimbəyov Amerikaya gedib

**Xərçəng xəstəliyinə tutulan kinorejissor, Milli Şuranın fəxri sədri Rüstəm İbrahimbəyov təcili ABŞ-a gedib. Məlumata görə, buna səbəb İbrahimbəyovun səhhətinin birdən-birə ağırlaşması olub. Kinorejissor aznews.az-a ABŞ-getdiyini təsdiqləyib. Bildirib ki, hazırda özünü nisbətən yaxşı hiss edir: "Şükürlər olsun ki, səhhətim yaxşıdır. Amerikadayam, müalicəmi burada davam etdirirəm".**

Xatırladaq ki, tanınmış kinorejissor Rüstəm İbrahimbəyov mətbuata müsahibəsində bir ilə yaxındır ki, xərçəng xəstəliyindən əziyyət çəkdiyini və bu üzdən də Azərbaycana gələ bilməməsini deyib.

❑ Vüqar MURAD




## Amerika səfiri Müsavata gəldi

### Arif Hacılı ilə görüşdə hansı məsələlər müzakirə edilib?

**İyunun 9-da ABŞ-ın Azərbaycandakı səfiri Robert Frenses Sekuta Müsavat Partiyasının qərargahına gəlib. Qərargahda Müsavat Partiyasının başqanı Arif Hacılı ilə səfri Robert Sekuta arasında görüş olub. Müsavat Partiyasından verilən xəbərə görə, görüşdə Azərbaycanda ictimai-siyasi vəziyyət, Qarabağ probleminin həlli yolları, siyasi məhbuslar, payızda keçirilməsi nəzərdə tutulan parlament seçkiləri və digər mövzular ətraflı müzakirə edilib. Amerika-Azərbaycan münasibətlərinin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb.**

Görüşdə ABŞ səfirinin müşaviri Syuzan Çesli, Müsavat Patiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlı və başqan müavini Səxavət Soltanlı iştirak edib.

Qeyd edək ki, bu, ABŞ-ın yeni səfiri Robert Sekutanın Müsavat Partiyasının qərargahına ilk gəlişidir.

❑ E.SEYİDAĞA

## Hakerlər Amerika ordusunun saytını da dağıtdı

**ABŞ-ın Quru Qoşunlarının saytı naməlum hakerlərin hücumuna məruz qalıb, resurs müvəqqəti olaraq fəaliyyətini dayandırıb.**

AzərTAc Rusiyanın NTV telekanalına istinadla xəbər verir ki, Pentaqon resursda heç bir məxfi məlumatın saxlanmadığını və onun yalnız orduda xidmətin təbliğ olunmasına yonəldiyini bildirib.

Amerikalı hərbçilər sayta hücumla bağlı məsuliyyəti "Suriya elektron ordusu"nun öz üzərinə götürdüyünü qeyd ediblər. Bir qədər əvvəl suriyalı hakerlər "The New York Times", "The Guardian", "The he Washington Post" qəzetlərinin, "The Associated Press" agentliyinin kompüter şəbəkələrini, həmçinin müxtəlif informasiya telekanallarının səhifələrini də dağıtmışdılar.

## "Ramazanda əfv olması istisna deyil"

**"Bizə daxil olan müraciətləri Əfv Komissiyasına göndəririk. Onlar da zəruri materialları toplayır və sənədlər hazırlayır. Əfv Komissiyasının hansı qərara gələcəyi və prezidentin kimləri əfv edib-etməyəcəyi barədə isə dəqiq heç nə demək olmaz".**

Bunu virtualaz.org saytına açıqlamasında İnsan Hüquqları üzrə birgə İşçi Qrupun üzvü Əliməmməd Nuriyev deyib.

Əfv sərəncamı imzalanmasının prezidentin müstəsna səlahiyyəti olduğunu vurğulayan Ə.Nuriyev növbəti sərəncamın nə vaxt veriləcəyinin hələ dəqiq bəlli olmadığını söylədi: "Müstəqillik əldə olunandan bəri təxminən 57 əfv sərəncamı imzalanıb və 6 minə yaxın adam azadlığa buraxılıb. Bir qayda olaraq isə əfv sərəncamları yubiley tədbirləri və bayramlar ərəfəsində olur. Ona görə də Ramazan bayramı, yaxud da 15 iyun Qurtuluş günü ərəfəsində sərəncamın olması istisna deyil".

YENİ MÜSAVAT
N 125 (6153) 10 iyun 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# "HDP-nin içində olduğu koalisiya olarsa..."

## Atilla Kaya: "Həm səsimiz, həm millət vəkillərimiz artdı; başarılı bir sonucdur"

## MHP koalisiya məsələsini bu gün Ankarada müzakirə edəcək

**Türkiyədə keçirilən parlament seçkiləri Azərbaycanın da maraqları baxımından əhəmiyyətli siyasi hadisə kimi dəyərləndirilir. Üstəlik, bu seçkilərdə Azərbaycanın da sözünü demək fürsətindən hər zaman yararlanan, Azərbaycanı özünün ikinci vətəni sayan namizədlərin çox olması yalnız qürurverici hadisə sayılmalıdır.**

*Belə millət vəkillərindən biri, Milliyyətçi Hərəkat Partiyasından İstanbul millət vəkili seçilmiş Atilla Kaya seçkisonrası təəssüratlarını "Yeni Müsavat"a bölüşdü.*

***- Atilla bəy, növbəti dəfə millət vəkili seçildiyiniz üçün sizi ürəkdən təbrik edirik. HDP-nin qazandığı mandat sayından dolayı təəccüblənənlərimiz də az deyil. Siz real nəticələri necə qarşılayırsınız?***

- Güney Anadoluda və Şərqi Anadolu bölgəsinin bir hissəsində HDP 12 vilayətdə birinci partiya oldu. Bunlar kürdlərin çox sıx şəkildə yaşadığı şəhərlərdir. İstanbulda da kürdlərin sıx məskunlaşdığı məhəllələrdə kürdlərin böyük əksəriyyətinin səsini HDP aldı.

***- Yəni bu nəticələr sizi təəccübləndirmədi.***

- Yox. Özünü dindar və mühafizəkar sayan böyük bir kürd kəsimi var, onlar keçmişdə AKP-yə səs verirdilər. Ancaq bu seçimdə göründü ki, dindar kürdlər də səsini HDP-yə verdi.

***- MHP-nin qazandığı mandat sayı necə, sizi qane edirmi?***

- 2011-ci il parlament seçkilərinə görə MHP səslərini 2 milyon yarım artırdı. Həmçinin millət vəkillərimizin sayı 80-ə çatdı. Yəni həm səsimiz, həm millət vəkillərimiz artdı. Bəzi yerlərdə daha çox ola bilərdi, lakin şanslar itirildi. Məsələn, Qarsda səslər bölündü, millət vəkilimiz olmadı. Eyni şəkildə min, iki min səs fərqi ilə məğlub olduğumuz başqa



Atilla Kaya

yerlər də var. Bir az da artıq səs alsaydıq, parlamentə 100 millət vəkili ilə gedəcəkdik. Ancaq istənilən halda uğurlu bir sonucdur.

***- Türkiyədə koalision hökumətin qurulması əsas müzakirə mövzusudur. MHP koalisiyada təmsilçilik məsələsinə necə baxır, özünü orada görürmü?***

- Koalisiya olacaq. Ancaq bu koalisiya necə, kimlə kimin arasında olacaq, AKP ilə HDP, AKP ilə CHP-mi koalisiyaya gedəcək, yoxsa MHP-nin də içində olacağı koalisiyamı qurulacaq, hələlik bunu demək çətindir. Mən indi İstanbuldayam, sabah *(10 iyunda-E.P.)* Ankarada - partiyada toplantı var, ora gedəcəyəm. Orda bu məsələlər danışılacaq. Hələlik bu mövzuda qəti mövqe yoxdur.

***- MHP həmin toplantıda qərarını verə bilərmi?***

- Hələ ki danışılacaq, bütün ehtimallardan bəhs olunacaq.

***- HDP rəhbərliyində olan şəxslərdən biri bu arada ermənipərəst mövqedən çıxış edərək Qarabağı Azərbaycanın daxili işi adlandırıb, Türkiyəni bu məsələyə qatılmamağa, "soyqırımı" tanımağa, sərhədləri açmağa çağırıb. Türkiyə parlamentində böyük heyətə malik olan bir partiyanın belə mövqeyi Türkiyə və Azərbaycanın taleyi baxımından zərərli perspektiv vəd etmir ki?***

- HDP-lilərin mövqeyi zatən bəllidir. Onlar Türkiyə-Ermənistan münasibətlərinin tərəfdarıdır. "Erməni soyqırımı"nı tanıyan namizədləri də İstanbuldan seçildi. Yəni HDP Ermənistanın mövqeyini daha çox müdafiə edən bir partiyadır. Bu partiyanın içində ermənilərin də olduğunu zənn edirəm. HDP-nin belə bir şey söyləməsi normaldır, bu partiya üçün təbii haldır.

***- Bu, Türkiyə dövlətinin siyasətinə həlledici təsir göstərə bilərmi?***

- Vallah, o, qurulacaq koalisiyanın taleyinə bağlıdır. HDP-nin içində olduğu koalisiya olarsa, ciddi problemlər olacaq, həm Türkiyə üçün, həm Türk dünyası üçün... Amma HDP-nin içində olmadığı koalisiyada, ümumiyyətlə, belə bir şey mümkün deyil.

***- Erkən seçimlər də müzakirə mövzusudur və çıxış yollarından biri kimi göstərilir...***

- Əgər hər hansı nəticə olmasa, son çarə olaraq payızda erkən seçkilər keçirilə bilər.

***- Atilla bəy, sizinlə bərabər Azərbaycanda çox sevilən digər namizəd İsa Yaşar Tezelin də parlamentə düşməsini çox arzu edirdik. Amma...***

- Nəticə belə oldu. CHP gətirib orda birini namizəd irəli sürdü, səslər parçalandı. İqdırda səslər bölündü və bir sıra vətəndaşlarımız da bunu başa düşmək istəmədi.

***- Qars və İqdırda MHP-nin mandat sahibi olmaması Azərbaycan və Türkiyənin maraqları baxımından təhlükə vəd eləmir ki?***

- Elə bir ciddi şey olmaz. İqdır bizim vilayətimizdir. Amma konül istərdi ki, qardaşımız ordan mandat alsın. HDP-li millət vəkillərindən biri azərbaycanlı qadındır. Amma onun baxışlarının nədən ibarət olduğunu bilmirəm.

***- Parlament seçkilərindən sonra Ərdoğan iqtidarının Azərbaycanla bağlı siyasətində dəyişiklik gözləmək olarmı? Yaxud Türkiyə iqtidarının siyasi baxışları dəyişəcəkmi?***

- Yox, dəyişiklik olacağını zənn etmirəm. Azərbaycan-Türkiyə əlaqələri hökumətlərin fövqündə dayanan məsələdir. Hansısa sıxıntıların olması mümkündür. Amma köklü bir dəyişikliyin olacağını zənn etmirəm.

❑ **Elşad PAŞASOY**



# Azərbaycanda yaşayan türkiyəlilər Kılıçdaroğlunu seçib

## Türkiyə vətəndaşlarının yalnız 27,17 faizi AKP-yə səs verib

**İyunun 7-də Türkiyədə keçirilən parlament seçkilərinin nəticələri artıq məlumdur. Seçkilərin nəticələrinə əsasən, hakim AKP yenidən qalib gəlib. Ancaq toplanan səslər və mandat AKP-nin əvvəlki illərdə olduğu kimi təkbaşına hökumət olmasına imkan vermir. Çünki hazırkı Türkiyə seçki qanunlarına görə təkbaşına hökumət qurmaq üçün partiyalardan birinin 50 faizdən çox - 550 yerlik parlamentdə 276 mandat qazanmalıdır.**

Ötən 2011-ci il seçkilərinin nəticələri ilə müqayisədə hakim partiya təxminən 9 faiz səs itirib ki, müşahidəçilərə görə, bu səsləri böyük ölçüdə HDP (kürdlərin partiyası) və MHP əldə edib.

Maraqlıdır ki, xarici ölkələrdə keçirilən səsvermədə bəzi ölkələrdə AKP uduzub. AKP-nin uduzduğu ölkələrdən biri də Azərbaycandır. Rəsmi məlumatlara əsasən, Azərbaycanda 5 seçki qutusu mövcud olub. Ümumilikdə isə ölkədə olan türkiyəli seçici sayı 5915 nəfər olub. Ancaq seçkilərdə onlardan yalnız 28 faizi, yəni 1699 nəfər səsvermədə iştirak edib.

Azərbaycanda yaşayan Türkiyə vətəndaşlarının 30,01 faizi CHP, 27,17 faizi AKP, 20,97 faizi HDP, 17,84 faizi MHP və 2,66 faizi isə Səadət Partiyasına (seçki baryerini keçə bilməyib) səs verib.

Maraqlıdır ki, ötən ilin avqustunda keçirilən prezidenti seçkilərində də Azərbaycanda yaşayan türkiyəlilər hazırkı prezident Rəcəb Tayyib Ərdoğana deyil, onun əsas alternativi olan Ekmələddin İhsanoğluna səs verib. Belə ki, seçicilərin 53 faizi (502 nəfər) İhsanoğluna, 39 faizi (364 nəfər) Ərdoğana, 7 faizi (66 nəfər) isə HDP həmsədri Səlahəddin Dəmirtaşa səs verib.

Qeyd edək ki, Azərbaycanda bu cür nəticənin alınması bir sıra amillərlə izah olunur. Azərbaycanda yaşayan türkiyəlilərin seçimi ölkəmizdə məskunlaşan Türkiyə vətəndaşlarının hansı siyasi və etnik-dini qrupa bağlı olması ilə bağlı fikir yürütməyə imkan verir. Məsələn, gözlənildiyi kimi, Azərbaycanda türk milliyyətçilərinin sayı digər partiyalarla müqayisədə az imiş. Eyni zamanda AKP-nin də gözlənildiyinin əksinə olaraq Azərbaycanda qalib olmaması və kürd partiyasının 3-cü olması Azərbaycanda türkiyəlilərin siyasi mənzərəsinin rəngarəng olduğunu göstərir.

Ancaq təbii ki, Azərbaycanda Ərdoğanın deyil, İhsanoğlunun qalib olması, parlament seçkilərində isə CHP-nin, yəni solçuların üstünlük qazanması ilk növbədə camaat iddialarını yada salır. Aydın məsələdir ki, uzun müddət Azərbaycanda Fətullah Gülən camaatı türkiyəlilər arasında ağırlıq təşkil edib. Uzun müddət AKP camaatla ittifaqda olduğu üçün seçkilərdə də bu ittifaq nəticələrə təsir edirdi. Lakin məlum hadisələrdən sonra camaat AKP-yə deyil, digər qruplara səs verib. Görünən odur ki, Azərbaycandakı camaat nümayəndələri öz səslərini CHP və HDP arasında bölüşdürüblər.

❑ **KƏNAN**

# "Putinlə Ərdoğanın Bakıya gəlişi daha önəmlidir..."

## Zahid Oruc: "Bu, öz-özlüyündə idman bayramının üzərinə bir az da siyasi qatqılar edib, onun əhəmiyyətini daha güclü bir şəkildə təqdim eləməyə imkan yaradıb"

**Avropanın Fransa, Almaniya kimi iri, aparıcı dövlətlərinin rəhbərləri birinci Avropa Oyunlarının açılışında iştirak etmək üçün Bakıya gəlməsələr də, Azərbaycanın yaxın qonşuluğundakı iki nəhəng dövlət-Rusiya və Türkiyənin prezidentləri ölkəmizdəki bu mühüm tədbirin açılışına qatılacaqlar. Artıq bu barədə rəsmi informasiyalar da verilib. Bir sıra siyasi təhlilçilər hesab edir ki, Azərbaycan üçün qonşuluğundakı iki böyük ölkənin birinci şəxsinin Bakıya səfər etməsinin əhəmiyyəti daha yüksəkdir, daha önəmlidir, nəinki hansısa uzaq Avropa ölkələrinin.**

**Deputat Zahid Oruc** da düşünür ki, hansısa Avropa ölkəsinin rəhbərlərinin Avropa Oyunlarının açılışına qatılmamasından Azərbaycan itirmir. Qatılanlar kifayət qədərdir və Rusiya ilə Türkiyənin prezidentlərinin gəlişi daha önəmlidir: "Olimpiadalara gerçəkdən də dünyanın müxtəlif qitələrindən ölkə rəhbərlərinin qatılmasının şahidi olmuşuq. Bu, öz-özlüyündə idman bayramının üzərinə bir az da siyasi qatqılar edib, onun əhəmiyyətini daha güclü bir şəkildə təqdim eləməyə imkan yaradıb. Lakin Avropa Oyunları formatı üçün konkret olaraq bir model mövcud deyil ki, orada 20-30 və ya 50 ölkənin rəhbərlərinin iştirakı həmin tədbirin dünyəvi miqyasına təsir göstərir, onu bu cür legitimləşdirir. Əlbəttə, çox arzulayardıq ki, ilk növbədə Avropa arealına daxil olan ölkələrin rəhbərləri burada iştirak edərdilər. Çünki bu, öz-özlüyündə sülhü təşviq edir. Onların əksəriyyətinin leksikonunda bu ifadələr geniş yer tapmaqdadır. Angela Merkeldən Devid Kemerona qədər, o cümlədən ABŞ rəhbərləri səviyyəsində biz dəfələrlə dünyada sülhün, təhlükəsizliyin güclənməsi ilə bağlı mesajlar eşidirik. Avropa Oyunları Bakıdan belə müraciətlərin verilməsi üçün çox yaxşı tribuna idi. Sadəcə, iştirak faktı bu amilə xeyli dərəcədə təkan verirdi. Lakin bununla bərabər iştirak etməmələri də sırf Şərq mentallığında faciə kimi dəyərləndirilməməlidir. Rusiyanın heç də beynəlxalq münasibətlər sistemində əlverişli bir vəziyyətdə olmadığı bir dönəmdə Bakı turnesini yaxşı bir siyasi texnoloji addım kimi dəyərləndirənlər qoy bunu Avropa liderlərindən soruşsunlar ki, nədən onlar hansısa özəl bir mülahizəni əsas götürüb bu tədbirə qatılmayıblar".



Zahid Oruc

**Z.Oruc onu da qeyd etdi ki, burada iştirak etməmə faktı avtomatik olaraq siyasi məna kəsb eləmir. Çox mümkündür ki, iştirak etməyənlərin hər birinin özünəməxsus səbəbləri var və bəlkə də diplomatik yazışmalarda bu haqda da geniş izahatlar verilir:** "Bununla bərabər, yəqin ki, çox az bir qisminin gəlməməsinə Azərbaycandaxili səbəb qazandırmağının da şahidi olacağıq. Bir daha deyirəm ki, bu da yarışların ümumi şövqünə, əhəmiyyətinə mənfi təsir göstərməyəcək. Bu mənada Vladimir Putinin, Tayyib Ərdoğanın və daha 20 ölkə rəhbərinin iştirakı bütövlükdə sübut edəcək ki, Azərbaycanın hazırlıqları qarşısında qoyduğu yüksək hədəflər real idi, yerində idi, doğru seçilmişdi və biz ölkələrə bu vasitə ilə xitab eləmiş olduq, sübuta yetirdik ki, doğrudan da Azərbaycan sabitlik adasına çevrilə bilər".

**Z.Orucun fikrincə, Bakıya gəlməmək həmin dövlətlər üçün müəyyən mənada siyasi xal itkisidir:** "Yəni sırf o dövlətlərin özlərinin mənafeyi baxımından dəyərləndirirəm ki, o yarışlarda hər bir ölkənin yüzlərlə idmançısı iştirak edir. Nə qədər ölkələrin siyasi quruluşu fərqli olsa da bu reallıq Avropa məkanında çoxdan möhkəmlənib ki, ölkə rəhbərlərini, hökumət başçılarının idman yarışlarında iştirakı həmin ölkənin idmançılarının mübarizəsinə əlavə güc verir. Dövlət və ya hökumət başçılarının gəlməmələri avtomatik mənfi bir aspektdə də qiymətləndirilə bilər. Putin və Ərdoğan isə Bakı turnesini düzgün qiymətləndiriblər. Hesab edirəm ki, onların hər ikisi müasir dünyada idmanın nə qədər böyük siyasi önəm daşıdığını, buna dünyanın nə qədər diqqət kəsiləcəyini hesablayıblar. Lakin bütün bunların üzərindən ən mühüm uğurlar məhz Azərbaycanın adına yazılacaq. Azərbaycanın yaxın qonşuluğundakı iki böyük dövlətin Avropa Oyunlarının açılışında iştirak üçün gəlməsi Azərbaycanın maraqları baxımından ciddi əhəmiyyət daşıyır".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 125 (6153) 10 iyun 2015




# Bakı-2015-də birinci olan idmançılarımız 100 min alacaq

**I Avropa Oyunlarında yüksək nəticə qazanacaq idmançılar belə mükafatlandırılacaq. Virtualaz.org AZƏRTAc-a istinadən bildirir ki, sərəncamda prezident İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının idmançılarını və onların məşqçilərini Bakı şəhərində keçirilən I Avropa Oyunlarında ən yüksək nəticələr göstərməyə həvəsləndirmək məqsədi ilə qərara alıb:**

1. Bakı şəhərində keçirilən I Avropa Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

1.1. birinci yeri tutan hər bir idmançıya 100 min manat, onun şəxsi məşqçisinə 50 min manat;

1.2. ikinci yeri tutan hər bir idmançıya 50 min manat, onun şəxsi məşqçisinə 25 min manat;

1.3. üçüncü yeri tutan hər bir idmançıya 30 min manat, onun şəxsi məşqçisinə 15 min manat;

1.4. milli yığma komandaların baş məşqçilərinə ən yüksək nəticə göstərmiş bir idmançıya görə şəxsi məşqçinin aldığı məbləğ qədər (bir dəfə);

1.5. komanda idman növlərində komanda üzvlərinə (əsas heyət) və məşqçilərə (baş məşqçi və köməkçi):

1.5.1. birinci yeri tutan hər bir komanda üzvünə 30 min manat, komandanın məşqçilərinin hər birinə 15 min manat;

1.5.2. ikinci yeri tutan hər bir komanda üzvünə 20 min manat, komandanın məşqçilərinin hər birinə 10 min manat;

1.5.3. üçüncü yeri tutan hər bir komanda üzvünə 10 min manat, komandanın məşqçilərinin hər birinə 5 min manat.

Bundan başqa, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev Bakı şəhərində keçirilən I Avropa Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında da Sərəncam imzalayıb.

**Sərəncamda İlham Əliyev Azərbaycan Respublikası idmançılarını və onların məşqçilərini Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən I Avropa Oyunlarında ən yüksək nəticələr göstərməyə həvəsləndirmək məqsədilə qərara alıb:**

1. I Avropa Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

- birinci yeri tutmuş hər bir idmançıya 50 min manat, onun məşqçisinə 25 min manat;

- ikinci yeri tutmuş hər bir idmançıya 30 min manat, onun məşqçisinə 15 min manat;

- üçüncü yeri tutmuş hər bir idmançıya 20 min manat, onun məşqçisinə 10 min manat.

2. Komanda idman növlərində göstərilmiş ən yüksək nəticələrə görə mükafatlar aşağıdakı qaydada müəyyən edilsin:

- birinci yeri tutmuş komandanın hər bir üzvünə 15 min manat;

- ikinci yeri tutmuş komandanın hər bir üzvünə 10 min manat;

- üçüncü yeri tutmuş komandanın hər bir üzvünə 5 min manat.

## Açılış üçün hər şey hazır, amma...




# Məmmədovların dəbdəbəli yelkən-hoteli açılmadı - şok iddialar var

## Anar Məmmədovun amerikalı milyarderlə şərikli tikdirdiyi "Trump Towers"in açılışı niyə ləngidi? Avropa Oyunları hotelin həm tanınması, həm də qazanc əldə etməsi üçün yaxşı şans yaradırdı, fəqət...

**Nəqliyyat naziri Ziya Məmmədovun oğlu, "Garant-Holdinq"in prezidenti Anar Məmmədovun Bakıdakı 33 mərtəbəli hotelinin açılışı ləngiyir. Məlumatlara görə, Bakının Nəsimi rayonunda, Həsən Əliyev küçəsində tikilmiş mehmanxana hələ bir ay əvvəldən açılış üçün tam hazırlanıb. Amma bu mehmanxanaya qədər Bakıda 4-dək hotelin açılışı gerçəkləşsə də, nazir oğlunun hoteli nədənsə, yada düşməyib. Qeyd edək ki, əvvəl "Baku Towers" adlanan mehmanxana sonradan Məmmədovların amerikalı milyarder şəriki Donald Trumpun istəyi ilə "Trump Towers" olaraq dəyişib.**

Yelkən formasında tikilən bina 72 apartament və 189 hotel otağından ibarətdir. Sahələri 84-dən 890 kvadrat metrədək dəyişən 70-dən çox apartamentin uzunmüddətli icarəyə verilməsi nəzərdə tutulur. Hotelin ərazisində qapalı hovuzlu SPA-kompleks, fitnes mərkəzi, biznes mərkəzi və təmtəraqlı restoran inşa olunub. Hotelin 189 otağından ən kiçiyinin sahəsi 60 kvadrat metrdir. Hotelin birinci mərtəbəsində konfrans zalı, nahar zalı və bar, 500 kvadrat metr sahəsi olan qəbul zalı yerləşir. Hotel Dubaydakı kimi yelkənli qayıq formasındadır. Tikilinin dizaynı mənzil qərargahı Londonda yerləşən "Mixity Design Ltd" şirkəti tərəfindən hazırlanıb. Hotelin əsas səhmdarlarından biri rəsmi olaraq Anar Məmmədovdur və tikilini onun şirkəti həyata keçirib.

"Biz dünyada lüks sinifli tikinti işlərini həyata keçirən «Trump Organization» şirkəti ilə əməkdaşlıqdan son dərəcə şadıq. Bu, bizə Bakını ziyarət edən şəxslər və şəhər sakinlərinə yeni üslub nəslini, eksklüzivlik və nüfuzu simvolizə edən dünya dərəcəli apartament və hotel təqdim etməyə imkan verir" deyə, Anar Məmmədov müsahibələrinin birində deyib. Bu hotel istifadəyə verildikdən bir il sonra "Trump Hotel Collection"a məxsus hotellər şəbəkəsinə qoşulacaq. Vaşinqton və Vankuverdə, eyni zamanda Rio de-Janerio-da bu şəbəkədən olan hotellərdə hazırda tikinti işləri tamamlanmaq üzrədir.

Yeni tikilən hotelin iyunda istifadəyə veriləcəyi məlum idi, bu barədə rəsmi mənbələr hələ bir il əvvəl məlumat yayılmışdı. Gözlənilirdi ki, Bakıya xüsusi bir yaraşıq verən bu hotel Bakı Avropa Oyunlarınadək istifadəyə veriləcək. Çünki yarışlarda Bakıya Avropa və dünyanın bir çox ölkələrindən minlərlə adam gəlir və bir sıra mehmanxanalarda artıq boş yer belə yoxdur. Məhz bu səbəbdən də hotel mayın ortasından açılış üçün tam hazır vəziyyətə gətirilmişdi. Avropa Oyunları "Trump Towers"in həm tanınması, həm də təbii ki, qazanc əldə etməsi üçün yaxşı şans yaradırdı. Artıq oyunların startına cəmi iki sutka qalıb və hotelin məhz bu günlərdə açılışı inandırıcı deyil. Xatırladaq ki, bir neçə ay əvvəl milyarderin qızı, "The Trump Organization"in vitse-prezidenti İvanka Trump da Bakıda olub və tikinti meydançasına şəxsən baş çəkmişdi.

Ziya Məmmədovun oğlunun şərikli hotelinin açılışının hansı səbəbdən ləngiməsi barədə müxtəlif versiyalar var. Son aylar nəqliyyat nazirinin hakimiyyətdə mövqelərinin zəifləməsi barədə məlumatlar çoxalıb. Avropa Oyunlarından sonra mümkün kadr dəyişikliyi barədə iddialarda nəqliyyat nazirinin adı ilk üçlükdə çəkilir. İqtidarın Amerika-Azərbaycan Alyansının rəhbəri olan Anar Məmmədovun fəaliyyətindən narazı olduğu da gələn xəbərlər sırasındadır. Bugünlərdə isə məlum olub ki, nazir oğlu Makedoniyanın Azərbaycandakı fəxri konsulu təyin olunub. A.Məmmədovun konsul təyin edilməsi ilə bağlı bu ölkənin xarici işlər naziri Nikola Poposki Azərbaycanın XİN rəhbəri Elmar Məmmədyarova göndərdiyi məktubda bildirib. Nikola Poposki xahiş edib ki, Anar Məmmədova Makedoniyanın Azərbaycandakı fəxri konsulu səlahiyyətlərini yerinə yetirməsi üçün şərait yaradılsın, həmçinin konsulluq münasibətləri haqqında Vyana Konvensiyasının müddəalarına uyğun olaraq, Azərbaycan ərazisində bütün imtiyazları təqdim edilsin. Bu isə diplomatik anlamda faktiki toxunulmazlıq statusu anlamına gəlir... (Yeri gəlmişkən, Ziya Məmmədovun keçmiş şəriki, "Hafka" ləqəbli iş adamı Hafiz Məmmədovun oğlu da vaxtilə Xorvatiyanın Azərbaycandakı fəxri konsulu təyin olunmuşdu).

Lakin bu məsələ ilə bağlı ortaya ciddi bir skandal da çıxıb. Belə ki, Makedoniya Türk Hərəkat Partiyasının üzvü, millət vəkili Enes İbrahim iddia edir ki, Anar Məmmədov bu adı rüşvətlə satın alıb. Bu barədə artıq Makedoniya qəzetləri də yazırlar.

Daha bir maraqlı fakt. Vergilər Nazirliyinin vergi borcunu ödəməyən vergi ödəyiciləri barədə yaydığı son "qara siyahı" da Anar Məmmədova məxsus "Transqeyt" MMC-nin adı da vardı.

Nəhayət, hotelin açılışının ləngiməsi amerikalı milyarder Donald Trumpla da bağlı ola bilər. Hazırda rəsmi Vaşinqtonla Bakı arasında münasibətlər soyuqdur. Doğrudur, Trump Obamaya müxalifətdə olan Respublikaçılar Partiyasının üzvüdür və 2016-cı ildə ABŞ-da keçiriləcək prezident seçkilərinə namizədliyini vermək niyyətindədir. Mümkündür ki, indi rəsmi Bakı amerikalı milyarderin mütləq iştirak edəcəyi mehmanxananın açılışını məqsədəuyğun hesab etmir...

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 125 (6153) 10 iyun 2015

## Prezidentlərin "üçlü görüşü" bu həftə reallaşa bilər





# Əliyev, Putin və Ərdoğanın saatlarında Bakı vaxtı...- təhlil

### Rusiya və Türkiyə liderləri eyni gündə Azərbaycana gəlir; Qarabağ, Xəzər, qaz layihələri diqqət mərkəzində olacaq; Bakı təkcə Avropa Oyunlarına ev sahibliyi etməyəcək, həm də...

**Rusiya prezidenti Vladimir Putinin Bakıya səfər edəcəyi təsdiqləndi. Putinin köməkçisi Yuri Uşakov Moskvada keçirdiyi brifinqdə bildirib ki, prezidentin ölkəmizə səfəri iyunun 12-də reallaşacaq və iki gün çəkəcək. Bakıda o, I Avropa Oyunlarının açılış mərasimində iştirak edəcək, azərbaycanlı həmkarı İlham Əliyevlə, Beynəlxalq Olimpiya Komitəsinin rəhbəri ilə görüşəcək.**

"Prezident Bakıya iyunun 12-də Kremldə təşkil olunacaq təntənəli qəbuldan dərhal sonra uçacaq. İstisna deyil ki, o, Beynəlxalq Olimpiya Komitəsinin rəhbəri ilə görüşəcək. İyunun 13-də onun Azərbaycan prezidenti ilə söhbəti olacaq", - deyə Uşakov bildirib. Rusiya prezidentinin köməkçisi onu da deyib ki, Putinlə Əliyevin görüşündə Qarabağ münaqişəsinin nizamlanması ətrafında müzakirə aparılacaq.

"Qarşıdakı danışıqlar zamanı regional gündəmin mühüm aspektlərinin, o cümlədən Dağlıq Qarabağ probleminin nizamlanması və 2014-cü ilin sentyabrında Həştərxanda keçirilmiş dördüncü Xəzər sammitində qəbul edilmiş qərarların yerinə yetirilməsinin gedişi müzakirə olunacaq", - deyə köməkçi qeyd edib. Onun sözlərinə görə, Əliyevlə Putin arasında iyunun 13-də keçiriləcək danışıqlar əvvəlcə məhdud heyətlə keçəcək, daha sonra işgüzar səhər yeməyi formatında geniş tərkibdə davam edəcək.

Bakı danışıqları zamanı habelə Rusiya ilə Azərbaycan arasında energetika sferasında ikitərəfli əməkdaşlığın inkişafına dair yüksək səviyyəli işçi qrupunun yaradılması nəzərdə tutulur. "Energetika sferasında əməkdaşlığın inkişafı ilə hökumətlərarası komissiya çərçivəsində yaradılacaq xüsusi işçi qrupu məşğul olacaq" - əlavə edib Putinin köməkçisi.

*****

Rusiya prezidentinin Bakıda Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla da görüşəcəyi gözlənilir. Artıq bəllidir ki, eyni gündə - iyunun 12-də Ərdoğan da Azərbaycanda olacaq. Bu xüsusda Uşakov onu da bildirib ki, Putin Türkiyədəki seçkilərdə AKP-nin qalib gəlməsi münasibətilə prezident Ərdoğanı telefonla təbrik edib, telefon söhbəti zamanı tərəflər Bakıda görüşmək və ikitərəfli münasibətlərə dair danışıqlar aparmaq barədə razılığa gəliblər. Danışıq zamanı prezidentlər ikitərəfli əməkdaşlığın aktual məsələləri və energetika sahəsində birgə nəhəng iqtisadi layihələrlə bağlı yaranan problemlər barəsində fikir mübadiləsi də aparıblar.

Bundan başqa, liderlər Rusiya və Türkiyə arasında dekabrda keçirilməsi nəzərdə tutulan Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının iclasına hazırlığın gedişini müzakirə ediblər. Prezidentlər həmçinin intensiv şəxsi əlaqələrin davam etdirilməsi ilə bağlı razılıq əldə ediblər.

*****

Səfərlə bağlı Kremlin rəsmi açıqlamalarında bir neçə məqam xüsusi diqqət çəkir. Bunlardan biri Vladimir Putinin kifayət qədər böyük heyətlə Bakıya hazırlaşmasıdır - Putin Əliyevlə öncə məhdud heyətlə, sonra isə geniş tərkibdə danışıqlar aparacaq ki, bu da müzakirə ediləcək məsələlərin aktuallığına dəlalət edir.

Digər maraqlı detal Kreml başçısının Bakıda İrəvandan fərqli olaraq iki gün qalmağı planlaşdırmasıdır ki, bu da öz növbəsində Azərbaycan və Türkiyə ilə əlaqələrə Kremlin məxsusi önəm verdiyinin təsdiqidir. Bu, eyni zamanda Moskva ilə Bakı və Moskva ilə Ankara arasında öz həllini gözləyən problemlərin əhəmiyyətinin göstəricisi sayıla bilər.

Söhbət öncəliklə Azərbaycanın Avrasiya İqtisadi Birliyinə qoşulması perspektivi və quruma üzvlüklə bağlı Bakının irəli sürdüyü Qarabağ şərtindən, bir-birinə faktiki rəqabətdə olan "Türk axını" ilə Transxəzər (TANAP, TAP) qaz kəmərləri layihələrindən, Azərbaycanın strateji xarici siyasət seçimi ilə ilgili mümkün düzəlişlərdən gedir.

Bəllidir ki, xarici işlər naziri Elmar Məmmədyarov ötən ayın sonlarında Moskvaya etdiyi səfər çərçivəsində Qarabağ probleminin həllindən sonra Azərbaycanın Avrasiya Birliyinə üzvlüyünü mümkün sayıb. Bu, elə faktiki şəkildə nazirin Bakıdan Moskvaya apardığı əsas mesaj, şərt idi.

**Ancaq maraqlıdır ki, nazirin açıqlamasından az sonra Kremlin "danışan dillərindən" sayılan "Avrasiya İttifaqı Hərəkatı"nın lideri Aleksandr Duqin açıqlama verərək, Azərbaycan tərəfinin şərtini qəbuledilməz adlandırıb. Sitat:** "Yalnız Azərbaycan Ermənistanla birgə Avrasiya İqtisadi Birliyində - eyni müstəvidə təmsil olunduqdan sonra Dağlıq Qarabağ probleminin həlli tapıla bilər. Yəni məsələ Bakının dediyi kimi, öncə Qarabağ yox, öncə Avrasiya Birliyinə üzvlük, sonra Qarabağ məsələsi şəklində qoyula bilər..."

*****

Söz yox ki, Bakıdakı görüşlərlə bu kimi dolaşıq məsələlərdə, o cümlədən transxəzər qaz kəmərinə təsiri olan Xəzərin hüquqi statusu məsələsində dərhal irəliləyiş olacağını gözləməyə dəymir. Ancaq Bakı görüşləri və bu görüşlərlə bağlı veriləcək bəyanatlar ən azından Kremlin Azərbaycan və Türkiyə ilə bağlı yaxın hədəflərinə, bu ölkələrlə yaxın perspektivdəki münasibətlərin xarakterinə əhəmiyyətli işıq sala, müəyyən yəqinlik gətirə bilər.

Putinin aprelin 24-də ayaqüstü baş çəkdiyi İrəvandan fərqli olaraq Bakıda daha böyük müddətə - iki gün qalmaq istəyi ən əvvəl bu imperativlərlə izah oluna bilər. Əlbəttə ki, Rusiya dövlət başçısı bu səfərlə həm də Ermənistana etdiyi 24 aprel ziyarətinin Türkiyə və Azərbaycanda yaradığı incikliyi götürmək istəyir. İstənilən halda, çox uzaqgedən nəticələr çıxarmadan ehtimal eləmək mümkündür ki, Avropa Oyunları ərəfəsi prezidentlərin ikitərəfli, mümkündür ki, hətta "üçtərəfli" Bakı görüşləri tarixə düşəcək.

**Beləcə, Azərbaycan Avropa Oyunları ilə yanaşı, regionun gələcəyi baxımından çox mühüm əhəmiyyətli tədbirlərə, mütləq yeni bir mərhələyə maslara da ev sahibliyi etməyə hazırlaşır. Ən azından üç prezident Bakıda öz "saatlarının əqrəblərini" tutuşdura biləcəklər.**

❑ Siyasət şöbəsi

---

# Doğrudanmı biz də Türkük?



**Hüseynbala SƏLİMOV**

**Türkiyədə seçki bitdi. Bundan sonra necə olacaq, hakim partiya özünün planlarını gerçəkləşdirə biləcəkmi, hökumət necə formalaşdırılacaq, hansı siyasi koalisiyalar qurulacaq, təkrar seçkilərə gediləcəkmi-indi bu suallar seçki ekspertlərini düşündürən əsas məsələlərdir...**

Amma bir nüans var. Bu seçkiyə dörd-beş partiyanın maraqları prizmasından da baxmaq olar, cəmiyyətin prizmasından da...

Diqqətimizi ən çox nə çəkdi? Seçki bitəndən sonra jurnalistlər onun ilkin nəticələrini elə coşqu ilə şərh edirdilər ki, adam düşünürdü ki, bəlkə də dünyada seçkidən maraqlı şou yoxdur...

Arada kanalı bir neçə dəfə qəsdən dəyişdik. Bilmək istədik ki, görən, bizim telekanallar nə göstərir?.. Oxuyurdular!..

Kor-peçiman yenidən Türkiyə kanallarına qayıtdıq və sona qədər də onları izləməklə məşğul olduq. Təsəvvür edin, hər bir bölgədə seçkinin nəticələri analiz olunur, əvvəlki göstəricilərlə tutuşdurulurdu...

Adam buna baxanda həm sevinir, həm də kədərlənirdi. Ona görə sevinirdik ki, haradasa, daha bir ölkədə insanlar həqiqi seçkidə iştirak edə bilir və siyasətçilər də onların qərarını əsas götürürlər...

Ona görə kədərlənirdik ki, adam qeyri-ixtiyari düşünürdü ki, İlahi, görən, doğrudanmı, biz də müsəlmanıq və ya türkük?..

Azərbaycandakı seçkilərlə bağlı bir neçə dəfə yazmışdıq ki, onların nəticələrinə bir dəfə baxmaq yetər ki, bu seçkilərin saxta olduğuna əmin olasan - bəli, seçkilərin coğrafiyası yetərincə işıqlandırılmır, mandatların demək olar ki, hamısını hakim partiya "qazanır", digər partiyaların payına isə tək bir mandat düşür, özü də hamının yox, yalnız hakimiyyətə yaxınlığı ilə seçilən partiyaların!.. Üstəlik, bu "siyasi konstruksiya" ildən-ilə və seçkidən-seçkiyə dəyişmir, necə var, elə də qalır...

Jurnalistlik fəaliyyəti dövründə adam çox şeylə rastlaşır. Bir neçə dəfə təhlilçi kimi hakim partiyanın deputatları ilə söhbətlərdə də iştirak etmişik. Hər belə söhbət zamanı düşünürdük ki, İlahi, mən kimi sorğu-suala tutmuşam, bəlkə də bu adam özü də əməlli-başlı bilmir ki, hansı dairədən seçilib, bilmir ki, həqiqi, əsl seçki və həqiqətən seçilmək necə olur!..

Ona görə də təəccüblənmirəm ki, indi apteklərə ürək dərmanlarına görə müraciət edənlərin sayı artıb-elə mövzular var ki, onlara hətta toxunmaq belə adamın ürəyini ağrıdır...

Burada əslində Türkiyədəki son seçkilərdən irəli gələn nəticələri araşdırmalı idik. Amma əvvəldə dedik ki, vəziyyət mürəkkəbdir...

Amma hələ bütün siyasi resurslar səfərbər olunmayıb, hətta ilkin nəticələr bir neçə koalisiya formuluna işarə edir... Əsas isə odur ki, Türkiyə demokratik dövlətdir və bu ölkədə həqiqətən də demokratik seçkilər keçirilir...

Hakim partiyanın müəyyən problemlərlə qarşılaşacağını seçki ərəfəsində biz də təxmin etmişdik...

Adətən demokratik ölkələrdə hakimiyyətdə olmağın seçki baxımından üstünlükləri onun çatışmazlıqlarından, "mənfilik"lərindən daha azdır, çünki Azərbaycan kimi ölkələrdə dəbdə olan "inzibati resurslar" ifadəsinə siz oralarda təsadüf etməzsiniz...

O səbəbdən ki, bütün partiyalara eyni şərait yaradılır və əgər bəlli olsa ki, hakim partiya adı çəkilən resurslardan yararlanıb, bu, seçkinin nəticələrinin ləğv edilməsi üçün əsas ola bilər...

Demirik ki, Türkiyə ideal dərəcədə demokratik ölkədir. Bəlkə də cinsi azlıqların, ümumiyyətlə, azlıqların hüquqlarına daha həssas olan Avropa ölkələrinin prizmasından baxanda bu ölkədə "problemlər" hələ çoxdur...

Ola bilsin, məhz bu amilləri nəzərdə tutan bəzi post-liberal ölkələr Türkiyə kimi dövlətlərdəki demokratiyanı sadəcə, "seçki demokratiyası" adlandırırlar. Amma diqqətlə baxanda görürsən ki, son vaxtlar hətta bu problemlərə də diqqət yetirilirr-cinsi azlıqlar olmasa da *(onların təmsilçiləri hətta həmin post-liberla ölkələr belə seçki siyahılarına başçılıq etmirlər!)*, dini və milli azlıqların təmsilçiləri diqqətdədirlər...

Amma bütün bunlar haradasa uzaqda - Türkiyədə baş verir. Bir daha Azərbaycana qayıdaraq düşünürük ki, ölkə 1993-cü ildən sonra halallıqdan uzaqlaşdı. Cəmi bircə dəfə ölkədə seçkiyə bənzər nəsə keçirildi, onun siyasətinə əsl seçki nəticəsi - 50 faizdən bir qədər artıq nəticə qədəm qoydu. Amma bu, cəmi bircə dəfə belə oldu, bir daha təkrarlanmadı...

Bunları düşünə-düşünə yenə kanalı dəyişdik. Bizimkilər hələ də oxuyurdular...

YENİ MÜSAVAT
N 125 (6153) 10 iyun 2015

**Bir neçə gün əvvəl ölkədə 77 təşkilat birgə bəyanat yayaraq Avropa Oyunlarına dəstək nümayiş etdirib. "Bakı-2015: I Avropa Oyunlarına Dəstək" Vətəndaş Cəmiyyəti Koalisiyası Azərbaycana qarşı kampaniyaya etiraz olaraq bəyanatla çıxış edib.**




# 77 təşkilatın siyasi məhbusları "cinayətkar" adlandırması etiraz doğurdu

## QHT-lər və medianın birgə bəyanatına müxalif düşərgədən sərt reaksiyalar gəldi...

**Bəyanatda bildirilir:** "Bu möhtəşəm idman bayramı yaxınlaşdıqca Azərbaycana dost mövqedə olmayan bəzi dairələrin narahatlığı artır, son aylar ölkəmizə qarşı başlanmış qarayaxma kampaniyası daha da güclənir. Bir mərkəzdən idarə olunan bu qüvvələr Azərbaycan Respublikasının regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə, bərabərhüquqlu tərəfdaşlığın genişlənməsinə yönəlmiş müstəqil siyasətini qəbul etmək istəmir, cəmiyyətimizi daxildən parçalamağa uğursuz cəhd göstərirlər".

Həmçinin vurğulanır ki, "Azərbaycanda repressiyaların, vətəndaş cəmiyyətinə basqıların olduğunu iddia edən bu üzdəniraq "üçlük" guya orijinallıq göstərərək yeni üsul düşünmüş, Avropa idmançılarını siyasi təzyiq alətinə çevirərək, konkret cinayət əməllərinə görə mühakimə olunmuş bir neçə nəfəri dəstəkləmək üçün "ayağa qalxmağa" çağırmışdır".

Koalisiya hesab edir ki, Ermənistanın təcavüzü nəticəsində hüququ pozulmuş bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün taleyi, Dağlıq Qarabağdakı quldur rejim tərəfindən girov götürülərək işgəncələrə məruz qalan və qanunsuz mühakimə edilən vətəndaşlarımızın hüquqları barədə indiyə qədər bir kəlmə də danışmayan beynəlxalq hüquq-müdafiə məmurlarının bu cür məsuliyyətsiz bəyanatlar səsləndirməyə və çağırışlar etməyə heç bir mənəvi haqqı yoxdur.

Bəyanatı imzalayan 77 təşkilatın əksəriyyəti qeyri-hökumət təşkilatları, 20-dən çoxu isə mətbuat orqanlarıdır. Bəyanatdan da göründüyü kimi, ölkədəki siyasi məhbuslar cinayətkar - "konkret cinayət əməllərinə görə mühakimə olunmuş" hesab ediliblər. Bəyanatı imzalayan hüquq müdafiəçiləri və media qurumlarının rəhbərləri siyasi məhbusların məhz cinayətkar olduğu qənaətindədir, lakin arqumentləri yoxdur. Siyasi məhbusların ailələri, vəkilləri və müxalifət partiyaları isə onların heç bir cinayət əməli törətmədiyini vurğulayırlar. Onların fikrincə, ölkədə insanların cinayətkar olub-olmadığını məhkəmələr və qanunlar müəyyən etmir.

**Bəyanatı imzalayanlardan "Konstitusiya Araşdırmaları" Fondunun rəhbəri Əliməmməd Nuriyev məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, sözügedən bəyanatda siyasi məhbuslarla bağlı fikri dəstəkləyir:** "Qanunlarla o şəxslər cinayətkar hesab edilə bilər ki, hüquqi mənada məhkəmənin qanuni qüvvəyə minmiş hökmü var. Dövlət belə hesab edir. Biz çalışırıq ki, həbs olunan həmkarlarımız var, onlar azadlığa çıxsınlar. İnsan Hüquqları üzrə İşçi Qrupumuz fəaliyyət göstərir və biz o şəxslərin azad olunması üçün çalışırıq. Mənim həmkarlarımla bağlı arzum budur. Hər şey qanun çərçivəsində həll olunmalıdır".

Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli isə qeyd edib ki, bəyanatda xarici təşkilatların Bakıda keçiriləcək Avropa Oyunları ilə bağlı yürütdükləri qərəzli kampaniyadan söhbət gedir: "Ümumilikdə bəyanatda son vaxtlar Azərbaycana qarşı aparılan kampaniya pislənib, orada ciddi məqamlar var. Bu oyunların insan həyatı müstəvisində təqdim olunması fərqli-fərqli məsələlərdir. Dünyanın heç bir yerində olmayıb ki, haradasa idman oyunları keçirilsin, orada insan hüquqları məsələsi idmanın bir hissəsi kimi verilsin. Bu məsələlərin qarışdırılması düzgün deyil. Azərbaycanda mövcud durum şişirdilərək təqdim olunur. Onlar konkret əməllərinə görə həbsə düşüblər. Gətirib siyasi məhbus kimi təqdim etmək, qərəzli formada qabartmaq düzgün deyil. Açılmış cinayət işinə görə qiymət verilməlidir. Hesab edirəm ki, biz haqlıyıq".

**Demokratik Jurnalistlər Liqasının rəhbəri Yadigar Məmmədli isə bildirib ki, siyasi məhbus hesab edilən şəxslər konkret cinayət törətməkdə təqsirləndiriliblər:** "Əsas maddələr onların cinayət törətdiyini göstərir. Məsələ də bu cür yozulmalıdır. Onlar hansısa cinayətlərə görə həbs olunublar, ittihamlarda bu göstərilib. Fərqli düşüncəyə görə həbs olunmayıblar. Siyasi məhbus hesab edilən adamlar hər hansı bir cinayət maddəsi üzrə həbsə atılıblar. Məhz həmin maddələrə görə cinayətkardırlar. Amma söhbət ondan gedir ki, siyasi fəaliyyəti, fərqli düşüncəsinə görə uyğun maddə altında həbsdə yatan insanlar yoxdur. Bu, faktdır".

**Siyasi məhbus Tofiq Yaqublunun qızı Nigar Yaqublu isə bildirib ki, bəyanatdakı siyasi məhbuslarla bağlı fikirlər qəbulolunmazdır:** "O avropalılara görə camaata zülm edilir, onda normal olur, amma avropalı boykot edəndə, normal olmur? Elə deyilsə, niyə avropalılara yaxşı görünmək üçün əllərindən gələni edirlər? Avropalılar o qədər axmaqdırlar ki, əsl cinayətkarın, yaxud siyasi məhbusun kim olduğunu bilməsinlər? Əlbəttə ki, bilirlər. Atam, onunla birlikdə həbs edilən İlqar Məmmədov siyasi məhbusdur. Onları heç bir əsası olmadan 2 il 4 aydır girovluqda saxlayırlar. Ancaq onların cinayətini sübut edə bilməyiblər, çünki cinayətləri yoxdur. Məhkəmə şou göstərdi, teatr quruldu. Ancaq ortada cinayət olmadığından, məhkəmə sübut tapmadı. Bir də ki, bu ölkədə kimin cinayətkar olduğunu məhkəmə həll etmir".

**Bir neçə siyasi məhbusun vəkili olan Nemət Kərimli də qeyd edib ki, siyasi məhbuslarla bağlı bu cür davranış qanunsuz və qeyri-etikdir:** "Konstitusiyaya, eləcə də beynəlxalq konvensiyalara görə, məhkəmənin hökmü qanuni qüvvəyə minmədən təqsirləndirilən şəxs cinayətkar sayıla bilməz. Siyasi məhbusların arasında elələri var ki, onların barəsində məhkəmənin hökmü hələ qüvvəyə minməyib. İkincisi, vicdan məhbusu, siyasi məhbus elan edilmiş şəxslərlə bağlı hazırlanmış siyahıda mən də iştirak etmişəm, imzalamışam. Hesab edirəm ki, azından siyahıdakı özümün müdafiə etdiyim şəxslər qanunsuz həbs olunub, günahsızdırlar. Onların günahkar və cinayətkar olmadıqları məhkəmədə tam sübuta yetirilib. Siyasi fəaliyyətlə məşğul olduğuna görə ölkədə həbs olunan yüzdən çox insan var. Sözügedən lazımsız bəyanatı pisləyirəm. Humanizm prinsiplərinə görə, mənəvi dəyərlərə nəzərən baxdıqda isə ayıbdır, sadəcə".

**Müsavat başqanının müavini Elman Fəttah isə bildirib ki, bəyanat imzalayan 77 təşkilat sifariş yerinə yetirib:** "Onların içərisində birmənalı olaraq hakimiyyətin təbliğatı ilə məşğul olan "İrəli" və digər təşkilatlar var. Bütün beynəlxalq insan haqları təşkilatlarının vicdan məhbusu kimi, siyasi məhbus kimi tanıdığı insanların cinayətkar adlandırılması hakimiyyətin onlara verdiyi sifarişin icrasıdır. Avropa Oyunları kontekstində bunun baş verməsi isə onu göstərir ki, Azərbaycan hakimiyyəti Avropa Oyunları və siyasi məhbus məsələsinin ciddi şəkildə toqquşmasından çox narahatdır. Müsavat Partiyası da bir ildən artıqdır bu məsələni Azərbaycan hakimiyyətinə izah etməyə çalışırdı ki, heç bir halda siyasi məhbusları, vicdan məhbuslarını azad etməyəcəyi təqdirdə, məsələ asan olmayacaq. Bu, Azərbaycanın və hakimiyyətin Avropa Oyunlarına rahat getməsinə təminat verməyəcək. Müsavat bununla bağlı çağırış etdi. Bir çox ölkələr artıq boykot yönündə qərarlar veriblər. Avropa Birliyi ayrıca bununla bağlı çağırış edib. Belə bir şəraitdə Azərbaycan hökuməti özünün konqo təşkilatları ilə guya bu işin əleyhinə piar kampaniyası qurmaqla məşğuldur. Bəyanatı imzalayan media da hökumətin konqo mediasıdır. Həmin media orqanlarının hansı cür media siyasəti ilə məşğul olduğu hər kəsə, dünya ictimaiyyətinə də məlumdur. Onların Azərbaycan hökumətinin birbaşa siyasətinin ifaçısı olduğu heç kimdə şübhə doğurmur. Bütövlükdə bu bəyanatı mən Prezident Administrasiyasında hazırlanmış sənəd hesab edirəm".

❑ **Röya RƏFİYEVA**

**Avropa Oyunlarına hazırlıq və son günlər müşahidə edilən siyasi təlatümlər ictimai rəyi əsas məsələdən yayındırdı - parlament seçkilərinə bir neçə ay vaxt qalır. Yaranmış heç də sadə olmayan situasiya seçkilər öncəsi kataklizmlərin yaşana biləcəyini ehtimal edir. Qarşıdurma üçün ən böyük zəmin, seçkilərin azad və ədalətli keçirilməsi üçün şəraitin yaradılmamasıdır.**

**Azər RƏŞİDOĞLU**



# Seçkini unutdurmaq taktikası

Seçki qanunvericiliyində ciddi islahatlar aparılmazsa, parlament seçkilərinin nəticələri də qarşılıqlı etimad yaratmaya bilər. Bu baxımdan, seçki islahatları ilə bağlı düşünmək lazım gəlir. Kənardan görünən budur ki, beynəlxalq təşkilatların və müxalifətin müxtəlif səylərinə baxmayaraq hakimiyyət yenə də seçkiləri köhnə qaydada keçirtməkdə israrlıdır. Lakin unutmaq olmaz ki, beynəlxalq təşkilatların hesabatlarında son prezident seçkilərindən sonra müxalifətçilərin təqib edildiyi bildirilir. Deməli, nələrisə dəyişmək, siyasi gərginliyi qismən olsa da aradan qaldırmaq lazım gələcək. İlk növbədə müxalifətə telekanallara çıxış hüququnun verilməsini təmin etmək lazım gəlir.

Lakin iqtidarın davranışlarından islahat qoxusu gəlmir. Seçki Məcəlləsinə ciddi bir dəyişiklik edilməyəcəyi ilə bağlı rəsmi şəxslərin səsləndirdiyi fikirlər də qarşıdurama üçün zəmin rolunu oynaya bilər. Hakimiyyətdaxili bəzi qruplaşmaların da fəaliyyəti nəzərdən qaçmamalıdır. Onlar da bütün bu proseslərdə qızışdırıcı rol oynaya bilərlər.

Seçkilərin azad və ədalətli keçirilməsi üçün hakimiyyət üzərinə düşən vəzifələri axıra qədər yerinə yetirməlidir.

Yəni vətəndaşlar konstitusiya ilə onlara verilən bütün hüquqları almalıdırlar. Ancaq hakimiyyət bu addımları atmayacağı təqdirdə və ya onun görüntüsünü yaradacağı halda da qarşıdurmaya yol vermək olmaz. Seçkilərdə qələbə çalmaq nə qədər vacibdirsə, sabitliyin qorunması, təxribatlardan yayınmaq da bir o qədər vacibdir. Bundan ötrü isə müxalifət ilk növbədə təbliğatını dəyişməldir. Xalqa izah edilməlidir ki, mübarizədə məqsəd hakimiyyətə gəlmək yox, onun hüquqlarını özünə qaytarmaqdır. Digər tərəfdən, beynəlxalq ictimaiyyətlə əlaqələr dərinləşməlidir. Lakin bütün bunlar da yetərli deyil. Prosesə geniş xalq kütlələrinin cəlb edilməsi başlıca məsələlərdəndir. Əgər müxalifət bütün bu prosesə xalqın geniş kütlələrini cəlb edə bilsə, onun qarşısında heç kim dayana bilməz. Müxalifət indidən bəyan edir ki, seçkinin nəticələrinin saxtalaşdırılacağını düşünmək üçün ciddi əsaslar var və artıq seçki yolu ilə, demokratik yolla ölkədə dəyişikliyə nail olmaq qeyri-mümkündür.

Sualın belə qoyuluşu bir sualı aktual edir - müxalifət nə edə bilər? Təbii ki, burada fəaliyyət kifayət qədər genişdir. Aksiyalardan tutmuş seçkilərin nəticələrini tanımamağa, beynəlxalq aləmi nəticələri tanımamağa çağırmağa qədər bütün üsullardan istifadə oluna bilər. Nəhayət, əhali arasında geniş iş apararaq seçki pozuntularının nələrin bahasına başa gələcəyini izah etmək vacibdir. Bu halda müxalifətin ölkənin daxilində narazılığa dəstəyi kütləvi xarakter alsa, beynəlxalq dəstək də ola bilər. Lakin ötən seçkilərin acı təcrübəsinə əsaslanaraq onu vurğulamaq olar ki, beynəlxalq aləm də buna seyrçi qala bilər. Bu mərhələdə həlledici məqam Azərbaycan xalqının iradəsi və cəmiyyətinin fəallığı olacaq. Əgər cəmiyyət yetərincə fəallıq göstərə bilsə, şərti olaraq Ukrayna variantı və yaxud narıncı inqilab dediyimiz variantı realizə edə bilər. Bir şeyi nəzərə almaq lazımdır ki, Azərbaycan hakimiyyəti daha amansızdır və daha sərt təzyiqlərə üstünlük verir, digər MDB ölkələri ilə müqayisədə, Azərbaycanda polisin və digər silahlı hökumət strukturlarının sayı daha çoxdur. Bu baxımdan müxalifət yeni, çevik konsepsiyalara, düşünülmüş modellərə üstünlük verməlidir. Ən əsası, seçkidən dərhal sonra müxalifət namizədinə səs vermiş insanları seçki məntəqələrinin qarşısına və ya meydana çağırmaq əsas kimi götürülə bilər. İnsanlar öz səslərini qorumalıdırlar və dinc, passiv müqavimət nəzəriyyəsinə uyğun olaraq öz etirazlarını bildirməlidirlər. Bunun formalarını tapmaq üçün indidən düşünmək lazım gəlir...

YENİ MÜSAVAT
N 125 (6153) 10 iyun 2015

# Bakıya edilən təzyiqlərin alt qatında nə var?

**Bakıda keçiriləcək ilk Avropa Oyunlarına sayılı günlər qalarkən Avropada iqtidar mənsublarının təbirincə desək, total şəkildə anti-Azərbaycan dalğası başlayıb. İyunun 8-də Avropa Parlamentinin vitse-prezidenti və Avropanın Yaşıllar Partiyasının üzvü Ulrike Lunaçek və bir sıra avropalı parlamentarilər qurumun sessiyasının açılış iclasına Azərbaycanda həbs olunan hüquq müdafiəçilərinin şəkilləri olan köynəklərlə qatılıblar. Qara köynəklərin üzərində jurnalist Xədicə İsmayıl, hüquq müdafiəçiləri Rəsul Cəfərov, Anar Məmmədli, Leyla Yunus, Emin Hüseynov və İntiqam Əliyevin şəkilləri olub.**

Avropalı parlamentarilər bununla siyasi məhbusların azad olunmasına çağırıblar. Contact.az məlumat yayıb ki, daha sonra Avropa Parlamentinin vitse-prezidenti Ulrike Lunaçek çıxış edərək bildirib ki, Avropa Azərbaycanda siyasi məhbuslar probleminə biganə qalmamalıdır. O qeyd edib ki, bununla bağlı qətnamə çıxarılmalıdır. Qeyd edək ki, “Amnesty İnternational” , “Freedom House”, “Human Right Watch”, Norveç İnsan Haqları Evi Azərbaycanda Avropa Oyunları öncəsi həbs olunan hüquq müdafiəçiləri və jurnalistlərə qarşı repressiyalardan narahatlıq ifadə edən bəyanatlar yayıblar. Onlar bəyanatlarda Azərbaycan hakimiyyətini bu həbslərə son qoymağa, insan hüquqları sahəsində ölkənin üzərinə götürdüyü öhdəliklərə əməl etməyə çağırıblar.

Avropanın adına keçirilən yarışlar ərəfəsində, 10 iyunda Avropa Parlamentində də Azərbaycandakı duruma həsr olunan dinləmələr keçiriləcək. Bütün bunlar son günlərin ən çox səslənən sualına növbəti dəfə qayıtmağa əsas yaradır: nə baş verir, Avropa Bakıdan insan haqları və demokratiya ilə bağlı öhdəliklərin yerinə yetirilməsinimi tələb edir, yoxsa pərdə arxasında başqa məsələlər var?



**Mehman Əliyev:** “Mən yenə nikbin baxıram ki, Azərbaycan tərəfi iradları qəbul edəcək və daha müdrik addımlar atacaq”



**Siyavuş Novruzov:** “Avropa həzm eləyə bilmir ki, ilk Avropa Oyunları Azərbaycanda keçirilir”

**“Turan” İnformasiya Agentliyinin direktoru Mehman Əliyevin sözlərinə görə, Avropa Oyunlarının Azərbaycanda keçirilməsinin əsas səbəbi bu oyunlar vasitəsilə Azərbaycanı Avropaya daha da yaxınlaşdırmaq idi:** “Hakimiyyət başa düşürdü ki, ”Eurovision" müsabiqəsində siyasi məsələlər önə çıxdığı kimi, burda da həmin mənzərə təkrar olunacaq. Azərbaycan hökuməti buna nə qədər hazır idi, nələri etmək istəyirdi, bunu demək hələlik çətindir. Digər tərəfdən isə məncə, hakimiyyət bu oyunlardan bəhrələnmək üçün istifadə etdi. Çünki korrupsiya elementləri çoxdur. Özləri deyirlər ki, 1,2 mlrd. vəsait xərclənib, ancaq Qubad İbadoğlunun və başqalarının araşdırmaları göstərir ki, rəqəmlər bir neçə dəfə artıqdır. Ona görə də bu layihələr şirnikləndirici əsas amil idi. Düzdür, imicdən danışılır, ancaq imici qazanmaq üçün gərək Avropa dəyərini qəbul edəsən və onlara hörmət bəsləyəsən".

**M.Əliyev Azərbaycan tərəfin ATƏT-in Bakı ofisini bağlamaqla bağlı ortaya mövqe qoymasını da təsadüfi saymır:** “Bu, sanki ATƏT-i şantaj etməkdir. Azərbaycan rəhbərliyi onu göstərmək istəyir ki, bizə heç kəs təzyiq və təsir edə bilməz, öz siyasətimizi istədiyimiz formada həyata keçirəcəyik. Bu gün belə bir siyasət görünür”.

**Avropanın Oyunlardan sonra hansı mövqedən çıxış edəcəyinə gəldikdə, M.Əliyev Amerikanın ATƏT-dəki nümayəndəsinin açıqlamasına diqqət çəkdi:** “Bayer dedi ki, konsensus lazımdır, ATƏT-in ofisinin bağlanması regional təhlükəsizlik üçün problemlər yaradır. Deməli, artıq bu, təkcə Azərbaycanın problemi deyil, daha ciddi məsələdir. Yəni buna da cavab vermək lazım gələcək. Amma Avropanın davranışları onu göstərir ki, öz məqsədlərində israrlıdır və geri çəkilmək niyyətində deyil. Azərbaycan tərəfi də sanki bunu nümayiş etdirmək istəyir. Mən yenə nikbin baxıram ki, Azərbaycan tərəfi iradları qəbul edəcək və daha müdrik addımlar atacaq. Özü də ölkədə mövcud olan vəziyyət, iqtisadi böhran, ciddi islahatların aparılmasına tələbat onsuz da çağırışlardır və bunlara cavab vermək lazımdır və oyunlardan sonra bu məsələlərə ciddi diqqət yetiriləcək”. **Siyasi analitik yaxın günlərdə gərginliyin yumşaldılması üçün ən azı əfvin veriləcəyi ilə bağlı informasiyalar aldığını da vurğuladı:** “Mən də gözləyirəm ki, bu gün-sabah hər hansı addım atılacaq”.

**YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov təzyiqlərə fərqli prizmadan yanaşır:** “BMT Bəyannaməsində bütün idman yarışları həyata keçirən təşkilatlara, digər qurumlara tövsiyə olunur ki, idmanı siyasətə qatmasınlar. Təəssüflər olsun ki, Avropa Parlamenti idmanı siyasətə qatır. İyunun 10-da Avropa Parlamentində "idman və insan hüquqları" adı altında ayrı-ayrı siyasi partiyaların nümayəndələri dinləmə keçirməyə hazırlaşır. Təbii ki, biz bununla əlaqədar öz mövqeyimizi ortaya qoymuşuq, bəyanat vermişik. Yəni Azərbaycanda keçiriləcək Avropa Oyunlarının başlanmasına iki gün qalmış belə bir aksiya keçirirlər. Burda məqsəd siyasi məhbus, ya digər məsələdə deyil. Sadəcə olaraq, Avropa dövlətlərindən olan bəzi insanların Bakıya gəlməsinin qarşısını almaq istəyirlər. Avropa həzm eləyə bilmir ki, ilk Avropa Oyunları Azərbaycanda keçirilir. Bunlar əvvəlcə fikirləşirdilər ki, 2 il yarıma bu hazırlıqları heç bir dövlət başa çatdıra bilməz. Ona görə də səsvermə zamanı həmin ölkələrin hamısı Azərbaycanı dəstəklədi. Azərbaycan da çox yüksək səviyyədə təşkilatçılıq etdi, qısa müddət ərzində hazırlıqları başa çatdırdı. Məsələn, Rusiyanın özünə Soçi Olimpiadasını keçirən zaman 7 il vaxt verilmişdisə, Azərbaycan 2 il müddətinə bütün qurğuların hamısını hazır vəziyyətə gətirdi və yenilərini tikdi. Yaxud Rusiyaya 3 min idmançı gətmişdisə, Azərbaycana 6 min idmançının gələcəyi bəllidir, böyük hissəsi artıq gəlib". **YAP-çı deputat əlavə etdi ki, əksər mötəbər tədbirlərin Azərbaycanda keçirilməsi, o cümlədən burdakı ictimai-siyasi sabitlik, xalqla iqtidarın birliyi Avropanı narahat edir. S.Novruzov razılaşır ki, əslində Avropa Oyunlarına ev sahibliyi etmək üçün Bakıya razılıq verməklə Avropa Azərbaycanı tora salmaq istəyirmiş:** “Azərbaycan isə tam ustalıqla, yüksək təşkilatçılıqla bunlara sübut etdi ki, biz ”Eurovision"u 9 ay ərzində necə yüksək səviyyədə təşkil edib keçirmişiksə, Avropa Oyunlarını da keçirəcəyik".

**İqtidar deputat təzyiqlərin demokratiya və insan hüquqları məsələsindən qaynaqlandığını güman etmir:** “Azərbaycanda demokratiya və insan hüquqları bərqərardır və qorunur. Kimsə tutulubsa, bu, həmin adamın törətdiyi cinayətə görədir, onun peşə fəaliyyəti törətdiyi cinayəti gizlədə bilmir”.

❑ E.PAŞASOY

# Evlərinin önü yonca...



Samir SARI

**Əvvəlcə elə bildim, zarafat edirlər. Dedim, evyıxma prosesini də musiqi sədaları altında edərlərmi. Sonra xəbərin videosunu gördüm. Baxıram ki, budur, bir tərəfdə söküntü gedir, ekskavatorçu mişar daşlarından hörülmüş divarı çalovuşun ağzına verib yerə yıxır, bir tərəfdə də üç musiqiçi (qarmonçalan, zurnaşalan və nağaraçı) şaxıyan günəşin altında, tozun-torpağın içində şən bir hava çalırlar. O tərəfdə də söküntü-yıxıntı işlərinə rəhbərlik edən sevimli Hacıbala Abutalıbov müdrikcəsinə müsahibə verir.**

Analoqu olmayan, eyni zamanda tragikomik bir mənzərəydi. Ağır seyidlərin cəddinə, çörək, duz, qənd kimi gündəlik tələbat mallarının bərəkətinə and içə bilərəm ki, bu yaşa çatmışam, hələ belə evdağıtma əməliyyatı görməmişəm.

İndiki gənclər bilməz, bizim vaxtımızda seçki günü zurna-balaban piləməsi, nağara döyəclənməsi halları olurdu. Bir də görürdün, bəzi seçki məntəqələrində səsvermə başlayanda sazəndələri dəvət ediblər, onlar da məntəqənin qabağında “Qaytağı”dan, “Şalako”dan, “Nazilə”dən-zaddan bir çalırlar və bir az yalaka, bir az da fıy adamlar ortalığa düşüb oynayarlar, mərəkədə şadlıq-şənlik əmələ gətirirlər. Daha sonra camaat, yəni işə yollanan zəhmətkeşlər şən musiqi sədaları altında məntəqəyə daxil olur, ciddi-ciddi düşünüb seçim edir, seçki bülletenindəki yeganə namizədə səs verib çıxırdılar. Belə günlər vardı.

Amma kiminsə evi yıxılanda, sökülləndə, yananda musiqi çalınmazdı. Bir də olardı, kiminsə cavan, subay, nişanlı oğlu qəflətən öləndə onu musiqi ölü götürər, qəbristanlığa kədərli havalar, mərsiyə, bayatı oxuya-oxuya aparardılar. Bu iş üzrə ixtisaslaşmış manıslar vardı. Elə oxuyardılar, millət tökülüşüb kütləvi şəkildə ağlayardı.

Təxminən ev sökülməsi də o cür kədərli hadisədir. Təsəvvür edin, adam bir ətək xərc çəkib, 100 minindən, 1 milyonundan keçib özünə ev tikdirib, içində bir gün yaşamamış sən gəlib bunu verirsən ekskavatorun çalovuşunun, türkün sözü, kəpçəsinin ağzına, hələ bir şən musiqi də çaldırırsan ki, sümüyünə düşən adamlar ortalığa girib oynasın. Prinsipcə, evi dağıdılan şəxs kasıbyana adam olsaydı, yəni olan-olmazı həmin sökülən ev olsaydı, o havalanaraq oynaya bilərdi. Yaxşı ki, Hacıbala müəllim pullu adamların evini sökdürür, onlar da ağır adamlardır, zurna səsi gələn kimi qol götürüb süzmürlər.

Bununla belə, əgər ev sökülərkən canlı musiqi çalınması şərtdirsə, bunsuz mümkün deyilsə, sazəndələrin repertuarına əl gəzdirmək gərəkdir. Məsələn, onlara tapşırmaq olar ki, şən musiqi çalmayın, “Ayrılıq” çalın. Yaxşı olar ki, hətta müğənni də cəlb edilsin və o oxusun: “Fikrindən gecələr yata bilmirəm”-zad.

Situasiyaya uyğun başqa musiqi nömrələrimiz də var. Birinin sözləri dəqiqliyi ilə yadımda deyil, amma xanəndə oxuyurdu ki, bir sən ol, bir mən, bir uçuq kaha, heç zad istəmirəm taledən daha. Qoy evi yıxılan adam da bunu dinləyib şükür eləsin ki, canı salamat olandan sonra uçuq kaha da bəsidir. Təki Vətən sağ olsun! Dövlətçiliyimiz əbədi olsun! Yaşasın qanunun aliliyi!

Sonra da deyirlər ki, Hacıbala Abutalıbov vəzifəsindən götürülsə, istefa versə yaxşı olar. Xeyr. Olmaz. İstefadan söhbət gedə bilməz, merimizin boynuna diri mar *(özü də gürzə)* salsan, yenə istefa verməz. Amma onu vəzifəsindən götürsələr, problem yaranar. İstəyirsiniz, “Paytaxt meri üstünə benzin töküb özünü yandırdı” xəbəri dünyanı dolaşsın, biabır olaq? Vallahi, edər. Bu, prinsip məsələsidir. Edər, uf da deməz. Fədakar adamdır.

Həm də onu vəzifədən götürsələr, bu qədər maraqlı, məzəli xəbərləri biz hardan taparıq. Millət bir ayın içində elə darıxar ki, bəlkə də üsyana qalxar.

Vaxt gələcək, Abutalıbovun çıxışları, müsahibələri, qərarları, hərəkətləri bir diskə yığılacaq, tirajlanacaq və insanlar onları alıb qanıqara vaxtlarında tamaşa edib güləcəklər. Açığı, Siyavuş Aslanla Hacıbaba Bağırovdan sonra insanlara bu qədər gülüş bəxş edən ikinci bir sənətkarımız yoxdur. Qədrini bilək.

**P.S.** *Evləri sökəndə “Ninnə yarım” türkmən xalq mahnısı da çaldırmaq olar, içində “Evlərinin önü yonca”, “Evlərinin önü lalə”, “Evlərinin önü yalçın” kimi sözlər var. Emosional ovqat yaradar.*



# Oyunçusuz oyunlar

Zamin HACI
zaminhaci@gmail.com

## "Sənə yaxınlaşırıq, İlahi"

**("Titanik" batanda çalınan mahnının adı)**

**Yapistlərin Şıx çimərliyi tərəfdə, SSRİ-dən qalma "Dostluq" adı daşıyan küknarlıqlarda qəfildən aşkara çıxardıqları 44-dən çox villanı darmadağın eləmələri Azərbaycan xalqına münasibətlərinin simvolu ola bilər. Bəyəm o villalardan hansısa xeyirxah məqsədlə yararlanmaq olmazdı? Örnək üçün, minlərlə məktəbli uşağın yay tətilini keçirəcəyi, məşhur "Artek" tipində istirahət düşərgəsinə çevirmək mümkün idi. Prinsipcə, sistem tam hazır idi. Qalırdı villaları bir-birinə birləşdirən infrastruktur qurmaq, bu da böyük xərc tələb eləmirdi. Amma onlar "dəlinin əlinə bel verib", məşhur zırrama icra nümayəndəsini ekskavatorla, zurna-balabanla silahlandırıb villaları yerlə-yeksan etdilər.**

Əlbəttə, mən bayaq "qəfildən aşkar edilən" sözlərini ironiya üçün yazdım, 44 villa göbələk deyildi ki, yağışdan sonra dağın döşündə peyda olsun? Onlar hansısa oliqarx-məmura məxsus idi, sadəcə, görünür, manatın devalvasiyası dövründə adam qəzəbə düçar olmuşdu. Hətta mən fikirləşirəm ola bilsin həmin villa düşərgəsi vaxtilə ailə daxili pay bölgüsündə Ağalarovlara verilibmiş. İndi də məlum səbəbdən sökülür. Bu ehtimalımı sanki qəsdən, kiməsə acıq verirmiş kimi orda çaldırdıqları muğam üçlüyü gücləndirir.

Yeri gəlmişkən, yəqin dünya tarixində ilk dəfə haranısa söküb dağıtmaq musiqili həyata keçirilirdi. Mən bu sürrealist kadrlara internetdə baxanda ağlıma gəldi ki, bunun bənzəri "Yeddi oğul istərəm" filmində var. Yadınıza düşürsə, orda Gəray bəy Cəlalı dağlarda öldürərkən aşıq da gətizdirir və Kələntər Cəlala zülm eləmək üçün onun ayaqlarından güllə ilə vuranda Gəray bəy deyir: "Çal, aşıq, çal, komsomolun canı it canıdır!" Aşıq da *(yanılmıramsa aşığın rolunu filmdə Aşıq Ədalət oynayırdı)* böyük həvəslə "Yanıq Kərəmi" çalırdı. Ancaq mən bunu düşündüyüm anlarda sadiq oxucularımızdan Təranə xanım zəng vurdu *(necə deyərlər, ürəkdən ürəyə yollar var imiş)*, həmin musiqili söküntünün... "Titanik" filmindəki məşhur səhnəni yada saldığını dedi. Məncə, onun bənzətməsi daha uğurlu idi. Doğrudan da neft tankeri ucuzlaşma aysberqinə dəyib batmaqda olan yapistlər üçün indi belə dəlisov musiqili aksiyalar zamanıdır. Kim-kimi ayaqlayıb xilasedici qayığa dürtülsə canını qurtaracaq. Misal üçün, səfir Arif Məmmədov "Titanik" batanda qadınları itələyib özünü qayığa atan mənfi qəhrəmana bənzəyir.

Villaların sökülməsi başqa bir şeyə də bənzəyir. Bayaq yazdığım kimi, bunların yiyəsinin olmadığını zənn eləsək elə bil göydən düşüblər. Eynilə yaradılmasında heç bir zəhmətimiz olmayan neft-qaz yataqları kimi. Bax, yapistlər neft-qaz yataqlarını necə musiqili talan edib, dağıdırdılarsa villaları da elə dağıtdılar. Təki xalqa bir şey qalmasın. Təki azərbaycanlılar yeməsin. Hər cür it-qurd yeyə bilər, bircə azərbaycanlılara haramdır.

Avropa Oyunlarına apardıqları Azərbaycan "milli" komandası bu düşmən münasibətin növbəti sübutudur. Hər xalq idman qurğuları quranda, dövlət büdcəsindən idmana milyardlar ayıranda təbii ki, ilk növbədə öz övladlarının, öz uşaqlarının sağlam böyüməsini, idman eləməsini arzulayar. Sonra vaxt və yer qalarsa qoy başqa xalqlar da bizim idman vəsaitindən yararlansın, buna sözümüz yoxdur. Amma vəziyyət necədir? Biabırçılıqdır. 290 nəfərə yaxın idmançı ilə oyunlara gedirlər, onların təxminən 130 nəfəri legionerdir! Az qala yarısı! Ordan-burdan pulla, şirnikləndirmə ilə cəlb edilən insanlardır. Bontu Megersa, yaxud, Koloiazo Sotomayor lap çempion olsa belə bundan bizə nə? Doğrudanmı biz dövlət büdcəsindən milyonları Santos Merses üçün ayırırıq? Bəs hər kol dibində qayırılan olimpiya komplekslərinin nəticəsi hanı? Çünki o bəzəkli binalar "fıs" çıxıblar, kasıb millətin uşaqlarının idmanı üçün yox, yerli məmurların əyləncəsi üçün nəzərdə tutulublar. Əgər idman siyasəti uğurlu olsaydı yapistlərin hakimiyyətdə olduğu 22 il ərzində hər idman növü üzrə azı iki milli komandamız olmalı idi, hələ xaricə idmançı ixrac etməliydik. Amma iqtidarın əsas reklam elədiyi idman sahəsi bu kökdədir. Görün qalan sahələr nə gündədir.

# Bakı ilə Vaşinqton arasında Şahtaxtinski qalmaqalı

## ABŞ Azərbaycan hökumətini ATƏT-in Bakı ofisinin bağlanması qərarını geri götürməyə çağırdı və qərarı "qanunsuz" adlandırdı; **Amerikanın ATƏT-dəki səfiri:** "Hökumət başa düşməlidir ki..."

**ATƏT-in Bakı ofisinin bağlanması haqda qərar ABŞ-da kifayət qədər sərt reaksiya doğurub. "Turan" İnformasiya Agentliyinin məlumatına görə, Vaşinqton bu qərardan dərin narahatlıq keçirdiyini bəyan edib və Azərbaycan hökumətini öz qərarına yenidən baxmağa çağırıb. İyunun 8-də Amerikanın ATƏT-dəki səfiri Daniel Baer Vyanada, ATƏT Daimi Şurasının iclasında bu xüsusda öz ölkəsinin reaksiyasını diqqətə çatdırıb.**

"Ötən cümə günü biz baş katibdən eşitdik ki, Azərbaycan Bakıda ATƏT layihələrinin koordinatorunun funksiyasını nəzərdə tutan memorandumdan imtina etmək niyyətində olduğunu açıqlayıb. Bu, dərin məyusluq doğurur", - deyə diplomat qeyd edib. "Eyni zamanda yada salmaq vacibdir ki, layihələr üzrə koordinatorun ofisi ATƏT-in 57 üzv dövləti ilə razılaşdırılmış siyasi mandat əsasında fəaliyyət göstərir. Odur ki, həmin dövlətlərin konsensusu əsasında qəbul olunmuş istənilən qərar kimi bu qərar da yalnız konsensus əsasında ləğv oluna bilər" - səfir vurğulayıb. O, həmçinin deyib ki, ofis fəaliyyətini davam etdirməlidir və baş katibi yeni daimi Layihə Koordinatoru təyin olunanadək Bakıdakı ofisə müvəqqəti rəhbər təyin etməyə çağırıb.

**ABŞ rəsmisi daha sonra bildirib:** "Hökumətin kompleks təhlükəsizliyin yaxşılaşdırılmasına sadiqliyini nümayiş etdirmək yollarından biri onun vətəndaşlarının ATƏT ilə birbaşa qarşılıqlı münasibətlərə malik olmasıdır. ATƏT-in yerlərdə iştirakı, hökumətlər və vətəndaşlarla iş aparması ATƏT qarşısında uğurlu islahatlara və öhdəliklərin icrasına xidmət edir. Hökumət başa düşməlidir ki, QHT-dən və beynəlxalq tərəfdaşlardan gələn tənqidə təhlükə kimi deyil, problemlərin siyasi həlli və vəziyyətin yaxşılaşdırılması imkanları kimi baxmaq lazımdır".

**Baer bildirib ki, Azərbaycanda ATƏT layihələri koordinatorunun ofisinin faydalı işlər görmək üçün potensialı var ki, bu da yerli özünüidarəetməyə yardım göstərəcək, ATƏT öhdəliklərinin icrasını yaxşılaşdıracaq:** "Ofis işləməlidir və biz Azərbaycan hökumətini öz niyyətinə yenidən baxmağa çağırırıq". Sonda o qeyd edib ki, əgər Bakı ATƏT ofisini bağlamaqda israrlı olarsa bu, ölkənin ilk növbədə insan haqları və



Aleksis Şahtaxtinski



Daniel Baer

əsas azadlıqların təminatı sahəsində beynəlxalq öhdəliklərinin yerinə yetirilməsi məsələsinə mənfi təsir göstərəcək: "Bu isə ölkədə hərtərəfli təhlükəsizlik üçün, Azərbaycan hökuməti və ya adamlar üçün yaxşı deyil".

***

Yada salaq ki, ofisin fəaliyyəti ötən həftə qapadılıb və bu haqda Azərbaycan Xarici İşlər Nazirliyi quruma xüsusi məktub-nota göndərib. Nazirliyin mətbuat xidmətindən bildirilib ki, Bakı Fransa vətəndaşlığı daşıyan Aleksis Şahtaxtinskinin ATƏT-in Bakı layihə əlaqələndiricisi statusunda fəaliyyət müddətinin 31 may 2015-ci il tarixindən sonrakı müddətə uzadılmasını dəstəkləmir. Bununla da ilk və son koordinator kimi Şahtaxtinskinin mandatı faktiki dayandırıldığından, o, prezident İlham Əliyevlə vida görüşü edərək ölkədən gedib.

Arayış üçün qeyd edək ki, ATƏT-in Bakı ofisi ATƏT-in Bakı Layihə Əlaqələndiricisi statusuna 2014-cü ilin yanvarından transformasiya olunmuşdu. Bu haqda qərar ATƏT-in Daimi Şurasında 26 iyul 2013-cü ildə qəbul edilib. Aleksis Şahtaxtinski də vurğulandığı kimi, ilk əlaqələndirici idi. Onun fəaliyyətinin dayanmasına ilkin reaksiya Azərbaycan rəsmilərindən gəlmişdi.

**Belə ki, Prezident Administrasiyası rəhbərinin müavini, xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov twitter hesabında yazmışdı:** "Diplomatik dairələrdə bunun əsas səbəbini ABŞ-ın ATƏT-dəki səfirinin mövqeyi ilə izah edirlər. ABŞ-ın ATƏT-dəki səfiri D.Bayer Alexis Şahtaxtinskiyə irad tutub ki, sən niyə ölkənin başçısı ilə şəkil çəkdirmisən. Belə çıxır ki, Şahtaxtinski səfir Baerlə şəkil çəkdirsəydi, onun gələcək karyerası çox uğurlu olardı".

Şahtaxtinski ətrafında proseslər də məhz bu statusdan sonra sürətlə pik həddinə çatıb. Bir çox siyasi şərhçilər baş verənləri ABŞ-Azərbaycan, Qərb-Azərbaycan arasındakı gərginliyin kontekstində izah etməkdədirlər. ABŞ-ın ATƏT-dəki səfiri Daniel Baerin məsələyə faktiki, ultimativ xarakterli reaksiyası buna şübhə yeri saxlamır.

**Digər qisim analitiklər isə məsələnin kökündə Aleksis Şahtaxtinskinin həqiqətən hakimiyyətlə yaxın olması, onun özünün də bunu gizlətməməsi gerçəyinin durmasını düşünürlər.** "Şahtaxtinski bir illik fəaliyyəti zamanı da hökumətin ünvanına hansısa tənqid səsləndirməyib. O, iqtidara loyal olub. Ancaq bu cür davranış beynəlxalq təşkilatlarda qəbuledilməz haldır, çünki o halda diplomat sanki çalışdığı dövlətin təmsilçisinə çevrilir ki, bu da yolverilməzdir" - demişdi ekspertlərdən biri.

***

Məsələ də ondadır ki, Şahtaxtinskinin məhz Azərbaycan hakimiyyətinə qarşı ABŞ-ın tənqidi sözünü deməkdən imtina etdiyi üçün geri çağırıldığı deyilir. Rəsmi Bakı da buna adekvat cavab verib: Şahtaxtinski geri çağırılandan dərhal sonra Azərbaycan prezidenti İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədri, Serbiya xarici işlər naziri İvitsa Daçiçlə görüşündə diplomatın məhz bu ittihamlarla geri çağırılmasına etiraz bildirib, məsələnin araşdırılmasını tələb edib. Ardınca Azərbaycan XİN koordinatorluğun bir ay ərzində bağlanmasına dair rəsmi xəbərdarlıq notası göndərib.

Ancaq diqqət edildisə, Bakının qərarını ABŞ öz diplomatının dili ilə faktiki, qanunsuz elan edib və Azərbaycan hökumətini qərarı geri götürməyə çağırıb. Üstəgəl, cavab reaksiyasının leksikonu da yetərincə sərtdir. Bakının buna reaksiyası hələlik bəlli deyil.

❑ **Siyasət şöbəsi**

# Putinin Bakıya gəlişi ərəfəsində Moskvadan sərt xəbərdarlıq

## Rəsmi Moskva bildirir ki, "Transxəzər" qaz kəmərinin tikintisi Rusiyanın razılığı olmadan baş tuta bilməz

**Rusiya Xarici İşlər Nazirliyi bu ölkənin "Transxəzər" qaz kəmərinin tikintisi layihəsinə dair birtərəfli addımlara qarşı olduğunu ifadə edən bəyanatla çıxış edib. Bəyanat Rusiya prezidenti Vladimir Putinin Bakıya səfəri ərəfəsində səslənir. Kreml bildirib ki, Putin Bakıdakı danışıqlar zamanı Xəzər məsələlərinə də müzakirə edəcək.**

Son zamanlar Avropa İttifaqı "Transxəzər" qaz kəməri layihəsinə dair fəallığı artırıb. Brüssel Azərbaycan və Türkmənistana bu layihəyə dair 2011-ci ildə imzalanmış anlaşma memorandumunu yeniləməyi təklif edib.

Habelə Aşqabadda Türkiyə tərəfinin də iştirakı ilə "Transxəzər" qaz kəmərinə dair danışıqlar aparılıb. Türkmənistan tərəfi bildirib ki, "Transxəzər" qaz kəməri layihəsi ölkənin qaz ixracı marşrutlarının şaxələndirilməsi baxımından əsas prioritetdir. Lakin rəsmi Moskva bildirir ki, bu layihənin həyata keçirilməsi Rusiyanın razılığı olmadan baş tuta bilməz.




"Bütün mənalarda unikal olan su hövzəsində magistral boru kəmərlərinin çəkilməsinə hər şeydən əvvəl ekologiya prizmasından baxmaq lazımdır, ancaq bundan sonra məsələnin iqtisadi tərəfinə nəzər salmaq olar"- deyə Aleksandr Lukaşeviç Rusiyanın "Transxəzər" qaz kəmərinə niyə skeptik baxdığını əsaslandıraraq deyib.

Rusiya XİN rəsmisi əlavə edib ki, "Transxəzər" qaz kəməri layihəsinin effektivliyini və maliyyə baxımından özünü doğrultmasını ilk növbədə bu layihəyə qoşulacaq ölkələr mühakimə etməlidir.

"Ancaq layihənin ekoloji tərəfinin ilk növbədə Xəzər sahilində yerləşən ölkələrə dəxli var, özü də istisnasız olaraq bütün sahilyanı ölkələrə"- deyə Lukaşeviç xəbərdarlıq edib.

Rusiyalı diplomatın sözlərinə görə, Qərb ekoloji təşkilatları nədənsə Rusiyanın müxtəlif ucqarlarında ekoloji problemlərə diqqət göstərir, ancaq Xəzər regionunda təbiət və insanlar üçün potensial təhlükələri görməməzliyə vurur.

**A.Lukaşeviç xəbərdarlıq edib ki, "Transxəzər" qaz kəmərinin tikintisinə dair birtərəfli addımlar Xəzər ölkələri arasında etimadı sarsıda bilərdi:** "İstisna deyil ki, bu layihənin regiondankənar lobbiçiləri özlərini Xəzər ölkələrinə "strateji tərəfdaşlar" kimi təqdim edərək və bu layihənin tərəfdarlarına bütün mümkün siyasi dividendlər vəd edərək məhz bu etimadı sarsıtmağı nəzərdə tuturlar".

Rusiya XİN rəsmisi xatırladıb ki, ötən il Həştərxanda keçirilən Xəzər sammitində beş ölkənin liderləri açıq şəkildə Xəzərə dair mühüm məsələlərin həllində ancaq sahilyanı ölkələrin qərar qəbul etmək haqqının olduğunu vurğulayıblar.

"Hesab edirik ki, belə məsələlərə heç şübhəsiz boru kəmərləri mövzusu da daxildir" - Lukaşeviç deyib.

YENİ MÜSAVAT
N 125 (6153) 10 iyun 2015



# Azərbaycan Kürdləri Birliyinin rəhbərindən narahatlıq dolu müraciət

## Tahir Süleyman: "Türkiyənin kürdlərin kompakt yaşadığı bölgələrində Azərbaycan diasporasının işi yox dərəcəsindədir"

**Azərbaycan Kürdləri İctimai Birliyinin sədri, "Diplomat" qəzetinin baş redaktoru Tahir Süleyman Türkiyədə keçirilən parlament seçkilərinin nəticələrinə, əsasən kürdlərdən təşkil olunan Halkların Demokratiyası Partiyasının (HDP) tarixdə ilk dəfə Türkiyə Böyük Millət Məclisində 80 millət vəkili ilə təmsilçilik əldə etməsinə və bundan doğan suallara münasibət bildirib.**

"Yeni Müsavat"a açıqlamasında **Tahir Süleyman** qeyd etdi ki, Türkiyədə parlament seçkilərinin nəticələri qardaş ölkədə demokratikləşmənin nəticəsidir: "Demokratikləşmənin, o cümlədən kürdlərin özünün dəyanətinin nəticəsidir ki, 10-15 il bundan öncəyə qədər "mən kürdəm" sözünü dilə gətirməyin mümkün olmadığı ölkədə indi HDP Türkiyə Böyük Millət Məclisində təmsilçilik əldə edir. Türkiyədə kürd xalqının varlığı belə tanınmırdı, lakin tədricən demokratik islahatlar keçirildi, kürdlər də bir millət kimi özünün varlığını ortaya qoydu və bu iki məqam artıq yeni situasiya yaratdı. 1994-cü ildə Leyla Zana parlamentdə andiçmədə kürd dilində and içmək istədiyini elan etdi. Bu sözünə görə Leyla Zananı həbs edib 12 il azadlıqdan məhrum etmə cəzası verdilər. Amma bu gün Türkiyənin hər yerində, Millət Məclisində kürd dilində danışmaq sərbəstdir. Onu da etiraf etmək lazımdır ki, bu demokratikləşməyə kürd təşkilatlarının, siyasi partiyalarının mübarizəsinin də böyük təsiri oldu. HDP-nin parlamentə partiya olaraq girməsi Türkiyədə yaşayan demokratik qüvvələrin qələbəsidir. Bu, təkcə kürdlərin deyil, bütün demokratik qüvvələrin qələbəsidir. HDP Türkiyədə yaşayan bütün millətlərin hüquqlarını parlamentdə müdafiə edəcək. Ona görə də mən bu seçkilərin nəticələrinə görə Türkiyənin bütün demokratik qüvvələrini təbrik edirəm".

**Tahir Süleyman HDP-nin Türkiyə parlamentində Ermənistanla Türkiyənin sərhədlərinin açılması məsələsini qaldıracağı, Qarabağ məsələsinin Ankaranın məsələsi olmadığını bəyan edəcəyi ehtimalının olduğu haqda deyilənlərə isə belə münasibət bildirdi:** "Türkiyədəki kürdlərin böyük əksəriyyəti Ermənistanın işğalçı bir dövlət olduğu, ermənilərin Azərbaycan türkləri ilə yanaşı kürdləri də dəfələrlə qırğına məruz qoyduğu, yurd-yuvalarını işğal etdiyindən məlumatsızdır. Mən faktlara əsaslanıb deyirəm. Ermənilər isə Türkiyədə kürdlərin içərisində on illərdir belə bir təbliğat aparıblar ki, guya onlar kürdlərə dost millət olduqları üçün türklər, həmçinin Azərbaycan tərəfindən dəfələrlə qətl ediliblər, guya Azərbaycan Qarabağda onları əsarət altında saxlayıb və sair. Ermənilər özlərini kürdlərin nəzərində yazıq, məzlum, işğala məruz qalmış millət kimi sırımağa nail olublar. On illər boyu ermənilərin apardığı bu təbliğat sözsüz ki, öz təsirini göstərib, ermənilərin bu yalanlarına inananlar var. HDP-nin də sıralarında ermənilərin apardığı bu təbliğata inananlar var. Çox təəssüflər olsun ki, Azərbaycan dövlətinin müvafiq rəsmi orqanları, xüsusilə Diaspora Komitəsi Türkiyədə kürdlərin kompakt yaşadığı bölgələrdə təbliğat aparmaq, ermənilərin yalanlarını ifşa etmək, kürd xalqına həqiqətin nədən ibarət olduğunu çatdırmaq istiqamətində heç bir addım atmayıb. Türkiyənin kürdlərin kompakt yaşadığı bölgələrində Azərbaycan diasporasının işi yox dərəcəsindədir. Nəticədə ermənilərin yalanları həqiqət kimi kürdlərin beyninə yeritməsinə faktiki olaraq münbit şərait yaranmış olub. Mən indiyə qədər "Yeni Müsavat" qəzetində, digər media orqanlarında dəfələrlə bu məsələni qaldırmışam, Xarici İşlər Nazirliyinə, Diaspora Komitəsinə rəsmi yazılı müraciətlər etmişəm ki, nə qədər gec deyil, Türkiyədə və İraqdakı kürdlər arasında təbliğat aparmağa, onların içərisinə gedib təmaslar qurmağa, Azərbaycan həqiqətlərini çatdırmağa zərurət var. Müraciətlərimdə bildirmişəm ki, Azərbaycanın diaspora təşkilatları xətti ilə, dövlətin dəstəyi ilə ziyalılar, jurnalistlər Türkiyədə kürdlərin yaşadığı bölgələrə getməli, orada konfranslar, görüşlər keçirməlidir. Bu cür tədbirlərdə faktlar ortaya qoyulmalıdır, ermənilərin Azərbaycan türkləri ilə yanaşı, kürdləri tarixi torpaqlarından-indiki Ermənistanın müxtəlif bölgələrindən dəfələrlə deportasiya etdiyi, minlərlə tarixi kəndlərimizin adını erməniləşdirdiyi, azəri türkləri ilə yanaşı kürdləri kütləvi qətlə məruz qoyduğu, bu gün Ermənistanda bir nəfər də olsun müsəlman kürdünün yaşamadığı haqda çoxsaylı faktları Türkiyə kürdlərinə çatdırmaq lazımdır. Buna böyük ehtiyac var. Biz müstəqillik əldə edəndən indiyə qədər keçən bu 26 ildə bunları etsəydik, indi kürdlər ermənilərin mahiyyətinin nə olduğunu bilərdilər və ermənlərin xeyrinə olacaq heç bir addım atılmayacağına əmin olardıq. Mən yenə deyirəm ki, nə qədər gec deyil, Azərbaycan dövləti qeyd etdiyim işləri həyata keçirmək istiqamətində addımlar atmalıdır".

❑ **Etibar SEYİDAĞA**

# Azərbaycanlı siyasətçilər Türkiyədəki seçkiləri dəyərləndirdilər

## Müxtəlif mövqelər var; HDP-nin tələbləri etiraz doğurdu; təkrar seçkilər proqnozlaşdırılır...

**İyunun 7-də Türkiyədə keçirilən parlament seçkiləri gözlənilməz nəticələrlə yadda qaldı. Hakim partiya AKP seçkilərdə qalib gəlsə də, təkbaşına hökumət formalaşdırmaq şanslarını itirdi. Eyni zamanda PKK-nın siyasi qanadı hesab edilən Xalqların Demokratik Partiyası (HDP) ilkə imza ataraq, 10 faizlik barajı keçdi.**

Bəzi ekspertlər hesab edir ki, seçkilərdəki nəticələr qardaş ölkənin gələcəyi üçün heç də xoş olmayacaq. Artıq bunun işartıları görünməyə başlayıb. Belə ki, seçkilərdə ciddi uğur qazanan HDP rəhbərliyi açıq şəkildə Türkiyə-Ermənistan münasibətlərinin bərpa olunmasını, sərhədlərin açılmasını, "erməni soyqırımı"nın tanınmasını tələb edir.

Türkiyədəki seçkilər, HDP-nin tələbləri ilə bağlı azərbaycanlı siyasilərin mövqeyini öyrəndik.

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı hesab edir ki, Türkiyədəki seçkilər demokratiyanın göstəricisidir:** "Türk xalqının iradə nümayiş etdirməsini və seçkilərin demokratik keçirilməsi haqqında verilən rəyləri yüksək qiymətləndirirəm. Təbii ki, seçkilərin nəticələri kimisə qane edə bilər, kimisə etməyə bilər. Bunlar sonrakı məsələlərdir. Türkiyə xalqı digər türkdilli xalqlara göstərdi ki, şəffaf seçkilər keçirmək mümkündür".

**Müsavat funksioneri HDP-nin seçkidən sonra verdiyi mesajlara da toxundu:** "Deyilən fikirlər rəsmi tələb səviyyəsində deyil. Bunları hələ ciddi qəbul etmək olmaz. Əgər belə bir şey olarsa, böyük yanlışlıq olar. Sonu uğurla nəticələnməz. Hər halda, Türkiyədə təkrar seçkilər olacağı gözlənilləndir".

**Ümid Partiyasının sədri İqbal Ağazadə seçkilərdəki nəticələri gözlənilən sayır:** "Türkiyənin yürütdüyü siyasət cari siyasət idi, ancaq AKP-nin hakimiyyətdə qalmasına hesablanmışdı. Uzun müddət bu siyasət aparıldı və nəticəsi belə oldu. Demokratik ölkədə iqtidarın bu qədər qalması mümkün idi. Bir dəfə dostlardan biri çox yaxşı fikir dedi. Bildirdi ki, biz AKP-yə səs veririk. Soruşdum ki, nədən AKP-yə səs verirsiz? Cavab verdi ki, yollar çəkilir, maliyyə stabilliyi var, ölkə inkişaf edir. Digər bir dostum dedi ki, çəkilən yolların Türkiyəni hara apardığı məlum deyil. Əslinə qalsa, məlum idi. Gəlib bu yerə çatırdı və çatdı da. Çox faciəvi nəticədir. Bu, coğrafiya məsələsidir. Türkiyənin coğrafiyası səslərə bölündü. Əgər HDP Türkiyənin müxtəlif bölgələrindən bu səsləri almış olsaydı, bəlkə demokratikliyin adına yazmaq olardı. Amma 17 milli zonaya, Şərqi Türkiyənin adına yazılmış olanda, bu artıq demokratiyadan yox, separatçılıqdan, ən yaxşı halda feodallaşmadan xəbər verir. HDP dünyaya ünvanlanan mesajlar verir ki, Türkiyə-Ermənistan sərhədləri açılsın, "erməni soyqırımı" tanınsın. Bütün bunları ona görə edirlər ki, dünyada arxalarına demokratik qüvvələri alsınlar, Türkiyədə demokratik olduqları fikrini formalaşdırsınlar. Ondan sonra separatçılığa getsinlər. Bunun sonu Türkiyəni parçalamaqdır. Demokratik dünyanı bu cür bəyanatlarla aldatmaqdır. Yeganə çıxış yolu hökumətin formalaşmaması, yeni seçkilərin keçirilməsidir. CHP, MHP və AKP Türkiyənin dövlət maraqlarını düşünərək, bəzi məqamları razılaşmalıdırlar. Heç olmasa, müxalifət partiyaları bununla bağlı ortaq mövqe nümayiş etdirməlidirlər. Məndə böyük inam var ki, bu parlament uzunömürlü olmayacaq və qısa zamanda Türkiyə yeni seçimlərə gedəcək".

**KXCP sədri Mirmahmud Mirəlioğlunun mövqeyi daha maraqlıdır. O hesab edir ki, AKP HDP qarşısında öz borcunu qaytardı:** "Türkiyənin siyasətində böyük dəyişiklik var. Təbii ki, beynəlxalq güclərin Türkiyədə, Türkiyə vasitəsilə isə bütün türk dünyasına yönəlik siyasəti var. Orta Doğu layihəsindən tutmuş, digər məsələlərə qədər. Bu, proqnozlaşdırılan nəticə idi. Ötən seçkilərdə HDP-çilər AKP-yə səs vermişdilər. Bu dəfə də AKP öz borcunu qaytardı. Sabah Öcalan da Türkiyə Böyük Millət Məclisində çıxış edə bilər. Öncədən planlaşdırılmış məsələdir. Heç nədən HDP-çilər bu qədər səs əldə etdilər. Bu, Ərdoğan vasitəsilə, beynəlxalq güclərin Türkiyə aleyhinə yürütdükləri siyasətin nəticəsidir".

**KXCP sədri HDP-nin tələblərindən də söz açdı:** "Bu məsələ təkcə onların deyil. Danışan dil onlarındır. Hələ yeni nəğmələr eşitməli olacağıq. Tələblərinə addım-addım nail olmaq niyyətindədirlər. Amma nail ola bilməyəcəklər. Məsələnin fərqində deyillər. Türkiyə millətçilərinin apardığı haqq davası var. Bütün dünya bir tərəfə olsa da, sonda haqq qalib gələcək. Bu tələblər yerinə yetirilməyəcək. Qanun buna imkan verməz. Son nəticədə qazanan türk xalqı olacaq".

**AMİP sədri Yusif Bağırzadəyə görə, AKP 13 illik fəaliyyəti dövründə uğursuzluğa düçar olub:** "Bunun bir sıra səbəbləri oldu. Abdulla Gül seçkilərdə aktiv iştirak etmədi, AKP zəif siyasət apardı. Eyni zamanda HDP siyasətlə erməni və yunanları öz tərəfinə çəkə bildi. 80 nəfər HDP deputatı parlamentdə heç nə edə bilməz. Yəni irəli sürdükləri tələblər yerinə yetirilməyəcək. Sadəcə, erməniləri öz tərəflərində saxlamaq üçündür. AKP-nin səhvi də odur ki, 70 min erməni Türkiyədə saxlayır. Türkiyədəki partiyalar artıq öz əvvəlki xətlərindən uzaqlaşıblar. İnanmıram ki, koalisiya qurmaq mümkün olsun. Erkən seçkilərə gediləcək. HDP-nin səsləri pik nöqtədir. Ondan artıq bir daha səs yığacağına inanmıram. Bu baxımdan AKP növbəti seçkilərə gedilsə belə, qalib gələcək. 45 gün ərzində hökumət formalaşmasa, CHP, MHP və AKP arasında daha mülayim münasibətlərin şahidi olacağıq".




❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 125 (6153) 10 iyun 2015

**“Saxta vəsiqə” qalmaqalı ilə bağlı “Yeni Müsavat” bütün tərəfləri danışdırmaqda davam edir. Son yazılarımızda Müsavat rəhbərliyinin və qalmaqalda adı hallanan mühacir Elnur Mirzənin açıqlamalarından ibarət mövqe yazısı dərc edilib. E.Mirzə bildirib ki, bundan sonra sözügedən mövzuda heç bir açıqlama verməyəcək. O, “top”u İsveçrədə yaşayan mühacir Elbəyi Həsənliyə ataraq, “onda faktlar var, açıqlasın” deyib.**

# “Zamanı gələndə əlimdəki faktları ortaya qoyacam”

## Mühacir jurnalist bir çoxlarını və “Yeni Müsavat”ı ittiham etdi

*Bu dəfə də E.Həsənlidən bu mövzuda bildiklərini və Müsavat rəhbərliyinin açıqladığı faktlara münasibətini soruşduq. Müsahibimiz öncə bizdən, qəzetimizdən şikayətləndi və sözügedən qalmaqalda obyektiv mövqe tutmadığımıza görə qəzetimizi qınadı.*

- “Yeni Müsavat” İsa Qəmbərin Meydan TV-də gedən müsahibəsini yayımlayır. Lap yaxşı. Ancaq elə həmən Meydan TV həmin müsahibədəki bir sıra məsələlərlə bağlı məndən də müsahibə götürür. 20 ilə yaxın can qoyduğum “Yeni Müsavat” mənim təkidimə baxmayaraq, o müsahibəni vermir. Bu qalmaqalla bağlı yazdığım statusları əksər sanbalı media orqanları tirajlayır. Ancaq “Yeni Müsavat” bunları görməzdən gəlir. Niyə? Əslində Rauf Arifoğlu həmin yazıları verməlidir. Özü də mütləq. Təkcə ona görə yox ki, mən bu qəzetlə hələ də pulsuz-parasız əməkdaşlıq edirəm. Ən azı ona görə ki, Rauf bəy İsveçrədə olarkən həmin sənədləri biz ona nümayiş etdirmişik. Heyrətdən donub qalmışdı. Təəssüf ki, burada həmin sənədlərlə bağlı Rauf bəyin reaksiyasını dilə gətirə bilmirəm. Çünki öz razılığı olmadan belə şeyləri demək etikadan kənar olardı. Təəssüf ki, Rauf bəy Bakıya dönəndən sonra sözügedən mövzu ilə bağlı yazdığım statusun altından belə bir şərh yazdı: “Elbəyi Həsənli. Mən səni şiddətlə qınayıram... Mən Arif Hacılının yanındayam”. Heç cür başa düşə bilmirəm ki, o qədər sənədi görəndən sonra necə Arif Hacılının yanında dayanmaq olar. Hələ də Arif bəyə dəstək verənləri haradasa başa düşürəm. Çünki onlar həmin sənədləri görməyiblər. Amma sən o sənədləri görmüsən axı.

***- Elbəyi bəy, vəsiqə məsələsi ilə bağlı Müsavat Partiyasına qarşı bu cür hücumunuz da birmənalı qarşılanmır. Partiya zatən bu məsələ ilə bağlı araşdırma aparır və günahkarların tapılmasında maraqlıdır...***

- Müsavatda saxta vəsiqə və arayışların verilməsi haqqında nə vaxtdır ki, mətbuata yazılar gedir. Yəni bu mövzunu mən gündəmə gətirməmişəm. Sadəcə, mən bu işə əl qoyandan sonra miqyas xeyli genişləndi. Hər halda, xatırlatmağa ehtiyac duyuram. Bir qayda olaraq ittihamlar qarşı düşərgədən səslənirdi. 2014-cü ilin noyabrında mühacirətdə yaşayan müsavatçı Kənan Hacıəkbəroğlu bu mövzunu kəskin formada gündəmə gətirdi. Onun narahatlığı “Avropadan Müsavat Partiyası ilə bağlı həyecan təbili ttp://musavat.com/news/siyaset/avropadan-musavat-partiyasi-ile-bagli-heyecan-tebili_224224.html” başlığı ilə “Yeni Müsavat”da gedib. Bunu ki, mən yazmamışam. Müsavat Partiyasının Divanı sabiq deputat İkram İsrafilin oğlu ilə bağlı bəyanat yaydı. Halbuki o, 6 ay əvvəl Londona daşınmışdı. Təbii ki, Bakıda polis tərəfindən döyülə bilməzdi. Həmin saxtakarlığı siyasi fəal Bəxtiyar Hacıyev ortaya çıxardı. İsa Qəmbər isə bu boyda biabırçılığın üstündən sükutla keçdi.

Başqa bir məqam. Bəhs etdiyimiz mövzu ilə bağlı İsa Qəmbər bir status yazmışdı. Mən də həyatımda bəlkə də ilk dəfə onun statusuna şərh yazdım və... illərin İsa Qəmbəri mənim şərhimi sildi. İstərdim ki, o şərhə də bir diqqət edək.

Şərh belə idi: “Hörmətli İsa bəy. Diqqətinizi Almaniyada yaşayan mühacir həmkarım, müsavatçı Fəxrəddin Hacıbəylinin son statusuna yönəltmək istərdim. Bəhs etdiyiniz mövzu ilə bağlı *(söhbət Elnur Mirzəyev tərəfindən Müsavat Partiyasından pulla alınması iddia olunan arayışlardan gedir)* o yazır:”Bir gün bu işin zibilinin çıxacağını təxmin etmişdim. Bəzi yoldaşlar çox ağ eləmişdi. Buyurun, indi arxanızca buraxdığınız zir-zibillərin cavabını verin!" Fəxrəddin bəylə əlaqə saxladım. Dedi ki, bəy, bu məsələdə səninlə həmrəyəm. Ona görə ki, o vəsiqələrdən, arayışlardan neçəsi gəlib əlimdən keçib...

İsa bəy nədən belə bir şərhi bəyənməyib? Məncə, o, heç cür razılaşmaq istəmir ki, Avropada olan digər müsavatçı-yazar da hardasa mənim mövqeyimlə səsləşən yanaşma sərgiləyib...



**“Həqiqəti demək çoxlarının istefa verməyi deməkdir”**

**“Müsavat rəhbərliyi bəyanat verməklə sudan quru çıxmaq istədi, amma....”**

Yəqin ki, sözügedən statusundan sonra Fəxrəddin bəyin də adı mənim kimi qara dəftərə düşüb. Sözümün canı o ki bu mövzu mənsiz də ortada idi. Mən gəldim və korun-korun yanan ocağı yenidən alovlandırdım...

***- Bəy, son durum onu göstərir ki, saxta partiya vəsiqəsi ilə bağlı başlanan polemikada Gülağa Aslanlı kontr-arqumentlərini ortaya qoydu. Əsas arqument də bu oldu ki, əgər saxta sənəd işində iştirak etmiş olsaydılar, Belçika Miqrasiya İdarəsindən gələn sorğuya “Bəli, Elnur Mirzəyev bizim üzvümüzdür” deyə cavab verər və bu qalmaqal böyüməzdi. Məntiqlə pis əməl etmiş tərəf onu gizlətməyə çalışmalıdır, üzə çıxarıb, bəyanat verməyə yox, deyilmi?***

- Söhbət 3-5 adamdan getsəydi, Gülağa Aslanlının kontr-arqumentlərinə bəlkə də inanmaq olardı. Ancaq əlimizdə onlarla bu kimi sənəd var. Belçika Miqrasiya İdarəsindən gələn sorğu təkcə Müsavat Partiyasına ünvanlanmayıb. Hüquq müdafiəçisi Eldar Zeynalov da bu işin içində idi. Yoxsa Müsavat Partiyası bu işə görə bəyanat verməyəcəkdi. Sadəcə, Miqrasiya Xidmətinə məktub göndərməklə bu işi bitirəcəkdilər. Ancaq Müsavat funksionerləri bilirdilər ki, bəyanat verilməsə, Elnur Mirzəyevlə bağlı sənəd mətbuata çıxarılacaq. “Bəli, Elnur Mirzəyev bizim üzvümüzdür” deyə cavab vermək o qədər də asan deyildi. Çünki bu sorğu özlüyündə o deməkdir ki, qarşı tərəfin həmin sənədə inanmamağa ciddi əsasları var. Elnur Mirzəyev Belçika Miqrasiya İdarəsindən aldığı sənədi facebook-da yayımlamışdı. Həmin sənədlərin bir hissəsi ingilis dilindədir. Yazılır ki, Elnurla bağlı məsələni İsa Qəmbərdən asanlıqla dəqiqləşdirmək olar. Onlar məsələyə aydınlıq gətirmək üçün Eldar Zeynalova müraciət ediblər. O da Belçika Miqrasiya İdarəsinə yazıb ki, İsa Qəmbər sənədi saxta adlandırdı. Məncə, Müsavat rəhbərliyi bəyanat verməklə sudan quru çıxmaq istədi. Amma Elnur Mirzəyev danışdı və bütün hesablamaları alt-üst etdi. Müsavatın rəhbərliyi düşünməmişdi ki, belə kəskin reaksiya olacaq. Elnur Mirzəyev elə indi də bu mövzu ilə bağlı kəskin mövqe sərgiləyir. Onun son statuslarından biri belədir: “Qabaqlar mən elə bilirdim ki, arayışı yalnız JEK-lər satır”.

***- Daha bir detal. Əgər dediyiniz kimi, Gülağa Aslanlı müraciət edən hər kəsə partiya vəsiqəsi satırdısa, niyə bunu əlindəki həqiqi Müsavat möhürü ilə yox, saxta möhürlə edirdi?***

**“Bu mövzu mənsiz də ortada idi. Mən gəldim və korun-korun yanan ocağı yenidən alovlandırdım...”**

- Kim müəyyən etdi ki, həmin arayışda saxta möhürdən istifadə olunub? Bunun üçün ekspertiza keçirilməlidir... Mən İsa Qəmbərə açıq mətnlə müraciət etdim ki, əlimizdə olan sənədləri ona təqdim etməyə hazıram. O isə buna maraq göstərmir. Çünki həmin sənədlərin saxta olduğunu iddia etmək onun üçün çox çətin olardı. Həqiqəti demək isə çoxlarının istefa verməsi deməkdir. Azərbaycanda da normal hüquqi müstəvi yoxdur ki, əlindəki sənədləri ora təqdim edəsən. Və biləsən ki, hüquq-mühafizə orqanları bu işi siyasi sifarişin təsiri ilə araşdırmayacaqlar. Qanunların oyuncaq olduğu ölkədə çıxış yolu tapmaq zor olur.

***- Əlinizdəki faktlar, sənədlər nələrdən ibarətdir və bunu nə zaman açıqlamağı düşünürsüz?***

- Vallah, bu suala Rauf Arifoğlu cavab versə, mən ona çox minnətdar olardım. Çünki dediyim kimi, o, sənədləri gördü. Bilirsiz, həmin sənədlərdə söhbət onlarla insanın taleyindən gedir. Belə məsuliyyətin altına girmək istəməzdim. Bəzi dostlar mənə deyirlər ki, həmin vəsiqə və arayışlardakı adları qaralamaqla mətbuata ötürüm. İlk baxışda məntiqli görünür. Ancaq yadınızdadırsa, Xədicə İsmayıl bir dəfə bu üsuldan istifadə etdi. Nəticəsi də göz qabağındadır. Yəni söhbətin kimdən getdiyi tezliklə aşkar oldu. Mənə isə lazımdır ki, həmin arayışdakı adlar həmişəlik gizli qalsın. Zamanı gələndə əlimdə olanları ortaya qoyacam. Hələ ki bunun mümkün variantları barədə düşünürəm. Əsas odur ki, bundan arayışlarda adı keçən insanlar zərər görməsin...

**Baş redaktor Rauf Arifoğlundan:** *Mən Elbəyi Həsənlinin ittihamlarını qəbul etmirəm. Onun “sübut” dediklərinin bir qismini doğrudan da görmüşəm, bir nüsxəsini də mənə e-posta ilə göndəriblər. Lakin bizim anlaşmamız bu idi ki, bütün bunları hakim kimi inandığımız İsa Qəmbərə təqdim edəcəyik, mətbuata çıxartmayacağıq. Bunun üçün Elbəyidən xüsusi xahiş etmişdim. Mən də İsa bəylə görüşüb, orada ayrı-ayrı müsavatçı mühacirlərdən eşitdiklərimi, şahid ifadələrini İsa bəyə sözlə söyləyəcəkdim... Lakin bu anlaşma pozuldu, mən Bakıya dönəndən az sonra E.Həsənli bu məlumatları mətbuata çıxartdı. İndi məni də özünün başlatdığı savaşa qatmaq istəyir. Mənsə bunu istəmirəm.*

**Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 125 (6153) 10 iyun 2015

**İyunun 7-də Bakının Sabunçu-Zabrat yolunda baş verən, 19 nəfərin yaralanması, 3 nəfərin ölümü ilə nəticələnən dəhşətli qəza marşrut avtobuslarında, ictimai nəqliyyatda sərnişinlərin həyati təhlükəsizliyinin nə qədər aşağı səviyyədə olduğunu bir daha sübut etdi.**

# Bakıda sərnişinləri ölümə aparan avtobuslar...

**İlqar Hüseynli:** "Sərnişindaşıma ilə məşğul olan şirkətlərin əksəriyyəti nəqliyyat nazirinin yaxın ətrafında olan insanlardır və bir növ məsuliyyətdən azaddırlar"
**Kamran Əliyev:** "Son 4 ayda avtobus sürücüləri tərəfindən törədilən qəzaların, eləcə də bu hadisələrdə ölənlərin və yaralananların sayında artım müşahidə olunur"



Paytaxt Bakının mərkəzi və ətraf qəsəbələrinə işləyən ictimai nəqliyyat vasitələrinin istər istismara yararlılığı, istər sürücülərin peşəkarlığı baxımından problemlərin olması heç kimə sirr deyil. Lakin insan tələfatı və kütləvi xəsarət alma ilə nəticələnən yol qəzalarının sayının artması və bu istiqamətdə heç bir önləyici tədbirlərin görülməməsi mövzunun aktuallığını bir daha təsdiq edir.

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan nəqliyyat məsələləri üzrə ekspert İlqar Hüseynli bildirdi ki, bu məsələdə sərnişindaşıma şirkətlərinin məsuliyyəti artırılmalı, cəzalar ağırlaşdırılmalıdır:** "Ümumiyyətlə, bütün avtobus qəzaları ilə bağlı baş verən qəzalara görə həmin sərnişindaşıma xidmətini həyata keçirən şirkətlər yoxlanmalı, onların üzərinə məsuliyyət qoyulmalı, götürülən öhdəliklərin əməl olunmasına nəzarət həyata keçirilməlidir. Bu yalnız kağız üzərində qalmamalıdır. Bu şirkətlərə ciddi şəkildə sanksiyalar tətbiq olunmalıdır. Hər bir qəzaya, xəsarət almış və həyatını itirmiş şəxslərə görə kompensasiyalar, böyük məbləğdə cərimələr şirkətlərin üzərinə qoyulmalıdır ki, onlar məsuliyyətini dərk etsin, sərnişindaşıma ilə məşğul olan sürücülər üzərində nəzarət mexanizmi qursunlar".

**Ekspert bildirdi ki, baş verən qəzaların əsas səbəbi sükan arxasında olan sürücülərin bəlli kateqoriyada sürücülük vəsiqəsinin olmaması, bəzi sürücülərin ümumiyyətlə sürücülük vəsiqəsi olmadan nəqliyyat vasitəsini idarə etməsi, interval qaydalarının pozulması, avtobusu sürətlə idarə etməsi, planın çox olmasıdır ki, onlar da məcbur olub yol hərəkəti qaydalarını pozurlar:** "Əksər hallarda işıqforun qırmızı işığına məhəl qoymurlar. Bu şirkətlərin arxasında yüksək vəzifəli məmurlar durduğundan onlar özlərini məsuliyyətdən azad olunmuş hiss edirlər. Nəticədə bizim üzləşdiyimiz problemlər ortaya çıxır ki, çoxsaylı qəzalar olur, insan tələfatı baş verir. Mən onu da deyim ki, sərnişindaşıma ilə məşğul olan şirkətlərin böyük əksəriyyəti nəqliyyat nazirinin ən yaxın ətrafında olan insanlardır. Hətta birbaşa nəqliyyat nazirinin ailəsinə yaxın olan şirkətlərdir ki, onlar öz üzərində məsuliyyət hissini tamamilə itiriblər. Bütün problemlərin kökündə son nəticədə məmur özbaşınalığı durur. Bütün bunlar kompleks şəkildə həllini tapmalıdır. Ölkə prezidenti son zamanlar bəzi dövlət məmurlarına, xüsusən iqtisadiyyat sektorunda olanlara xəbərdarlıq edir, onların fəaliyyətini tənqid edir. Lakin təəssüflər olsun ki, bu günə qədər Nəqliyyat Nazirliyinə qarşı bu tənqidlərin şahidi olmamışıq. Yaxşı olardı ki, Nəqliyyat Nazirliyində olan qanunsuzluqlar, özbaşınalıqlarla bağlı da tənqidlər olsun".

**İ.Hüseynli bildirdi ki, əgər Nəqliyyat Nazirliyinin işinə nəzarət gücləndirilməzsə, yol qəzalarının sayı durmadan artacaq:** "Mən hətta müşahidə etmişəm ki, yol polisinin olduğu yerdə belə, müxtəlif nəqliyyat şirkətlərinin sürücüləri işıqforu qırmızı işıqda keçirlər. Yol polisinin özündə belə məsələyə bəlli bir münasibət var ki, həmin şirkətlərin sürücülərinə ciddi cəzalar tətbiq edə bilmirlər. Burada məmur asılılığı prinsipi hər məqamda özünü göstərir. Əgər bunların qarşısı alınmayacaqsa, nəqliyyat şirkətlərinə lisenziyaların verilməsində cəzalar tətbiq edilməyəcəksə, bu proses davam edəcək".

**Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsi ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev isə açıqlamasında bildirdi ki, ara-sıra marşrut avtobuslarının müvafiq kateqoriyası olmayan sürücülər tərəfindən idarə olunması hallarına rast gəlinir:** "Sözsüz ki, burada da həm ona nəqliyyat vasitəsini verən şəxs, həm də onu idarə edən şəxs məsuliyyətdən kənarda qalmır. Ancaq istənilən halda müvafiq kateqoriyası olmayan sürücüyə o nəqliyyat vasitəsini etibar edən istər fiziki şəxslər, istərsə də hüquqi şəxslər bilməlidir ki, bu, insanların həyatı ilə risk eləmək deməkdir. Əgər həmin şəxs hər hansı qəza törədirsə, bu zaman həmin şirkət rəhbərliyi də cəzadan kənarda qalmayacaq. Bunu onlar nəzərə almalıdırlar".

**DYP rəsmisinin sözlərinə görə, ictimai nəqliyyat vasitələrinin sürücüləri tərəfindən qayda pozuntusuna yol verildikdə onlara qarşı dərhal tədbir görülməsində hüquqi əngəllər var:** "Qanunvericilikdə də göstərilir ki, sərnişinlərin rahatlığının təmin olunması məqsədilə qayda pozan sürücü barəsində son dayanacaqda qanuni tədbir görülməsi ilə bağlı müddəa var, bu sonradan qanuna əlavə olunub. Hər addımda avtobusu saxlayıb yoxlamaq mümkün deyil. Bu iri həcmli bir nəqliyyat vasitəsidir, onun yolda saxlanması həm sərnişinlərin ünvana ləngiməsinə səbəb olur, digər nəqliyyat vasitələrinin ləngiməsinə səbəb olur. Bütün bunlar avtobus nəqliyyat vasitələrinin vaxtaşırı yoxlanması üçün bir əngəldir. Ancaq bununla yanaşı, biz həm hüquqi, həm də fiziki şəxslərə müraciət edirik ki, bununla bağlı ciddi tədbir görsünlər, aidiyyəti olmayan şəxslərə nəqliyyat vasitəsini verməsinlər, insanların həyatı ilə risk etməsinlər. Hansısa nəqliyyat vasitəsinin yol verdiyi qayda pozuntusu müvafiq yol qurğuları vasitəsilə aşkarlanırsa, onların barəsində elektron cərimələr yazılır və ünvanlarına göndərilir".

Kamran Əliyev onu da vurğuladı ki, son 4 ayda ötən ilin müvafiq dövrü ilə müqayisədə avtobus sürücüləri tərəfindən törədilən qəzaların, eləcə də qəzalarda ölənlərin və yaralananların sayında artım müşahidə olunur.

❑ Nərgiz LİFTİYEVA




# Bəzi marşrut xətlərinin istiqamətləri dəyişdirildi

**Avropa Oyunları zamanı göstərilən nəqliyyat xidmətinin yaxşılaşması, yarana biləcək sıxlığın qarşısının alınması məqsədilə Nəqliyyat Nazirliyi Bakı şəhərində fəaliyyət göstərən bəzi marşrut xətlərinin istiqamətlərində dəyişikliklər edib.**

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən "APA-Economics"ə verilən məlumata görə, açılış və bağlanış mərasimlərində avtobus marşrutlarının xətlərində nəzərdə tutulan dəyişikliklər aşağıdakılardır:

**Zabrat-Maştağa istiqamətindən:**

- 107, 131, 172,173 və 189 nömrəli marşrut xətləri E. Mehdiyev - Bakıxanov qəs. Əfəndiyev küçəsi - "Neftçilər" metro stansiyası - Rüstəmov və M. Əliyev küçələrinin kəsişməsindən təşkil olunacaq;
- 139, 148, 163, 166, 198, 204, 216 və 217 nömrəli marşrut xətləri E. Mehdiyev - Bakıxanov qəsəbəsi - Əfəndiyev küç. - Şərifli küç. - Mirzəyev - Q.Qarayev pr. (1-ci yol) köhnə Nizami Rayon Məhkəməsinin qarşısına qədər təşkil olunacaq;
- 62, 40 və 105 saylı marşrut xətləri Sabunçu stansiyası - Əsədullayev küç. - Bakıxanov qəs. - Mehmandarov küç. - Sülh küç. - "Neftçilər" metro stansiyası və sonra mövcud xətt üzrə hərəkət edəcək;
- 55 saylı marşrutun xətti Sabunçu stansiyası - Əsədullayev küç. - Bakıxanov qəs. - Mehmandarov küç. və sonra mövcud xətt üzrə hərəkət edəcək;
- 93 saylı marşrutun xətti müvəqqəti dayandırılır.

**Mərdəkan-Buzovna-Qala-Bülbülə qəsəbələri istiqamətindən:**

- 100, 101, 136, 141, 150, 160, 171 və 187 saylı marşrut xətləri Mərdəkan şosesi - H. Əliyev pr. - Zığ beton yolu - Gəncə pr. - "Həzi Aslanov" metro stansiyasına qədər təşkil olunacaq;
- 116 saylı marşrutun xətti Heydər Əliyev Hava Limanı və Zığ beton yolu - Nobel pr. - A.Cəlilov - K. Səfərəliyeva - 28 May küç. (S. Vurğun bağının yanı) son dayanacaq;
- 184 saylı marşrut xətti Bül-Bülə qəs. - Bakıxanov qəs. - Əfəndiyev küç. - Şərifli küç. - Mirzəyev - Q.Qarayev pr.(1-ci yol) köhnə Nizami Rayon Məhkəməsinin qarşısına qədər təşkil olunacaq.
- 214 saylı marşrut xətti Bakıxanov qəs. - Əfəndiyev küç. - Qəmbərov küç. - "Neftçilər" metro stansiyası - 8 km bazarına qədər təşkil olunacaq;

**Ziya Bünyadov prospekti istiqamətindən:**

- 11 və 36 nömrəli marşrut xətləri - Q. Qarayev pr. - O. Vəliyev - M. Abbasov - A. Manafov - Q. Qarayev pr. - sonra mövcud xətt üzrə;
- 207 saylı marşrutun xətti Binə T/M. - Dairəvi yol - Moskva pr. - A. Mustafayev - Z. Bünyadov - Atatürk prospektinə qədər təşkil olunacaq.
- 82 saylı marşrutun xətti müvəqqəti dayandırılır.

YENİ MÜSAVAT
N 125 (6153) 10 iyun 2015

# Bələdiyyə sədrinin qətli ilə bağlı yeni təfərrüatlar

## Fədai Hüseynov bir neçə milyon qiyməti olan torpağın sənədlərini sədrdən tələb edib; qətlin motivi haqda yeni məlumatlar


Vəsilə Əbilhəsənova

**Saray bələdiyyəsinin sədri, 39 yaşlı Vəsilə Əbilhəsənovanın və onun həyat yoldaşının qətli ilə bağlı yeni məqamlar üzə çıxıb. "Yeni Müsavat"a daxil olan məlumata görə, qanlı olaydan xeyli əvvəl Fədai Hüseynov bələdiyyə sədrindən Saray qəsəbəsi ərazisində yerləşən 2 hektarlıq əraziyə sənəd verməsini tələb edib. F.Hüseynovun belə bir tələblə çıxış etməsi təsadüfi deyil.**

Ötən sayımızda qətlin torpaq mübahisəsi zəminində törədilməsi haqda versiyanın işləndiyini yazmışdıq. Əldə etdiyimiz yeni məlumatlar və yayılan xəbərlər bu versiyanın əsas götürüləcəyini təsdiqləyir. Xəbər verdiyimiz kimi, F.Hüseynov uzun illər qeyri-rəsmi olaraq Saray bələdiyyəsində çalışıb, torpaq alveri ilə məşğul olub, ara-sıra bələdiyyə sədrinə cangüdənlik edib.

V.Əbilhəsənova 2015-ci ilin yanvarında bələdiyyəyə sədr gətiriləndən sonra F.Hüseynov ondan qəsəbə ərazisindəki 2 hektarlıq torpağa sənəd verməsini tələb edib. Sədr isə onun bu tələbini yerinə yetirməkdən ən müxtəlif bəhanələrlə yayınıb. Qətldən az əvvəl isə deyib ki, torpağı kim ayırıbsa, əraziyə də sənədi o verməlidir.

Mübahisə obyekti olan torpağı isə V.Əbilhəsənovadan əvvəl həmin postu tutmuş bələdiyyənin sədri veribmiş. Sədr dəyişəndən sonra isə 2 hektar torpağın verilməsində əsas iştirakçılardan olan F.Hüseynovla torpağı aranlar arasında mübahisə yaranıb. Torpağı alan şəxslər ondan torpağa aid sənədləri israrla tələb ediblər.

### Bir neçə milyon pul ödəyib torpaq almış şəxslərin haqlı tələbi qarşısında F.Hüseynov çox pis duruma düşüb...

Olaydan bir neçə gün əvvəl V.Əbilhəsənovanın torpağa aid sənədləri F.Hüseynova verməyəcəyini deməsi onu cinayətə sürükləyib. O, sənədləri zorakılıqla əldə etmək qərarına gəlib. F.Hüseynovda torpağa aid sənədlərin yeni bələdiyyə sədrində olması haqda əvvəldən məlumat olub.

Bunu söyləməyə əsas verən isə F.Hüseynovun olaydan əvvəl Əbilhəsənovların Saray qəsəbəsində yerləşən digər mənzilinə gedib orada sənədləri axtarmasıdır.

Əgər F.Hüseynov axtardığı sənədləri orada tapsaydı, bu gün bələdiyyə sədrinin qətlindən yox, mənzilindən sənədlərin oğurlanmasından söhbət gedəcəkdi. Əlbəttə ki, bələdiyyə sədri bu haqda hüquq-mühafizə orqanlarına məlumat versəydi...

### Qatil Əbilhəsənovların digər mənzilində hansı sənədləri axtarıb?

Lent.az-ın əməkdaşı Sarayda olaraq orada eşitdiklərini qələmə alıb. Saytın əməkdaşının yazdıqları redaksiyamıza daxil olan məlumatların doğruluğunu təsdiqləyir. Sayt yazır ki, hadisə ilə bağlı ilkin araşdırma və əməliyyat-axtarış tədbirlərinə başlayan hüquq-mühafizə orqanları F.Hüseynovun atası Güloğlan Hüseynovu və qardaşı Nuru Hüseynovu polis idarəsinə dəvət ediblər. Bu müddət ərzində o da məlum olub ki, F.Hüseynov məlum cinayəti törətməzdən az əvvəl və ya az sonra Həsənovların Saray qəsəbəsində yerləşən digər evinə gedibmiş və burada hansısa sənədləri axtarırmış...

### Qatil ad gününə pəncərədən "gəlib"

Əslən Qərbi Azərbaycandan olan ər və arvadı Saray qəsəbəsində, Vəfadar Həsənovun anasının məzarının yanında yanaşı basdırıblar. İyunun 8-də Vəsilə Əbilhəsənova 40-cı yaşına qədəm qoyacaqdı. Elə bu gecə - iyunun səkkizinin ilk saatları bu ailənin son dəqiqələrini yaxınlaşdırırdı. Maraqlıdır ki, Vəfadar Əbilhəsənov xanımını təbrik etmək üçün bir az da tələsib. Elə gecə ikən sifariş etdiyi tortu və gül dəstəsini ona təqdim edibmiş. Bir neçə dəqiqə sonra isə çağırılmamış qonağın gələcəyini kimsə gözləmirmiş. Hadisənin törədildiyi otaqda qalmış gül dəstəsi və kəsilmiş tort da bu olayın nə qədər qəfil və gözlənilməz olduğuna dəlalət edir.

Qonşuların bildirdiyinə görə, M.Ziyadov küçəsində yerləşən iki mərtəbəli həyət evi müasir təhlükəsizlik sistemi ilə təchiz edilib. Amma evi və ev sahiblərini yaxşı tanıyan F.Hüseynov hasardan üzüm çardağına dırmaşmaqla birinci təhlükəsizlik maneəsini asanlıqla yarıb və çardaqdan ikinci mərtəbədəki eyvana daxil olub. Cinayətə əvvəlcədən hazırlıqlı olan 35 yaşlı F.Hüseynov burada qəfil hücumla ər və arvadına bıçaqla çoxsaylı zərbələr endirib və onların öldüyünə əmin olandan sonra evdən çıxıb. Səs-küyə gələn uşaqlar və ailənin digər üzvləri qətlin məhz tanıdıqları Fədail tərəfindən törədildiyini görüblər.

Hadisə ilə bağlı ilkin araşdırma və əməliyyat-axtarış tədbirlərinə başlayan hüquq-mühafizə orqanları F.Hüseynovun atası Güloğlan Hüseynovu və qardaşı Nuru Hüseynovu polis idarəsinə dəvət ediblər. Bu müddət ərzində o da məlum olub ki, F.Hüseynov məlum cinayəti törətməzdən az əvvəl və ya az sonra Həsənovların Saray qəsəbəsində yerləşən digər evinə gedibmiş və burada hansısa sənədləri axtarırmış. Evin alt-üst edilməsi də bunu deməyə əsas verir. Bu gün saat 10:45 radələrində isə atası ilə telefonda danışan F.Hüseynov özü polis idarəsinə gələrək təslim olub. Onun cinayəti törətdiyi bıçaq hadisə yerinin yaxınlığındakı həyətdən tapılıb. Ailəyə yaxın olan şəxslər bildirdilər ki, ər və arvadının qətlindən sonra evin yandırılması xəbəri həqiqətə uyğun deyil. Belə ki, hadisə vaxtı divanın üstünə siqaret düşüb və tüstülənmə yaranıb. Səs-küyə gələnlər yanğının başlamasının qarşısını alıblar. Hazırda məlum faktla bağlı hüquq-mühafizə orqanları araşdırmaları davam etdirir. F.Hüseynovun illərlə tanıdığı şəxsləri hansı səbəbdən qətlə yetirməsi, hadisənin niyə məhz bu gecə törədilməsi, evdə nə axtarması və digər sualların cavabı istintaqın yekununda üzə çıxmalıdır.

### Qatilin barəsində 3 açıq cinayət işi var!!!

Aznews.az xəbər verir ki, F.Hüseynovun indiyədək açıq qalan 3 cinayət işi olub. O, Vəsilə Əbilhəsənovanın həm sürücüsü olub, həm də onun tapşırıqlarını yerinə yetirib.

F.Hüseynov bir vaxtlar Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun bacısı Nərgiz xanımın da sürücüsü işlədiyi aşkar edilib. Ən maraqlı fakt isə onun "dəlilik" kağızı ilə Səhiyyə Nazirliyinin tabeliyində olan Psixi Sağlamlıq Mərkəzinin qeydiyyatında olmasıdır. Məlumata görə, F.Hüseynov ümumiyyətlə cinayətə meylli olub və dəfələrlə bir neçə vətəndaşa qarşı zor tətbiq edib. Çox böyük ehtimalla "dəlilik" kağızını da o, bu əməllərini ört-basdır etmək üçün alıb. İdmançı görkəmi və boyu 2 metrə yaxın olan bu şəxsin ictimaiyyət arasında bu cür aktiv olması da bəzi suallar yaradır.

Faktla bağlı Abşeron Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.7-ci maddəsi (iki və ya daha çox şəxsi öldürmə) ilə cinayət işi başlanıb. F.Hüseynov haqda Abşeron Rayon Məhkəməsinin qərarı ilə 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

❑ E.MƏMMƏDƏLİYEV

# Tanınmış psixoloq Abutalıbovla görüşündən danışdı

## Dəyanət Rzayev: "Mən ondan sonra başa düşdüm ki, bu insanla danışmağın mənası yoxdur, çünki..."

**Xəbər verdiyimiz kimi, Bakının "Dostluq" parkı ərazisində qanunsuz tikilmiş villalar musiqi sədaları altında sökülür. Bunun üçün söküntü işləri aparılan əraziyə xüsusi ansambl gətirilib. Hökumət kanalları bu olayı tamaşaçılara aşağıdakı kimi təqdim edir: "Onun ifa etdiyi musiqi nömrələri baş verənlərə təntənə fonu qatır. O da maraqlıdır ki, söküntü işlərinə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov şəxsən nəzarət edir. Bakı merinin bildirdiyinə görə, sökülən villaların yerində 10 min ədəddən çox ağac əkiləcək".**

Amma söküntü işlərinin musiqi sədaları altında baş tutduğunu izləyənlər üçün bu, daha çox absurd teatrını xatırladır. İnsanlar bu "tandem"də bir fəlsəfə, alt məna axtarmağa çalışsalar da, tapa bilmirlər.


Dəyanət Rzayev

**İqtisadçı ekspert Qadir İbrahimli hesab edir ki, sökülən villalar təbii ki, sadə insanlara məxsus deyil. Ona görə də ictimai reyd qəzəb doğurmur:** "O həddə ki, Hacıbala Abutalıbov musiqiçiləri çağıraraq söküntünü şouya çevirib. Ancaq bu proses Azərbaycanda mülkiyyət hüquqlarına elə bir sarsıdıcı zərbə vurur ki, bunun nəticəsini bir azdan söküntülərə sevinənlər də öz üzərində hiss edəcək".

**Amma bu addımın psixoloji kökləri, cəmiyyətə vermək istədiyi mesaj da var. Psixoloq Dəyanət Rzayev "Yeni Müsavat"a açıqlamasında bu hadisəni şərh etdi. Müsahibimiz öncə dedi ki, bir neçə dəfə Hacıbala Abutalıbovla rastlaşıb, söhbət edib:** "Murtuza Muxtarov küçəsində bina uçan vaxt idi. Həmin binada anamın evi vardı, binanı uçururdular. Hadisə olanda xaricdə idim, qayıdandan sonra onun mobil telefonuna zəng etdim. Baş vermiş hadisə, o binada yaşayanların taleyi ilə bağlı ondan soruşanda dedi ki, siz qeyri-qanuni tikilən binada ev almısız. Ona dedim ki, "bir-iki mərtəbə qeyri-qanuni ola bilər. 18 mərtəbə necə qanunsuz ola bilər? Qeyri-qanuni idisə, tikintini dayandırardız". Cavabı belə oldu ki, "bacarmadım, avtomatla saxlayacaqdım tikintini?" Mən ondan sonra başa düşdüm ki, bu insanla danışmağın mənası yoxdur, çünki adekvat deyil".

**Müsahibimiz dedi ki, sökülən villaların sahibi ortaya çıxmır. Halbuki Azərbaycan balaca ölkədir və məntiqlə Abutalıbov da o villa sahiblərinin kimliyini bilir:** "Bu səbəbdən də villaların sökülməsi prosesini belə şouya çevirir. Onsuz da insanlar gərgindir. Hacıbala Abutalıbov da baş verənlərə hardasa əyləncə, şou qatmaq, gülməli situasiya yaratmaq üçün edib bunu. İnsanlar onsuz da onu ciddi qəbul etmir, ona qarşı aqressiyaları da yoxdur. Əksinə, onun adı gələndə üzlərində bir gülüş əmələ gəlir. Bu çal-çağır aksiyasının səbəbi də insanları şənləndirmək və qıcığın qarşısını almaqdır".

**Bu arada ekspert vurğuladı ki, villaların qanunsuz tikildiyini sübut etmək çətin məsələdir. Onun sözlərinə görə, evin qeyri-qanuni tikildiyi iddia olunsa da, hər kəsin əlində sənəd var:** "Bununla yanaşı, o qədər güclü məmurlardır ki, belə villaları təbii ki, sərəncamsız da tikə bilərdilər. Sadəcə, indi ortalığa çıxmağa qorxurlar və çıxmayacaqlar da".


Hacıbala Abutalıbov

### Bakı merinin villaları "muzıkalnı" sökməsinə reaksiyalar gəldi

**D.Rzayev dedi ki, əslində H.Abutalıbovun bu jestində alt məna qatı, cəmiyyətə mesaj da var. Onun sözlərinə görə, Bakı meri sökülənlər varlıların villası olduğu üçün belə bir addım atıb:** "İnsanlara göstərmək istəyirlər ki, varlıların qanunsuz villalarını çalıb-oynayaraq sökürük. Bu, kasıbların villası olsaydı, belə musiqi ilə etməzdilər. Özü də çal-çağırla... Bir tərəfdən insanlara da mesaj verirlər ki, haqq-ədalət öz yerini tapır. Amma burda bir məqam da var. Deyirlər ki, bu villa məmurundur. Bəlkə heç məmurun deyil, biznesmenindir? İndiki halda isə cəmiyyətdə heç kimi qınamıram. Rüşvət bizim mentalitet üçün normaldır. İnsanlar istəsəydi, rüşvətə qarşı da mübarizə aparardılar".

**Psixoloqun sözlərinə görə, bu aksiyanın H.Abutalıbov tərəfindən edilməsində də maraqlı bir nüans var. D.Rzayev dedi ki, Bakı meri qeyri-ordinar insandır:** "Onun adı yada düşəndə qorxu yaranmır. O nə edirsə, yumşaq formada, heç kimi qıcıqlandırmamaq üçün edir. Ola bilər, onun fikridir, elə edib. Başqa bir məmur bunu etsəydi, insanlarda qıcıq yaradardı. Yadınızdadırsa, son yanan binadakı çayçını qucaqlayıb, "qurban olum sənə, ağlama" dedi. İnsanlar ondan bu cür sözləri, hərəkətləri gözləyirlər. Ona görə də ona qarşı insanlarda aqressiya yoxdur, heç kim də etdiklərinə hirslənmir".

❑ Sevinc TELMANQIZI

# "Şuşaya Azadlıq" kampaniyasının loqosu təqdim edildi

## Azay Quliyev: "Kampaniyanı bundan sonra da uğurla davam etdirəcəyik"



**İyunun 9-da Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə Azərbaycan Demokratik Tələbə Gənclər Təşkilatının (ADTGT) "Şuşaya Azadlıq" beynəlxalq kampaniyasının rəsmi loqosunun müəyyənləşdirilməsi məqsədilə elan etdiyi müsabiqənin nəticələrinin ictimai təqdimatı keçirilib.**

Toplantıda çıxış edən ADTGT-nin sədri Asif Əsgərli müsabiqəyə Azərbaycandan və 8 xarici ölkədən *(İspaniya, Latviya, Ukrayna, Gürcüstan, Moldova, Serbiya, Bosniya və Herseqovina və Türkiyə)* yaradıcı şəxslər və QHT-lər tərəfindən 37 loqo variantının təqdim edildiyini bildirib. Bütün loqo təklifləri Rəssamlar İttifaqı, "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması" İctimai Birliyi, QHT Şurası, ADTGT və müstəqil dizayn-rəssamlıq studiyaları təmsilçilərinin daxil olduğu Ekspert Komissiyası tərəfindən qiymətləndirilib. Orijinallığı və loqo konsepti yüksək qiymətləndirilən Gürcüstan Gənc Diplomatlar Assosiasiyasının prezidenti Zurab Gventsadzenin təqdim etdiyi loqo Ekspert Komissiyası tərəfindən müsabiqənin qalibi seçilib.

Mərasimdə çıxış edən şura sədri, millət vəkili Azay Quliyev "Şuşaya Azadlıq" beynəlxalq kampaniyasının məqsədinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan, tarixi, mədəni abidələri dağıdılan, "Qafqazın musiqi beşiyi" adlandırılan Şuşaya dair həqiqətlərin dünyaya çatdırılması, şəhərin mədəni irsini məhv edən erməni vandalizminin dayandırılması, bu sahədə ədalətin bərpasına xarici ölkələrin vətəndaş cəmiyyəti institutlarını və dövlət strukturlarını cəlb etmək olduğunu deyib.

O, müsabiqənin qalibi Zurab Gventsadzenin Azərbaycanın dost və qonşu xalqının nümayəndəsi kimi dərdlərimizi yaxından anladığını və bu cəhətdən də təqdim etdiyi loqo variantının dolğun və təsirli olduğunu qeyd edib. Şura sədri prezident İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində tezliklə ədalətin bərpa olunaraq Şuşanın həqiqi sahiblərinə təslim ediləcəyini və adıçəkilən kampaniyaya bir daha ehtiyac olmayacağını vurğulayıb.

A.Quliyev I Avropa Oyunları ilə əlaqədar Bakıya minlərlə xarici vətəndaşın gəlməsindən səmərəli istifadə edərək Azərbaycan həqiqətlərinin onlara təbliğ olunması üçün zəruri işlərin görüldüyünü, Ermənistanın işğalçılıq siyasətinin mahiyyətini ifşa edən stend, buklet və digər materialların hazırlandığını deyib.

Sonra Z.Gventsadzeyə xüsusi mükafat və diplom təqdim edilib. Z. Gventsadze loqonun rəmzlərini izah edərək, növbəti ili Şuşada qarşılayacaqlarına inamını ifadə edib.

# Ekspertlər imtahanların "2" nəticələrindən danışdılar

**Orta məktəblərdə buraxılış imtahanlarının nəticələri mətbuatda və sosial şəbəkələrdə ictimai qınaqla qarşılanıb. İyunun 6-da keçirilən imtahanda Sumqayıt, Abşeron, Mingəçevir, Gəncə, Daşkəsən, Şəmkir, Göygöl, Samux, Gədəbəy, Qazax, Ağstafa, Tovuz, Naftalan, Goranboy, Şəki, Zaqatala, Balakən, Qəbələ, Qax və Oğuz şəhərlərində yerləşən orta ümumtəhsil müəssisələrinin buraxılış siniflərində təhsil alan (IX və XI siniflərdə) şagirdlərin mühüm 20 faizdən çoxunun ana dili fənnindən "2" alması cəmiyyətdə orta təhsilin durumu ilə bağlı narahatlıq yaradıb.**

"Yeni Müsavat" buraxılış imtahanlarının nəticələrini ekspertlərlə qiymətləndirib.

**XXI əsr Təhsil Mərkəzinin sədri Etibar Əliyev** deyib ki, cəmiyyətdə səslənən fikirlərin əksinə olaraq, ötən ilin nəticələri ilə müqayisədə nəticələr müsbətdir: "Təkcə 11-ci siniflərin buraxılış imtahanlarında riyaziyyat fənni üzrə ötən tədris ilinə nisbətən 3000-dən çox şagird "4" və "5" qiymətlər alıb. Konkret nəticələr hasil etmək üçün regionlar və Bakı şəhəri üzrə ayrı-ayrılıqda təhlil aparmaq lazımdır. Bir neçə regionda nəticələri təhlil etməklə söyləmək olmaz ki, orta təhsilin keyfiyyəti zəifləyir. İkincisi, daha çox yüksək nəticə göstərənlərin faiz göstəricilərinin təhlilinə diqqət etmək lazımdır. Bakı şəhəri üzrə bizim təhlillərimiz onu göstərdi ki, məktəb təhsilində ciddi geriləmə baş verməyib. Biz də nəticəni bu cür gözləmirdik. Çünki 2013-cü ilə qədər bu geriləmələr daha çox özünü büruzə verirdi. Ancaq son illər məktəblərlə bağlı bir çox islahatlar aparılıb. Məktəb mühitinin yaxşılaşdırılması, direktorların müəyyən təlimlərdən sonra seçilib təyin olunması, Bakı şəhərində çalışan müəllimlərin diaqnostik qiymətləndirilməsi və həmin qiymətləndirmə əsasında əməkhaqlarının artırılması, dərsliklərdə islahatlar aparılması və sair bu nəticələrin yaxşılaşdırılmasına xidmət edir. Bu islahatların fonunda buraxılış imtahanlarında da dəyişikliklər gözlənilən idi".

**Ekspert qeyd edib ki, bütün nəticələr istər ekspertlərin əlində, istərsə də Təhsil Nazirliyinin əlində olmalıdır ki, ümumi şəkildə təhlil edib qənaətə gəlmək mümkün olsun:** "Digər tərəfdən, buraxılış imtahanlarının nəticələri haqqında yazarkən "2" və "3" qiymətlərini eyniləşdirmək olmaz. "3" alanların sayı, "2" alanlardan iki dəfə çoxdur. "3" qiyməti o deməkdir ki, şagirdlər 8 suala düzgün cavab veriblər və TQDK-nın müəyyənləşdirdiyi bal sisteminə uyğun olaraq onların biliyi kafi qiymətləndirilib. İki-üç fəndən şagird biliyinin qiymətləndirilməsi ilə bütövlükdə orta təhsilin səviyyəsinə qiymət vermək bir qədər çətindir. Yeni fənlərin sayına nisbətdə bunu deyirəm. Məktəblərdə xeyli islahatlar aparılıb və bunun nəticələri yaxın gələcəkdə özünü göstərəcək. Qısa zamanda sıçrayışla irəliləyiş gözləmək olmaz".



**Elnur Nağızadə:** "Ötən illə müqayisədə nəticələrdə yaxşılaşma var"



**Etibar Əliyev:** "İki-üç fənnlə bütövlükdə orta təhsilin səviyyəsinə qiymət vermək çətindir"

**Təhsil Nazirliyinin mətbuat xidmətinin rəhbəri Cəsarət Valehov isə buraxılış imtahanlarının nəticələri ilə bağlı ictimai müzakirələrdə Təhsil Nazirliyinin qınaq obyektinə çevrilməsinə münasibət bildirməkdən imtina etdi. Qeyd etdi ki, proses tam yekunlaşandan sonra Təhsil Nazirliyi tərəfindən nəticələrlə bağlı fikir bildiriləcək:** "Proses hələ ki davam edir və bölgələrdə də buraxılış imtahanları keçiriləcək. Yalnız bundan sonra nəticələr haqqında danışmaq olar".

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının mətbuat xidmətinin rəhbəri Elnur Nağızadə isə nəticələri ötən illə müqayisədə müsbət qiymətləndirdi:** "Bütün məlumatlar TQDK-nın rəsmi saytında yerləşdirilib. Hələ ki buraxılış imtahanlarının keçirilməsi prosesi başa çatmayıb. Proses başa çatandan sonra bu haqda qiymətləndirmə aparmaq olar. Bütün fənlər üzrə nəticələri götürsək ötən illə müqayisədə nəticələrdə yaxşılaşma var. Hansı fənn üzrə şagirdlərin pis nəticə göstərməsinə gəlincə, bu məktəblər və bölgələr üzrə müxtəlifdir. Amma ümumilikdə götürsək, nəticələrdə müsbətə doğru dəyişiklik var. Bakıda və mərkəzi şəhərlərdə nəticələr daha yaxşıdır".

❑ **N.LİFTİYEVA**



# "Küyə düşüblər..."

## Türkiyədəki seçkilərə Azərbaycandakı maraq ikili reaksiya doğurub

**İyunun 7-də Türkiyədə keçirilən seçkilər bütün dünyanın diqqət mərkəzində oldu. Ölkəmizdə bu seçkilər daha çox maraqla izlənildi. Həmin gün bütün mətbuat və sosial şəbəkələr qardaş ölkədə gedən proseslərə köklənmişdi.**

Türkiyədəki seçkilərə olan maraq cəmiyyətimizin bəzi təbəqələrinin ciddi qınaq obyektinə tuş gəlib. Onlar hesab edirlər ki, digər ölkədə gedən proseslərə bu qədər diqqət ayırmaq doğru deyil. Əsas olaraq da, bu ilin noyabrında Azərbaycanda keçiriləcək parlament seçkilərini gətirirlər.

**Köşə yazarı Zamin Hacı** bu barədə sosial şəbəkələrdə diqqətçəkən status paylaşıb: "Türkiyə 10 ildən çoxdur, şəxsən mənim üçün Ceyhanda durbanın bitdiyi yerdən başqa heç nə deyil. Türkiyə seçkiləri ilə niyə belə dəhşət maraqlanırsınız anlamıram. Təbii, beş-on nəfər orda alveri olanları başa düşürəm. Qalanları elə bil ki, küyə düşüblər. Qardaşlıq-filan deyirik, amma qardaşlıq budursa, o zaman gürcülər bizim babamızdır".

**Politoloq Qabil Hüseynli Türkiyəni bütün türk dünyasına örnək göstərdi:** "Türkiyə Azərbaycanın strateji müttəfiqidir. Bütün türk dünyasını birləşdirə biləcək bu gücü siyasi amilə çevirəcək bir örnəkdir. Azərbaycanla Türkiyə arasında daim "bir millət, iki dövlət" termini işlədilir. Bu iki dövlətin ortaq problemləri oxşarlıq təşkil edir. Hər iki dövlət arasında strateji ortaqlıq haqqında xüsusi müqavilə imzalanıb. Bu müqaviləyə görə, biz siyasi və hərbi məsələlərdə Türkiyə ilə birlikdə hərəkət edirik. Son aylarda birgə hərbi təlimlər də keçirilir. Göründüyü kimi, bu iki xalqı bir-biri ilə bağlayan qırılmaz bağlar çoxdur. Türkiyə uzun müddətdir Ermənistanla sərhədləri bağlayıb. Düşmən ölkənin blokadaya alınmasında iştirak edir. Bütün səylərə baxmayaraq, Azərbaycan torpaqları azad olunmayınca, bu blokadanı götürməyəcəyi barədə vəd verib. O qədər bizi yaxın edən qırılmaz tellər var ki, kənara atmaq mümkün deyil. Deyə bilmərik ki, onlar ayrı, biz ayrı dövlətlərik. "Bir millət, iki dövlət" ifadəsi boş yerə işlənməyib. Bütün sahələrdə bu fikir yerinə yetirilir. Türkiyədə digər türk ölkələrinə örnək olacaq seçki sistemi, demokratiya, idarəçilik var. Bu hallar digər türk dövlətləri tərəfindən mənimsənilməyə çalışılır. Oradakı seçkilərə maraq, demokratik seçkilərin yollarını öyrənmək, tanış olmaq marağından doğur. İnsanlar AKP-nin uzun illər hakimiyyətdə qalmasının səbəblərini də öyrənməyə çalışır. Türkiyənin daxildə gedən proseslər seçkilərə olan marağı artırırdı. Azərbaycan insanı da bilmək istəyirdi ki, Türkiyə indiyə qədər parlamentar üsulla idarə olunub, prezidentliyə keçə biləcəkmi? Seçkilərə diqqəti artıran səbəblər kifayət qədər çox idi".

**Qabil Hüseynli Türkiyədəki seçkilərə maraq göstərməyin vacibliyini də vurğuladı:** "Türkiyə bizim üçün örnək ölkədir. Çox şeyi öyrəndiyimiz, Azərbaycanın tarixinə təsir edəcək imkanlara malik ölkədir. Xüsusilə problemlərimizin bir qismində, Dağlıq Qarabağ münaqişəsinin həllində bizə yeganə kömək edəcək ölkədir. Ona görə də orada hansı iqtidarın hakimiyyətdə olması bizim üçün çox əhəmiyyətlidir. Kürdlər parlamentdə keçdilər. Həmin an öz xislətlərini ortaya qoydular. Necə yəni Qarabağ problemi Türkiyənin problemi deyil? Bu problem bütün türk dünyasının problemidir. "Erməni soyqırımı"nın tanınması üçün hazırda kürdlər dəridən-qabıqdan çıxırlar. Məqsəd Türkiyəni təzminat verməyə məcbur etmək, bu məsələni yenidən gündəmə gətirməkdir. Türkiyədə əvvəlki dövrlər olsa, o şəxs barəsində tədbirlər görülməlidir. Yəni Türkiyəyə maraq həmişə var, olacaq. Seçkilərə də maraq xüsusilə əhəmiyyətlidir. Çünki Türkiyədə iqtidarda kimin olması, Azərbaycanın taleyi, bu günü və gələcəyi üçün prinsipal əhəmiyyətə malikdir".

❑ **Cavanşir ABBASLI**

# BVF-nin manat proqnozu- devalvasiya təhlükəsi sovuşub?



## Ekspertlər ikinci kəskin devalvasiya məsələsinin gündəmə gələ biləcəyini vurğulayırlar…

**Azərbaycanda bu il 8,5, gələn il 6,6 faiz inflyasiya proqnozlaşdırılır. Beynəlxalq Valyuta Fondu (BVF) 2015-ci ildə Azərbaycanda ÜDM-in 1,8 faiz artacağını proqnozlaşdırır. Bu barədə BVF-nin Azərbaycanda səfərdə olan missiyasının rəhbəri Raca Almarzoqi məlumat verib. R.Almarzoqi deyib ki, cari ildə qeyri-neft sektorunda 3,5 faiz artım olacağı gözlənilir: "Bu ilin yanvarın 1-dən aprel ayına qədər faktiki məlumatlara baxanda qeyri-neft sektorunda 6,5 faiz artımın olduğunu müşahidə etdik. Ona görə də, bütövlükdə iqtisadiyyatın 1,8 faiz artacağını proqnozlaşdırırıq". (APA)**

İnflyasiyaya gəlincə, R.Almarzoqi deyib ki, bu il 8,5 faizlik qiymət artımı gözlənilir. Onun sözlərinə görə, gələn il inflyasiyanın 6,6 faiz olacağı proqnozlaşdırılır: "Biz inflyasiyanın iki rəqəmli olacağını düşünürdük. Amma devalvasiyadan tələb azaldı, iqtisadiyyata kredit qoyuluşunda azalma müşahidə edildi. Manatın devalvasiyası elan edildikdən sonra dövlət tərəfindən müvafiq tədbirlərin görülməsi kəskin qiymət artımının qarşısını aldı. Bununla belə, ilin sonuna qiymət artımının davam edəcəyini gözləyirik".

**Ekspertlər isə manatın növbəti devalvasiya təhlükəsinin ötüşmədiyi qənaətindədirlər. Ekspert Samir Əliyevin musavat.com-a bildirdiyinə görə, manatın devalvasiyası təhlükəsinin sovuşduğunu demək tezdir:** "Bu təhlükə hələ ki qalır və hökumətin planından çıxmayıb. Hazırkı vəziyyət manatın sabitliyi üçün zəmin yaradır, ancaq bu, daimi deyil. Milli valyutanın taleyi dünya bazarlarında neftin qiymətindən asılıdır. "Qara qızıl"ın indiki qiymət səviyyəsi manatın bir müddət rahat nəfəs almasına imkan verir. Hələ ki neft 60-70 dollar arasında dəyişir".

**Ekspertin sözlərinə görə, ona görə manat üçün hazırda əsas problem kapital axınıdır:** "Mərkəzi Bankın valyuta ehtiyatının azalmasının səbəblərindən biri də məhz bu amil idi. Hökumət hələ ki kapital axınının qarşısını inzibati yolla almağa çalışsa da, problem həllini tapa bilməyib. Hələ ki çətinliklə də olsa, nail ola bilir. Ancaq bu, müvəqqəti xarakter daşıyır. Hazırda qeyri-likvid kapitalın likvidə çevrilməsi prosesi gedir. Bu, aylar da çəkə bilər. Biz bunun əlamətlərini yay-payız aylarında müşahidə edəcəyik. Xüsusilə də iri sahibkarlardan zorla kredit ödənişi tələb edilməsinin fəsadları olacaq. Hökumət kapital axınını dayandıra bilsə, neftin indiki qiymət diapazonunda manat üçün təhlükə yoxdur. Böyük ehtimalla, ən azı seçkiyə qədər 1 dollar 1,03-1,06 manat çərçivəsində saxlanacaq".

**S.Əliyev qeyd edib ki, əgər neft ucuzlaşarsa, yəni 50 dollardan aşağı düşərsə, manatın yumşaq devalvasiyası mütləq baş verəcək:** "Ola bilsin, hökumət bunun adını yumşaq devalvasiya yox, məzənnənin neftin qiymətinə adaptasiyası adlandırsın. İstənilən halda söhbət devalvasiyadan gedəcək. Neft 30-40 dollar həddinə düşərsə, bu, uzun müddət davam edərsə, ikinci kəskin devalvasiya məsələsi gündəmə gələcək. Hər bir halda tədiyyə balansının 6 aylıq icra vəziyyəti ilə bağlı məlumat əsasında dəqiq fikir söyləmək mümkün olacaq".

Ekspert Natiq Cəfərlinin sözlərinə görə isə, BVF-nin proqnozu xeyli yumşaqdır: "Rəsmi məlumata əsasən, may ayında Azərbaycanda 0,6 faiz deflyasiya qeydə alınıb. Bu ilin may ayında Azərbaycanda ərzaq məhsullarının qiymətləri 1,5 faiz ucuzlaşıb, qeyri-ərzaq mallarının qiymətləri 0,2 faiz, əhaliyə göstərilən pullu xidmətlərin qiymət və tarifləri 0,1 faiz bahalaşıb. Tərcüməsi budur ki, ölkədə guya qiymətlər düşüb. Azərbaycan hökumətinin tək-tük normal əlaqəsi qalan beynəlxalq qurumlardan biri Beynəlxalq Valyuta Fondudur. BVF-nin nümayəndəsi açıqlama verib ki, Azərbaycanda bu il 8,5 faiz inflyasiya proqnozlaşdırılır, 2015-ci ildə Azərbaycanda ÜDM-in 1,8 faiz artacağı gözlənilir. Açığı, BVF də xeyli dərəcədə yumşaq açıqlama verib ki, hökumət çox da hirslənib, onları da Bakıdan qovmasın. Bu il inflyasiya ilin sonuna 2 rəqəmli olacaq, ÜDM isə ən yaxşı halda azalmayacaq... Orta təhsilli insana da məlumdur ki, yalan məlumatlar üzərində doğru analizlər qurmaq olmaz, doğru analiz etmədən, dürüst qərarlar vermək mümkün deyil. Doğru-dürüst qərarlar olmadıqda isə ölkə batır, ölkə batsa ilk zərbə elə hökumətə dəyəcək. Yəni məntiqi ardıcıllıq bu qədər bəsit olduğu halda, niyə özlərini aldadırlar ki?!"

❑ **RÖYA**

# Qarabağ əlilinin borcla tikdirdiyi evi sökürlər



**"23 ildir ki, Xəzər rayonu, Mərdəkan qəsəbəsi, Günəşli sanatoriyasında məskunlaşmışıq. Oğlanlarımı evləndirdiyim üçün Günəşli sanatoriyasının həyətində ev tikdim. Evi tikib qurtardığım gün isə gəlib bildirdilər ki, ev sökülməlidir. Bunu tikəndə əvvəldən görürdünüz, niyə demirdiniz ki, qanunsuzdur, tikmək olmaz?! Mən o evi tikmək üçün borca girmişdim".**

Bu sözləri Xocalı sakini, 2-ci qrup Qarabağ əlili Oqtay Abdullayev redaksiyamıza müraciət edərək deyib. Şikayətçi ev tikmək üçün 50 min manatdan çox xərc çəkdiyini dedi: "Biz Xocalıdan çıxanda ailə üzvlərimin sayı 5 nəfər idi. Övladlarım ailə qurduqdan sonra ailə üzvlərimizin sayı artaraq 13 nəfər olub. Məcbur olub 2014-cü ilin mart ayında Günəşli sanatoriyasının boş ərazisində icazəsiz olaraq ev tikdim. Mən evi tikdiyim ərazi zibilxana kimi bir yer idi. Oğlum 3 il idi ki, nişanlı idi. Ev problemi ucbatından evləndirə bilmirdim. Evi tikib qurtarana qədər bir nəfər də olsa gəlib demədi ki, niyə tikirsən və ya olmaz. Amma evi tam tikib qurtardığım gün sanatoriyanın baş həkiminin köməkçisi gəlib evin şəklini çəkərək məni Xəzər Rayon Məhkəməsinə verdi ki, bu ev sökülməlidir. Mənim tikdiyim evin sanatoriyaya heç bir maneçiliyi yoxdur. Artıq bir ildir ki, məhkəmələrdə qalmışam. Məhkəmələrdə qərar çıxarır ki, ev sökülməlidir. Hazırda iş Ali Məhkəmədədir. Mən də bilirəm ki, evi icazəsiz tikmişəm. Ancaq nə edə bilərdim, çarəsiz idim. Mən o evi tikəndə hər kəs görürdü. O zaman niyə yaxınlaşıb demədilər ki, xərc çəkib tikmə, onsuz da söküləcək?! Mən banka, borca girərək o evin tikilməsinə 50 min manatdan çox vəsait sərf etmişəm. Hazırda da onun borclarını ödəyirəm. Prezidentə, aidiyyəti qurumlara məktub yazaraq xahiş etmişəm ki, torpaqlarımız geri alınana qədər mənə o evdə müvəqqəti yaşamağa icazə versinlər. Ya da məni başqa evlə təmin etsinlər. Əgər bunların heç biri mümkün deyilsə, mənim o evin tikilməsinə sərf etdiyim vəsait qaytarılsın. Ancaq müraciətlərimə hələ ki cavab gəlməyib. Qəzetiniz vasitəsilə dövlət başçısından və aidiyyəti qurumlardan bir daha xahiş edirəm ki, məhkəmə dayandırılsın, evi sökməsinlər. İcazə versinlər torpaqlarımız qayıdana qədər həmin evdə yaşayaq".

❑ **Günel MANAFLI**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**
**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**
**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**
**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**
**Əlaqə telefonu: (055) 206-14-61**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**
**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)**

# "Layk" düyməsini sevməyənlər....

## İqtidarın da, müxalifətin də "ortaq bəlası"-layk...




**İslam Əməkdaşlıq Təşkilatının Avropa İttifaqı yanında daimi müşahidəçi missiyasının rəhbəri vəzifəsində çalışan Arif Məmmədovun yanan bina ilə bağlı facebook statusunda məmurları tənqid etməsi gündəmin əsas mövzusuna çevrilib. Azərbaycan XİN-in yüksək rütbəli əməkdaşı statusuna "heç bir xalq bu qədər zülmə və haqsızlığa dözməz" sözlərini də əlavə edib.**

Bu xəbər yayıldıqdan sonra prezident İlham Əliyevin sərəncamı ilə Eynulla Mədətli Azərbaycanın Ukraynadakı səfiri və GUAM yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılıb. Səfirin geri çağırılmasının səbəbləri haqqında heç nə deyilməsə də, bu statusu "layk" edənlər arasında geri çağırılmış səfirin oğlu, Azərbaycanın Brüsseldəki diplomatik missiyasının əməkdaşı Anar Mədətlinin olması müəmmaları artırıb. Səfirin statusunu layk edən 2 XİN əməkdaşı isə sonradan bu hərəkətləri üçün izahat verərək hətta üzr istəyiblər.

Bu isə Azərbaycanda sosial şəbəkənin gücü, hətta ordakı statusların "layk" faizinin belə necə ciddi hadisələrə səbəb olduğunu göstərir. Amma bu, təkcə iqtidar düşərgəsi üçün keçərli durum deyil. Müxalifət cəbhəsində də insanlar layk monitorinqi aparırlar. Kim hansısa liderə qarşı sərt status yazdı, kimlər onu layk etdi, bu layk digər sərt statusların altından da "boylanırmı"? Artıq sözügedən məsələ ciddi siyasi polemikalarda da "silah", "arqument" kimi istifadə edilir.

Psixoloqlar isə hesab edir ki, bu, sosial şəbəkənin insanların həyatına ciddi müdaxiləsinin nəticəsidir. Belə ki, artıq həyat facebook üzərində qurulduğundan münasibətlər, intriqalar, bəzən siyasətdəki böyük prosesləri də sosial şəbəkə tənzimləyir. Bu isə şəxsi münasibətləri kəskin şəkildə zədələyir. Mütəxəssislərin fikrincə, bəzən deyilən çox da sərt olmayan söz, fikir sosial şəbəkədə özünü "dəyər"indən artıq göstərir. Üzbəüz deyildiyi zaman, səs tonunun, mimikanın da müşayiəti ilə çox sərt effekt yaratmayan fikirləri sosial şəbəkədə oxuyanda insanlara toxunur. Xüsusən də bu fikri dəstəkləyənlərin varlığı tənqid hədəfinə "meydanda təklənmiş" təəssüratı yaradır. Cəmiyyət mühəndisləri hesab edir ki, bunun problem həddindən adi normaya çevrilməsi insanların tolerantlıq, dözümlülük həddinin artmasından asılıdır. Zaman keçdikcə inkişaf etmiş cəmiyyətlərdə olduğu kimi, Azərbaycanda da sosial şəbəkəyə olduğundan artıq yük, status verilməyəcək.

Amma bu da sirr deyil ki, bu günə qədər sosial şəbəkə, orda yazılan hansısa status, paylaşılan foto dünyanın ən inkişaf etmiş ölkələrində belə ciddi problemə səbəb olub. Onlardan bir neçəsini nəzərə çatdıraq.

Məsələn, saxta pulla aldadılan 22 yaşındakı cənubi karolinalı qarson Eşli Consonun başına gələnlər bişmiş toyuğun başına gəlməz. Qarson onu uzun saatlar boyu ayaq üstə saxlayıb, bəxşiş olaraq da saxta pul verən müştərinin və çalışdığı restoranın adını facebookda paylaşdığı üçün işdən çıxarılıb. İşdən çıxarılma səbəbi isə müştərilərini aşağılamasıdır.

Daha bir hadisə isə facebookda ictimai rəylə bağlı araşdırma hazırlayan bir məhkəmə jürisi olan qadınla bağlıdır. Qadın proses davam etdiyi zaman hansı istiqamətdə səs verəcəyini bilmədiyi üçün sosial şəbəkənin yardımından istifadə edib. Belə ki, səsvermə keçirən qadın dərhal jüri üzvlüyündən çıxarılıb.

**Keçək sosial şəbəkənin digər "ÇP"lərinə:**

- Keçirdikləri partinin səhəri bir dostunun bədənini qaralayan Caitlin Davis adlı qız da bu səbəbdən işini itirib. Belə ki, o, yatmış rəfiqəsinin bədəninə müxtəlif simvolları əks etdirən şəkillər çəkərək sosial şəbəkədə paylaşıb. Bu hərəkətinə görə çalışdığı şirkət onu işindən azad edib. Xəstəxanada "plankinq" (döşəməyə uzanma) aksiyası keçirən işçi heyəti bunun şəkillərini facebookda paylaşdığı üçün işini itirib.

- İngiltərədə bir futbol komandasının maskotu *(komandanı simvolizə etmək üçün istifadə edilən heyvan, çizgi film xarakteri)* öz komandasının transferləri barədə sosial şəbəkədə tənqidi fikir bildirdiyi üçün işdən azad edilib.

- Çalışdıqları hava yolları şirkətini ifşa edən işçi heyəti bu işdə sosial şəbəkənin xidmətindən istifadə etdikləri üçün məlum sonluq onları da haqlayıb. Belə ki, onlar "Thirteen Virgin Airlines" hava yolu şirkəti motorlarının nə qədər sıx dəyişdiyini bildirən və kabinaların da hansı tezlikdə böcəklərin istilasına məruz qaldığını bildirmişdilər. Buna görə də status yazılan kimi şirkət rəhbərliyi onların işinə son verdi.

- Cənubi Karolinanın "ən avara məktəbində" çalışan müəllimə elə facebook səhifəsindəki "haqqında" bölümünə "ən avara məktəbdə müəllimlik edir" yazmışdı. Onun bu "səmimiyyəti" məktəb rəhbərliyi tərəfindən qəbul edilmədiyi üçün işdən çıxarılıb.

- Bukinqam Sarayında çalışan Keyt Middletona facebook vasitəsilə ən ağır təhqirləri söyləyən Kameron Reylinin işinə son verilib.

- Şagirdini facebookda dostluğa qəbul edən müəllim onun şəklinin altına "çox seksual bir poza" deyə şərh yazdığı üçün işindən azad edilib.

- Facebookda əlindəki içki qədəhi ilə poza verən müəlliməyə də işdən çıxması üçün vaxt verilib. Hələ də işini geri qazanmaq üçün çalışır.

- Şikəst olmadığı ortaya çıxan Nathalie Blanchard adlı qadının başı ağrıyıb. 2008-ci ildən bəri şikəstlik sığortası alan qadın yay tətili zamanı çəkdirdiyi əyləncəli və sağlam şəkillərini facebookda paylaşdığı üçün məvacibi kəsilib.

- Facebookda müdirini və işini pisləyən bir alman qızın başına gələnlər də maraqlı olub. O, müdirini dost siyahısına əlavə etdiyini unutduğu üçün yazdığı statuslar da birbaşa müdirinə çatıb. Nəticədə qızcığaz da tez bir zamanda işini itirib.

- Şagirlərinə qarğış edən müəllimənin hekayəsi isə lap maraqlıdır. 6-cı sinfə gedən bir şagirdin sahil gəzintisində ölməsindən sonra facebook profilində "bu gündən etibarən sahil gəzintisinin tələbələrim üçün çox yaxşı bir gəzinti tərcihi olduğunu düşünürəm. Onlara nifrət edirəm" tipli status yazıb. Müəllimə haqda məktəb rəhbərliyi şiddətli töhmət verib və işdən azad edib.

- Monastırdakı kompüterdə arxiv yaratmaq əvəzinə daha çox facebookda vaxt keçirən rahibə. Maria Jesus Galanın bu hərəkəti birmənalı qarşılanmayıb. Onu dərhal Santa Domingo el Real monastrından çıxarıblar.

- Tania Dickinson adlı qadın facebook vasitəsilə Sosial İnkişaf Nazirliyindəki vəzifəsini aşağıladığı üçün işdən qovulub.

- Gürcustandakı futbol komandalarından birinin texniki direktoru olan Frank Samuelson facebookdakı irqçi sözləri ucbatından vəzifəsindən qovulub.

- İsveçrədə bir qadın iş yerinə zəng vuraraq, miqrendən əziyyət çəkdiyini və bir günlüyünə evdə qaranlıq bir otaqda işləyəcəyini bildirib. Amma gün ərzində onun facebookdakı hərəkətləri görüldüyü üçün işinə son verilib.

❑ **Sevinc TELMANQIZI**

# Parfümeriya mağazalarındakı kampaniyaların arxasındakı sirr...

## Alıcılar onlara köhnə məhsullar təklif edildiyini iddia edir







**Hazırda ölkədə kosmetikanın geniş partiyada satışı ilə mağazalar şəbəkələri ilə yanaşı, müvafiq markaların distribütörləri də məşğul olur. Ancaq onlar arasında mağazalar şəbəkələri bir-biri ilə rəqabəti, kampaniyaları ilə daha çox diqqəti cəlb edir. Bu kampaniyalar ya endirimlər, ya da "birini alana biri hədiyyə" kampaniyası çərçivəsində həyata keçirilir. Bu cür kampaniya həyata keçirən mağazalardan biri də geniş alıcı kütləsi olan, eləcə də keyfiyyətli kosmetika və ətrin satışı üzrə qarant hesab edilən "İdeal" mağazasıdır.**

İdeal mağazasında "bir alana 1 hədiyyə" kampaniyası piştaxtalarını nədənsə az satılan və ucuz əmtəələr bəzədiyini müşahidə etdik. Elə alıcılarda kampaniyaya əsas brendlərin daxil olmamasından narazılıq edirdilər. Hətta alıcılar arasında kampaniyaya yararlılıq müddətinə az qalan məhsulların daxil olduğunu iddia edənlər də vardı. Onların sözlərinə görə, vaxtı bitmiş və ya bitməyə az qalmış məhsulları satmaq üçün zaman-zaman bu cür kampaniyalar keçirilir. Mağazadakı satıcıların bir neçəsindən bu iddialara münasibət öyrəndik. Onlar deyilənlərin reallıqdan uzaq olduğunu bildirdilər. Satıcıların sözlərinə görə, bu kampaniyanı onlar mütəmadi olaraq, əsasən də yay aylarında keçirirlər. Ancaq "İdeal" parfümeriya mağazasında olarkən bir sıra kosmetik məhsulların və ətirlərin üzərində istehsal və ya son yararlılıq tarixini görə bilmədik. Qeyd edək ki, "İdeal" mağazası "Chanel", "Dior", "Lancome", "Guerlain", "Bourjois", "Calvin Klein", "Collistar", "Chopard", "Gucci", "Burberry", "İsadora", "Hugo Boss", "Kenzo", "Lacoste", "Lanvin", "Lumene" kimi kütləvi kosmetikanın ən çox tələb olunan brendlərinin satışını həyata keçirir. Ancaq bu brendlərdən heç də hamısı bu kampaniyalar siyahısına düşmür. Qiymətləri "ceyran belində" olan bu brendlərə isə alıcıların əksəriyyəti yalnız baxmaqla kifayətlənir. Rəsmi statistikada Azərbaycanda kosmetika və ətriyyatın illik satışının adambaşına 15 manat təşkil etdiyi bildirilsə də, müşahidə etdiyimiz mənzərə bu rəqəmin nə dərəcədə qeyri-real olduğunu ortaya çıxarır. Mağazalarda ən ucuz kosmetikanın satış qiyməti 15 manat, ətir isə 30 manat təşkil edir. Kosmetik vasitələr 0-25 dərəcə temperaturda, qaranlıq, yaxşı havalandırılan, nisbi rütubətin 70 faizi aşmadığı yerlərdə saxlanılmalıdır. Tərkibində səthi aktiv maddələr və spirt olan kosmetik vasitələr isə 20 dərəcəyədək temperaturda saxlanmalıdır. Qeyd edək ki, məhsulların son istifadə tarixləri qablaşdırmanın üzərində mütləq qeyd edilir. Məhsulun istifadə müddətini göstərən PAO *("Period After Opening" yəni açıldıqdan sonrakı saxlama müddəti)* işarəsinin olmasıdır. Bu işarə qapağı açıq qab şəklinin içində rəqəm və "M" hərfindən meydana gəlir. Qab şəklinin içində "6 M" yazılıbsa, deməli, bu məhsul açıldıqdan sonra 6 ay müddətində istifadə edilə bilər. Mütəxəssislər kiprik üçün istifadə edilən tuş və duru göz laynerlərinin 3 ay, tonal krem və ya korrektorların 6-12 ay, ənlik, kirşanın 12-18 ay, dodaq boyası və dodaq parıldadıcılarının 12 ay, göz və dodaq qələmlərinin 2-3 il, nəmləndiricilər, üz və göz kremləri, serum və maskaların isə 6 ay və ya 1 il yararlılıq müddəti olduğunu bildirirlər.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
Son səhifə
N 125 (6153) 10 iyun 2015



## Dünyanın sonudur - yeni tarix açıqlandı

Dünyanın dağılacağı, sonu olması barədə söz-söhbət yenidən gündəmə gəlib. Bir çox elmi populyar bloqlarda dünyanın sonunun bu payız ola biləcəyi yazılıb. Bu tarix 22-28 sentyabr ola bilər. "Mirror" yazır ki, bu nəzəriyyənin müəllifləri hesab edirlər ki, üç aydan sonra yer nəhəng meteoritlə toqquşacaq. Nəticədə bütün canlı aləm məhv olacaq. Kosmik sahədə özlərini ekspert adlandıran şəxslər isə düşünürlər ki, Apokalipsisin tezliklə ola biləcəyi Bibliyada da qeyd edilib. Onlar düşünürlər ki, meteorit zərbəsindən sonra yeddi illik sükut başlayacaq. NASA isə bu məsələyə bir az başqa nöqteyi-nəzərdən yanaşır. Alimlər iddia edirlər ki, asteroidlərin böyük hissəsi atmosferdə yanır. Bu bizim planetin müdafiə təbəqəsidir.

"Bizim hesablamalarımıza görə, yaxın bir neçə yüz ildə Yer üçün heç bir təhlükə yoxdur - yeni hər hansı nəhəng kosmik cisimlə toqquşma gözlənilmir".

Kosmik agentliyin nümayəndəsi deyir ki, həmkarları ilə daima toqquşma riskini minimuma endirmək üçün yeni texnologiyalar üzərində iş aparılır. Qeyd edək ki, bu, dünyanın sonu ilə bağlı səslənən ilk təxmin deyil. Belə ki, ən son ABŞ-dan olan rahib Harold Kempink Apokalipsisin 2015-ci ilin 21 mayında olacağını deyirdi. Onun dediklərini bir çox həmkarı da dəstəkləyirdi. İndi isə onlar iyun ayına kimi necə gəlib çıxdıqlarına təəccüblənirlər.

## Narkotik kilsəsi xeyriyyə qurumu oldu

Amerikada İndiana ştatında narkotikin qadağan olunmasına baxmayaraq "Birinci narkotik kilsəsi" dövlət tərəfindən bir kilsə və xeyriyyə qurumu olaraq tanıdılıb. Kilisə narkotikə sitayiş etmir, lakin narkotiki insanları xoşbəxtliyə yaxınlaşdıran yollardan biri kimi qəbul edir. Birinci narkotik kilsəsi dini haqların qorunması məqsədilə qanuna qarşı gəlmək üçün 59 yaşlı Bill Levin tərəfindən inşa edilib. Kilsənin 12 qaydası var. Bunlar arasında ən önəmliləri internet aludəçisi olmamaq, səbzə-meyvə yetişdirmək, sabahları gülümsəyərək oyanmaq və zorbalığa məruz qalanları qorumaq ən önəmlilərdir.



## Ciddədə qüllə rekordu

Ciddədə inşa edilən yeni tikili 1 kilometr yüksəkliyindəki "Burc Xəlifə"nin rekordunu qıracaq. İnşaat 2018-ci ildə bitəcək. Dünyanın ən yüksək binası olam özəlliyi daşıyan Dubaydakı "Burc Xəlifə"nin hündürlüyü 838 metrdir. Bu il içərisindəki apartmantların satışına başlanılacaq olan bina tamamlandığı zaman Eyfel qülləsindən 3 dəfə hündür olacaq. Səudiyyə krallıq ailəsinə mənsub milyarder Şahzadə Əl-Vəlid bin Talala məxsus 167 mərtəbəli qüllənin içərisində çoxlu sayda hotel, lüks otaqlar və ofislər olacaq. 540 min kvadrat metrlik əraziyə sahib olacaq olan qüllədə 80 min nəfər çalışacaq və yaşayacaq. Qüllədə 59 lift quraşdırılacaq. Bunlardan beşi iki mərtəbəli olacaq. Liftin birinci mərtəbədən sonuncu mərtəbəyə çıxması 40 saniyə vaxt alacaq.




## Araşdırma yazısı ilə evlənmə təklifi

Kanadalı araşdırmaçı Caleb Brovnun sevgilinə etdiyi evlənmə təklifi hər kəsi şoka salıb. Kanadanın Alberta ştatında yaşayan Brovn dinozavrlar haqqında hazırladığı araşdırma yazısını evlilik təklifi ilə sonlayıb. Dünyanın dörd bir tərəfində məşhurlaşmasına səbəb olan araşdırmanı hazırlayan Brovn yazısının son cümləsində sevgilisinə evlənmə təklif edib. Brovn kimi dinozavr qalıqları ilə maraqlanan sevgilisi də bu təklifi qəbul edib. "Hələ də davam edən və keç kəsilməyən dəstəklərinə görə Lornaya təşəkkür edirəm. Lorna mənimlə evlənərsənmi?" deyə çıxışının sonuna əlavə edib. Ölkə mediasına müsahibə verən Brovn "daha əvvəl kimsə belə bir evlənmə təklifi edibmi bilmirəm. Mən heç vaxt görməmişəm" deyib.




**QOÇ** - Ünsiyyətdə olduğunuz bütün insanlarla davranışlarınızı səmimilik üzərində qurun. Yaxın günlərdə maddi problemlərinizin aradan qalxacağına nikbin yanaşın. İnsanlara inamla baxın.

**BUĞA** - Olduqca təzadlı gündür. Ünsiyyətdə olduğunuz adamlar sizi çaşdıra bilər. Gələcək perspektivlərinizi reallaşdırmaq üçün müzakirələrə başlayın. Ulduzlar sizi müdafiə etməkdədir.

**ƏKİZLƏR** - İştirakçısı olduğunuz proseslərə ciddi yanaşsanız, gün ərzində nəzərdə tutduğunuz perspektivlərin əksəriyyətinə qovuşacaqsınız. Sağlıq durumunuza fikir verin, əsəblərinizi qoruyun.

**XƏRÇƏNG** - Hələ də böyük planlarınızın reallaşmaması daxili gərginliyinizi artıra bilər. Buna baxmayaraq, özünüzdə təmkin tapıb Ulu Yaradana ümid bəsləyin. Uzaq səfərə çıxmaq olar.

**ŞİR** - Sürprizlər yolunuzu gözləyir. Bu səbəbdən də bir yerdə durmamalısınız. Evə bir qədər gec getsəniz də olar. Əsas məsələ planlarınızı həyata keçirməkdir. Dostlarınızla soyuqlaşmayın.

**QIZ** - Daxili sabitliyinizi qoruyun. Əks təqdirdə, müttəfiqləriniz sizdən uzaqlaşa bilər. Çalışın ki, hər bir davranışda səmimi və təbii olasınız. Yalan vədlər verməkdən uzaq olun.

**TƏRƏZİ** - Ulduzların düzümü maliyyə imkanlarınızın genişlənəcəyindən xəbər verir. Varlanmaq üçün xeyli şanslarınız var. Bu istiqamətdə hər bir mümkün variantdan yararlanın.

**ƏQRƏB** - Müəyyən təsirlərə məruz qalacağınız gözlənilir. Bunun qarşısını almaq üçün riskli sövdələşmələrdən, məsuliyyətli işlərdən uzaq durmalısınız. Günün ikinci yarısını gəzintilərə həsr edin.

**OXATAN** - Daha bir səmərəli gün yaşayacaqsınız. Astroloji göstəricilər hər hansı qanqaraçılığın mümkünlüyünü təkzib edir. Qərarlarınızda qəti olsanız, bəxtiniz də gətirəcək.

**OĞLAQ** - Səhər saatlarında müəyyən gərginliklə rastlaşsanız da, bunun neqativ nəticələri görünməyəcək. Təxminən saat 12-dən vəziyyətiniz düzələcək. Amma sağlamlığınızı da gözdən qoymayın.

**SUTÖKƏN** - İşlə bağlı müəyyən mübahisələriniz gözlənilsə də, bu, nəzərdə tutduğunuz planların reallaşmasına mane olmayacaq. Bu gün ailə-sevgi münasibətlərindəki passivliyi mütləq aradan qaldırın.

**BALIQLAR** - Etibar etdiyiniz bəzi şəxslər tərəfindən aldadıla bilərsiniz, ələlxüsus da yaxın ətrafınız tərəfindən. Belə məqamlarda soyuqqanlılıq nümayiş etdirməyiniz vacibdir. Bu gün qazanmaq ehtimalınız da var.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Saxladığı ilanın qurbanı oldu



Sankt-Peterburq şəhərində yaşayan bir qadın evində saxladığı 3 metrlik ilanın qurbanı olub. Milisin evdə ölü olaraq tapdığı qadının cəsədi üzərində aparılan araşdırmalar nəticəsində məlum olub ki, o, ilan sancması nəticəsində ölüb. Bəzi mütəxəssislər ilanın zəhərsiz olduğunu və qadını boğaraq öldürdüyünü deyirlər. Hadisə yerinə gələn milislər ilanı çətinliklə ələ keçiriblər. Məlumat üçün bildirək ki, Moskvada yırtıcı heyvanların evdə saxlanılması qadağan edilib.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.